**PAŞA YAQUB**

# Xanım Övliyalar

Bakı - 2015

*(Ramazan bayramı)*

**Redaktor:** **Nazim Tapdıqoğlu (*Vəlişov*) -** *tədqiqatçı-tarixçi, Bakı Dövlət Universitetinin müəllimi, "Qızıl Qələm" mükafatı laureatı*

Paşa Yaqub «**Xanım övliyalar**»,
Bakı,«Zərdabi LTD» MMC, 2015, 168 səh.

*Əsasən elmi-dini və tarixi-etnoqrafik araşdırmalarla məşğul olan tanınmış publisist Paşa Yaqub müxtəlf mövzulara aid otuzdan çox kitabın müəllifidir. "Xanım övliyalar" kitabında müəllif övliyalıq məqamına yüksəlmiş bir neçə kəramətli qadının həyatını araşdırır, onların nümunəvi əxlaqını, faydalı əməllərini və kəramətlərini bugünkü insanlara, gələcək nəsillərə nümunə göstərir.*

*Kitabda həmçinin, kimya, fizika, anatomiya, biologiya, astronomiya, daktiloskopiyya, kibernetka və informatika elmlərinin "Quran"la əlaqəsi və son dövrlər baş verən müəmmalı təyyarə, qatar və enerji qəzalarının sirləri araşdırılır.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*

$Y\ \frac{4605120494-07}{0103-2015}$ Qrifli nəşr

© Paşa Yaqub, 2015
© "Zərdabi LTD" MMC, 2015

## QURANDA QADININ DƏYƏRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Bildiyimiz kimi, İslam dini və onun müqəddəs kitabı olan "Qurani-Kərim" qadına böyük dəyər vermişdir. Başqa səmavi kitablardan fərqli olaraq, "Quran"da qadınların adına bir çox surələr vardır. Buna misal olaraq "Qadınlar" (4), "Məryəm" (19), "İmtahana çəkilmiş qadın" (60) surələrini göstərmək olar. Həmçinin, bu müqəddəs kitabın yüzlərlə ayəsində qadınlardan, onların gözəl əxlaqından, kamil imanlarından və Allaha bağlılıqlarından, dualarının Allah dərgahında qəbul olunmasından bəhs olunur:

***"İmranın zövcəsinin*** *(Hənnənin):* ***"Ey Rəbbim, bətnimdəkini Sənə xidmətkar*** *(qul)* ***olmaq üçün nəzir edirəm.*** *(Bu nəziri)* ***məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!" – dediyini xatırla!***

***Onu*** *(bətnindəkini)* ***doğduğu zaman: "Ey Rəbbim! Mən qız doğdum", - söylədi. Halbuki, Allah onun nə doğduğunu və oğlanın qız kimi olmadığını yaxşı bilirdi.*** *(Hənnə:)* ***"Mən onun adını Məryəm qoydum, onu***





***və onun nəslini məlun*** *(daşqalaq olunmuş)* ***Şeytandan*** *(Şeytanın şərindən)* ***Sənə tapşırıram"*** *(dedi).*

***Belə olduqda, Rəbbi Məryəmi yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyəyə tapşırdı. Zəkəriyyə hər dəfə Məryəmin ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. Zəkəriyyə: "Ya Məryəm, bunlar sənin üçün haradandır?" - dedikdə, o: "Allah tərəfindəndir!" - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!"*** *"Quran", "İmran ailəsi" surəsi, 35-37.*

Ayədən görünür ki, Rəbbim kişilərlə (kişi peyğəmbərlər, imamlar, övliyalarla) yanaşı, bəzi qadınlara da hikmət (elm, mərifət, kəramət) bəxş etmişdir. Məryəmin yanında daim Cənnət ruzilərinin olması da onun kəramətini təsdiq edən ayədir. Və yaxud, *"Məryəm"* surəsində onun kəramətinə dair başqa fakta rast gəlirik:

***"****(Qurumuş)* ***xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş xurma tökülsün! Ye-iç, gözün aydın olsun!"*** *19:25-26*

Müqəddəs kitabda həmçinin qadın haqlarına hörmətlə yanaşmaq, onlara qarşı nəzakətli olmaq da kişilərə vacib buyrulmuşdur:

"***Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir!*** *(Qadınlar)* ***açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin*** *(mehrin, hədiyyənin)* ***bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl rəftar edin. Əgər onla-***

***ra nifrət etsəniz** (dözün). **Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah** (sizdən ötrü) **çoxlu xeyir nəzərdə tutmuş olsun.***

***Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə** (birinciyə) **çoxlu mal vermiş olsanız da, ondan heç bir şey geri almayın! Məgər bu malı böhtan atmaq və aşkar bir günah iş görməklə gerimi alacaqsınız?! Siz onu necə geri ala bilərsiniz ki,** (vaxtilə) **bir-birinizlə yaxınlıq etmişdiniz və onlar** (qadınlarınız) **sizdən möhkəm əhd-peyman almışdılar".** "Qadınlar" surəsi, 19-21-ci ayələr.*

Quranda qadınlar barəsində xəbər verilən bu hikmətləri oxuduqdan sonra bir araşdırmaçı olaraq, Azərbaycan ərazisində, eləcə də, digər yerlərdə yaşamış hikmətli (kəramətli) qadınların həyatlarını araşdırıb kitab halına salmaq qərarına gəldim. Rəbbim buyurur ki, ***"Allah istədiyi şəxsə hikmət** (elm, mərifət, kəramət) **bəxş edər. Kimə hikmət bəxş olunmuşsa, ona çoxlu xeyir** (əbədi səadət) **bəxş olunmuşdur".***

İnsan həyatda gözəl işlər, gözəl əməllərlə məşğul olduqca və Quran ədəbi, Quran əxlaqı ilə yaşadıqca, onun nuru artır və Allaha başqalarından daha yaxın olur. Yaxın olduqca da duaları daha tez qəbul edilir. Belə şəxsləri Rəbbim "Quran"da vəliyullah, həbibullah, övliyaüllah adlandırır ki, dilimizə tərcüməsi Allahın vəlisi, dostu, həbibi mənasını verir. Belə şəxslər xalq arasında əsasən kəramət sahibləri kimi tanınırlar. Həm kişilər,





həm də qadınlar arasında rast gəlinən bu cür şəxslər **mərifət elmi**nə sahib olurlar.

Könüllə bilmək, Allah-təalanı hakkıyla tanıyıb bilməyə ***mərifət*** deyilir. Məhəmməd Məsum Faruki insanın izzətinin iman və mərifət ilə olduğunu, mal və mülk ilə olmadığını bildirmişdir. Əbül-Həsən bin Sai isə, ***"Mərifət – hər durumda qulun Allah-təalanın verdiyi nemətlərə şükr etməkdə aciz qaldığını, gənc və güclü zamanlarında da zəif olduğunu bilməsi ilə əldə olunur"*** - demişdir.

Bu cür mərifət elminə sahib olan şəxs (istər kişi olsun, istər qadın) ***kəramət sahibi*** sayılır.

### *Kəramət nədir?*

Allah dostları kəramətin özləri üçün böyük bir imtahan olduğunu bilərək, bu haldan həmişə ehtiyat etmişlər və şükürlə Rəbblərinə yönəlmişlər. Onlar əsl kəramətin "istiqamət" olduğunu dərk etmiş və bu cür yaşayaraq, başqalarına nümunə olmuşlar.

Kəramət – Allah dostu olan bir şəxsdə fövqəladə bir halın meydana gəlməsidir. Peyğəmbərlərdə zühur edən qeyri-adi hallara isə, möcüzə deyilir.

Kəramət, Allahın öz quluna bir ikramıdır. Kəramət iki cür olur:

**a) Hissi və maddi kəramət**. Buna misal olaraq uzun məsafəni qısa zamanda qət etmə, az qidanı çoxalt-

ma, su üzərində yerimə, odda yanmamaq kimi kəramətləri göstərmək olar.

Allah dostları bu cür kəramətlərə çox da önəm verməz və onu daim cəmiyyətdən gizlətməyə çalışarlar. Bütün bunların Allahın imtahanı olmasından qorxarlar.

**b) Mənəvi və həqiqi kəramət.** Bu kəramətlər elm, ürfan, səxavət, mərifət və əxlaqla əlaqəli kəramətlərdir. Bir insan pis, xoşagəlməz bir halından imtina edərək, gözəl və hamının bəyəndiyi bir hala gələrsə, ən böyük kəramət budur. Həqiqi kəramət elmdə, ürfanda, əxlaqda, ibadətdə, itaətdə, əməldə, ədəbdə və insanlıqda göstərilən üstün nümunələr, fəzilətlərdir. *"İstiqamət kəramətdən üstündür. Çünki kəramət nəfsin, istiqamət isə Rəbbin səndən istədiyi şeydir"* – deyilmişdir. Bu səbəbdən də biz hər namazda *"Fatihə"* surəsini oxuyarkən Rəbbimizə *"Bizi doğru yola hidayət et"* (5-ci ayə) - deyə, dua edirik.

Həqiqi Allah dostları elm, ürfan və əxlaq vasitəsiylə baş verən dəyişiklikləri, irəliləmələri və yüksəlişləri gerçək kəramətlər olaraq qəbul etmişlər. Hissi və maddi kəramətlərə isə, çox da önəm verməmişlər. Bir şeyxin və yaxud seyidin göstərdiyi ən böyük kəramət bir kafirin mömin olmasına, bir günahkarın pis əxlaqdan nəfsini tərbiyə etməsinə vəsilə və vasitə olmasıdır. Hissi və maddi kəramətə isə, bütün çarələr tükəndikdə, əlac kəsildikdə baş vurmuşlar.

Övliyalardan biri həqiqi kəramətin Allah-təalanın dostluğunu qazanmaq və Allahı sevmək olduğunu belə





ifadə etmişdir: *"Nə qəlbdə, nə də ürəkdə sevgilinin görəcəyi boş bir yer yoxdur. Mənim arzum, xəyalım və sevincim Allahdır. Ömrüm olduqca Onunla olsam, xoş bir həyat yaşayacağam. Qəlbimə gələn dərdlərin çarəsinə ondan başqa həkim tapa bilmədim".*

Həqiqi kəramətin Allahın dostluğunu qazanmaq, əxlaqca yüksəlmək və nəfsin tərbiyə edilməsi olduğunu Həzrət Rəbiyə ilə Həzrət Həsən Bəsri arasında baş verən bir əhvalatda aydın görmək olur. Belə ki, bir gün Həsən Bəsri* Fərat çayının kənarında oturan Rəbiyyəni görüncə, səccadəsini suyun üzərinə sərib: *"Gəl burada iki rükət namaz qılaq"* - dedi. Rəbiyyə: *"Ustad, axirət əhlinə dünya bazarından bir nümunəmi göstərmək istəyirsən? O halda onun eləsini göstər ki, insan oğlu bənzərini göstərməkdə aciz qalsın"* – deyə cavab verdi. Rəbiyyə daha sonra səccadəsini havaya sərdi və *"Ey Həsən, sən də buraya gəl və insanların gözündən qeyb ol"* dedikdən sonra əsas söyləmək istədiyini söylədi: *"Ustad, sənin etdiyini balıqlar, mənim etdiyimi isə, mələklər edər".*

Buradan belə qənaətə gəlmək olur ki, kəramət *"Allahım, yaradılışımı gözəlləşdirdiyin kimi, əxlaqımı*

---

* Həsən Bəsri VII əsrdə yaşayıb. Həzrət Peyğəmbərin xanımlarından birinin yaxın qohumu olduğundan körpəliyi Peyğəmbərin evində keçib və ondan dərs alıb. Peyğəmbərdən aldığı elm və feyzlərlə övliyalıq məqamına çatan bu şəxs İslamı təbliğ etmək üçün Azərbaycana ezam olunur və ömrünün sonuna qədər burada qalır. Hazırda qəbri Şamaxı rayonu ərazisindədir.

*da gözəlləşdir”* - duasıyla həyatı səadət və riza ilə yaşamaqdır. Necə ki, Həzrət İbrahim: *“Ya Rəbbim, məndən sonra gələcək nəsillər arasında xoş sözlərlə anılıb, gözəl duyğularla xatırlanmamı istəyirəm”* – deyə dua etmişdir.

Əlinizdəki bu kitab da Allah dostlarından olan bir neçə kəramətli xanımları xoş sözlərlə anıb, gözəl duyğularla yad etmək istəyindən yazılıb ərsəyə gəlmişdir.

Bir tədqiqatçı olaraq, niyyətim xanım övliyaların kamil elmini, nümunəvi əxlaqını, gözəl əməllərini öyrənərək, müasir insanlarımıza nümunə göstərməkdir. Buna nə dərəcədə nail olduğumu kitabı oxuyanda biləcəksiniz.

Ümid edirəm ki, Allaha yaxınlaşmaq, Onun dərgahında məqam qazanmaq istəyən hər bir mömünə Allah dostu olan xanımların həyatı bir nümunə olacaqdır.

***“Allah kafirlərə Nuhun övrəti ilə Lutun övrətini misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və*** *(Nuhla Lut)* ***onları Allahın əzabından heç vəchlə qurtara bilmədilər. Onlara: “Başqaları ilə birlikdə siz ikiniz də Cəhənnəmə girin” – deyildi”.***

***“Allah iman gətirənlərə isə Firoonun zövcəsini*** *(Asiyə bint Məzahimi)* ***misal çəkdi. O zaman o: “Ya Rəbbim! Mənim üçün Öz dərgahında – Cənnətdə bir ev tik. Məni Firoondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!” – demişdi”.***





***“****(Allah mömin qadınlara)* ***həmçinin namusunu*** *(ismətini)* ***möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkdi. Biz*** *(Cəbrayıl vasitəsi ilə)* ***libasının yaxasından ona Öz ruhumuzdan üfürdük. Məryəm Rəbbinin sözlərini*** *(şəriətini, dini hökmlərini),* ***kitablarını təsdiq etdi və Allaha itaət edənlərdən oldu”.*** *“Quran”, “Qadağan” surəsi, 10-12-ci ayələr.*

*Allahın aciz qulu:* ***Paşa Yaqub***

## HƏZRƏT MƏRYƏM

***"Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: "Ya Məryəm, həqiqətən, Allah səni seçmiş,*** *(eyiblərdən)* ***təmizləmiş, cəmi aləmlərin*** *(bütün dünyanın)* ***qadınlarından üstün tutmuşdur. Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və rüku edənlərlə birlikdə rüku et!*** *(Namaz qılanlarla bir yerdə namaz qıl!)" "Quran", "İmran ailəsi" surəsi, 42-43.*

Quranda adı zikr olunan xanım övliyalardan biri (birincisi) Həzrət Məryəm anamızdır. Odur ki, bu Həzrət qadın övliyalarının simvolu sayılır. Atasının adı İmran, anasının adı Hənnədir. Atası Bəni-İsrailin böyüklərindəndir. İmranla Hənnənin xeyli zaman idi ki, övladları olmurdu. Hənnə bir gün Allaha üz tutaraq nəzir etdi ki, ona bir oğul qismət etsin, Beytül-müqəddəsə xidmətçi qoyar. O vaxt adət idi ki, Beytül-müqəddəs xidmətinə ancaq oğlan uşaqlarını nəzir edərdilər. Hənnə də məhz buna görə oğlan uşağının olmasını arzulayırdı.

Amma az bir vaxtdan sonra hamilə qalıb qız doğdu. O vaxt dua etdi ki, "Ya Rəbb, mənim ümidim oğlan idi, lakin qız doğdum. Sən onu xidmətə layiq bil və qəbul elə". Bu duanı edib, uşağın adını Məryəm qoydu. Sonra





aparıb Beytül-müqəddəs əhbarlarına verdi. Çünki nəzir olunmuş uşağı xidmətə qəbul olunca, onlardan biri bəsləməli idi. Məryəm əleyhissəlam böyük bir şəxsin övladı olduğuna görə əhbardan hər biri onu götürüb nəvaziş göstərmək istədi. Mübahisə püşk atılması ilə nəticələndi və Beytül-müqəddəsin rəisi Həzrət Zəkəriyyə Peyğəmbərin adı çıxdı. Xoşbəxtlikdən həm də Zəkəriyyə Peyğəmbərin arvadı İşa Həzrət Məryəmin doğmaca xalası idi. Beləliklə, onlar Həzrət Məryəmi ailələrinə götürüb sevə-sevə böyütməyə başladılar.

Bu hadisəni Rəbbim müqəddəs "Qurani-Kərim"də bizlərə belə çatdırır:

***"İmranın zövcəsinin*** *(Hənnənin):* ***"Ey Rəbbim, bətnimdəkini Sənə xidmətkar*** *(qul)* ***olmaq üçün nəzir edirəm.*** *(Bu nəziri)* ***məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!" – dediyini xatırla!***

***Onu*** *(bətnindəkini)* ***doğduğu zaman: "Ey Rəbbim! Mən qız doğdum", - söylədi. Halbuki, Allah onun nə doğduğunu və oğlanın qız kimi olmadığını yaxşı bilirdi.*** *(Hənnə:)* ***"Mən onun adını Məryəm qoydum, onu və onun nəslini məlun*** *(daşqalaq olunmuş)* ***Şeytandan*** *(Şeytanın şərindən)* ***Sənə tapşırıram"*** *(dedi).*

***Belə olduqda, Rəbbi Məryəmi yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyəyə tapşırdı. Zəkəriyyə hər dəfə Məryəmin ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. Zəkəriyyə: "Ya Məryəm, bunlar sənin üçün haradandır?" - dedikdə, o: "Allah tərəfindəndir!" - deyə cavab***

***verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!"*** *Quran, "Məryəm" surəsi, 35-37.*

Həzrət Məryəm xidmətə qəbul olunana qədər xalası İşanın yanında böyüdü. Sonra Həzrət Zəkəriyyə onu Beytül-müqəddəsə gətirib xüsusi bir yerdə sakin etdi. O gündən Məryəm (ə.) xidmət və ibadətə başladı. Zəkəriyyə Peyğəmbərdən başqa heç kəs onun yanına getməzdi.

Bir gün Zəkəriyyə əleyhissəlam Həzrət Məryəmə baş çəkmək üçün gələndə onun yanında mövsümü olmayan meyvə gördü. Soruşdu ki, bu meyvələr sənin üçün haradandır? Məryəm cavab verdi: "Allah-təalanın hədiyyəsidir". Həzrət Zəkəriyyə bildi ki, Məryəmin Həqqi-təalaya olan xidməti və ibadəti müqabilində Allahdan göndərilmiş yeməkdir...

Bu arada Zəkəriyyə Peyğəmbərlə İşanın da övlaları yox idi. Hər ikisi qocalıb əldən düşmüş, Hənnə isə tamamən heyzdən kəsilmişdir. Lakin Həzrət Zəkəriyyə Allahdan ümidini üzməyib, övladsızlığı barədə Rəbbinə yalvardı və bir övlad dilədi. Duası müstəcəb olub, bir gün Həzrət Cəbrayıl ona nazil oldu və oğlu Yəhyanın doğulacağı ilə Zəkəriyyə Peyğəmbəri müjdələdi. Bu hadisə Quran-Kərimdə belə nəql edilməkdədir:

***"Bu sənin Rəbbinin öz qulu Zəkəriyəyə olan mərhəmətinin xatırlanmasıdır!***

***Zəkəriyyə Rəbbinə gizlicə dua edib yalvardığı zaman belə demişdi: "Ey Rəbbim! Artıq sümüyüm sustalmış, başım ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə dua***





***etməklə heç vaxt naümid olmamışam*** *(nə dua etmişəmsə, qəbul olunmuşdur)****.***

***Mən özümdən sonra gələn qohum-əqrəbamdan*** *(əmioğlularımın və digər vərəsələrimin məsləkimi ləyaqətlə davam etdirməyəcəyindən)* ***qorxuram. Zövcəm də ki, qısırdır. Buna görə də mənə Öz dərgahından bir oğul*** *(vəli)* ***bəxş et ki,***

***O həm mənə, həm də Yaqub nəslinə (onlara lütf edilmiş peyğəmbərliyə) varis olsun. Ey Rəbbim! Həm də elə et ki, o*** *(öz əqidəsi, itaəti və gözəl əxlaqı ilə)* ***riza*** *(Sənin rizanı)* ***qazanmış olsun!"***

*(Allahdan belə bir nida gəldi:)* ***"Ey Zəkəriyyə! Sənə bir oğulla*** *(oğlun olacağı ilə)* ***müjdə veririk ki, adı Yəhyadır. Biz bu adı əvvəllər heç kəsə verməmişik!"***

***Zəkəriyyə dedi: "Ey Rəbbim! Mənim üçün*** *(ürəyim arxayın olsun deyə, bu barədə)* ***bir əlamət müəyyən et!"*** *(Allah)* ***buyurdu: "Əlamətin budur ki, sən sağlam ikən üç gün-üç gecə adamlarla danışa bilməyəcəksən!"***

*(Nəhayət, Zəkəriyyənin dili tutulduğu, ona danışmaq qadağan edildiyi üçün artıq zövcəsinin hamilə olduğunu başa düşdü və Allahın Öz əhdinə sadiq olduğuna bir daha əmin olub Ona cani-dildən şükür etdi).* ***Sonra Zəkəriyyə mehrabdan*** *(məbəddən)* ***öz camaatının qabağına çıxıb*** *(əli ilə)* ***onlara belə işarə etdi: "Səhər-axşam Allahı təqdis edib şəninə təriflər deyin! Namaz qılın!"***

*(Yəhya dünyaya gəldikdən sonra ona dedik:)* ***"Ey Yəhya! Kitabdan bərk yapış. Biz uşaq ikən ona hikmət***

*(Allah kəlamının incəliklərini anlamaq, peyğəmbərlik)* ***verdik.***

***Yəhya ata-anasına qarşı da olduqca itaətkar*** *(nəvazişkar)* ***idi: zalım, asi*** *(dikbaş)* ***deyildi. Quran, 19: 2-14.***

Yeri gəlmişkən, Yəhya Peyğəmbərin öldürülməsi barədə də qısaca məlumat vermək istərdim. Əhvalat belə baş verdi ki, Bəni-İsrailin qeysəri-Rum tərəfdən təyin olunmuş rəisi Hirdus öz qardaşının dul qalmış iki uşaq anası olan arvadı  ilə evlənmək istədi. Qardaşının dul arvadı da buna çalışırdı. Lakin o dövrün (Tövratın) qanunları ilə (hansı ki, Yəhya Peyğəmbər bu qanunları xalqa təbliğ edirdi) kişi öz qardaşının dul arvadı ilə o vaxt evlənə bilərdi ki, onun uşağı olmasın. Odur ki, Yəhya Peyğəmbər bu evliliyə icazə vermədi. Nəticədə Hirdus ilə qardaşı arvadı hiylə quraraq Həzrət Yəhyanı qətlə yetirdilər.

Yenə də qayıdaq Həzrət Məryəmin başına gələnlərə. Bir gün o, xalası İşanın evində xəlvət bir yerə çəkilərək qüsul edərkən, Həzrət Cəbrayıl əleyhissəlam gözəl bir cavan şəklində ona göründü. Məryəm onu görəndə qorxub dedi ki, səndən Allaha pənah aparıram, mənə toxunma. Cəbrayıl (ə.) dedi: "Qorxma, mən sənin Rəbbin tərəfindən göndərilmişəm ki, səndən bir oğul dünyaya gəlməsini xəbər verəm". Məryəm (ə) dedi: "Haradan mənim övladım ola bilər? Mənə bir bəşər övladının əli dəyməmişdir". Həzrət Cəbrayıl dedi: "Doğrudur, adətən atasız övlad olmaz. Lakin belə əmrlər Allah-təala üçün asandır. Səndən bu formada bir oğul dünyaya gəlməsinə





artıq qərar verilmişdir". Belə deyib, Həzrət Məryəmin yaxasından üfürdü və qeyb oldu. Məryəm (ə.) dərhal özünü hamilə gördü. Bu halına heyran qalıb, nigaran və peşman halda xalası İşanın yanına gəldi. Başına gələni açıb ona söylədi. O da inanıb qıza təsəlli verdi. Sonra Həzrət Məryəm Beytül-müqəddəsə qayıtdı. Bu vaxtlarda onun əmisi oğlu Yusif Nəccar da Beytül-müqəddəsdə xidmət edirdi. Bir gün o Mərymi (ə.) bu vəziyyətdə görüb təəccüb etdi və sual verdi: "Ey Məryəm! Heç bir əkin toxumsuz və ağac susuz göyərərmi?" Həzrət Məryəm cavab verdi: "Bəli, Allah-təala dünyanı yaradanda bütün bitkiləri toxumsuz və susuz yaratdı. Cəddimiz Adəm Peyğəmbəri nəinki atasız, həm də anasız dünyaya gətirdi. Xudavəndi-aləm hər cür xəlq etməyə qadir və Alimdir". Sonra baş vermiş əhvalatı Yusifə açıb danışdı. O da inanıb sakitləşdi.

Bu əhvalat Quran-Kərimdə belə zikr olunur:

***"Kitabda*** *(Quranda)* ***Məryəmi də yad et. O zaman o, ailəsindən ayrılıb*** *(evinin, yaxud Beytül-müqəddəsin)* ***şərq tərəfində*** *(yuyunmaq məqsədilə xəlvət)* ***bir yerə çəkilmişdi.***

***Və ailə üzvlərindən gizlənmək üçün pərdə tutmuşdu. Biz də Öz ruhumuzu*** *(Cəbrayılı Məryəmin)* ***yanına göndərdik. Ona*** *(Məryəmə)* ***kamil bir insan qiyafəsində göründü.***

***Məryəm dedi: "Mən səndən Rəhmana*** *(Allaha)* ***pənah aparıram. Əgər müttəqisənsə mənə toxunma!"***

*(Cəbrayıl:)* ***“Mən sənə ancaq təmiz*** *(məsum)* ***bir oğlan bağışlamaq üçün Rəbbinin*** *(göndərdiyi)* ***elçisiyəm!” – dedi.***

*(Məryəm)* ***dedi: “Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!”***

*(Cəbrayıl)* ***dedi: “Elədir, lakin Rəbbin buyurdu ki, bu Mənim üçün asandır. Biz onu insanlar üçün*** *(qüdrətimizə dəlalət edən)* ***bir möcüzə*** *(sənə və möminlərə isə),* ***dərgahımızdan bir mərhəmət olaraq edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!”***

***Məryəm artıq*** *(Cəbrayılın üfürməsi ilə İsaya)* ***hamilə oldu və onunla*** *(bətnindəki uşaqla)* ***birlikdə uzaq bir yerə*** *(xəlvətə)* ***çəkildi.***

***Doğuş sancısı onu bir xurma ağacının gövdəsinə söykənməyə məcbur etdi.*** *(Məryəm uşaq anadan olandan sonra atası bilinmədiyi üçün cahil insanların dedi-qodusuna səbəb olacağından əndişəyə düşüb)* ***dedi: “Kaş ki, mən bundan əvvəl ölüb qurtaraydım və ya tamamilə unudulub getmiş olaydım!”***

***Dərhal*** *(xurma ağacının)* ***alt tərəfindən ona belə bir nida gəldi: “Kədərlənmə, Rəbbin sənin üçün*** *(ayağının)* ***altından bir irmaq axıtdı*** *(və bətnindəki uşağı hörmət sahibi etdi).*

*(Qurumuş)* ***xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş*** *(xurma)* ***tökülsün!***

*(Xurmadan və sudan)* ***ye-iç,*** *(belə bir uşaq doğduğuna görə)* ***gözün aydın olsun. Əgər*** *(səndən bu uşaq barəsində soruşan)* ***bir adam görəcək olsan, belə de: “Mən Rəhman yolunda oruc*** *(sükut orucu)* ***tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam!”***





***Məryəm uşağı götürüb öz adamlarının yanına gəldi. Onlar dedilər: “Ey Məryəm! Sən çox əcaib bir şeylə*** *(atasız uşaqla)* ***gəldin!*** *(Və ya çox çirkin bir iş gördün!)* ***Ey Harunun bacısı! Atan pis kişi, anan da zinakar deyildi!”***

*(Məryəm onun özü ilə danışın, deyə)* ***ona*** *(uşağa)* ***işarə etdi. Onlar: “Beşikdə olan uşaqla necə danışacaq?” – dedilər.***

*(Allahdan bir möcüzə olaraq körpə dilə gəlib)* ***dedi: “Mən, həqiqətən, Allahın quluyam. O mənə kitab*** *(“İncil”)* ***verdi, özümü də peyğəmbər etdi.***

***O, harada oluramsa olum, məni mübarək*** *(həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən)* ***etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu.***

***O, həmçinin məni anama qarşı olduqca itaətkar*** *(nəvazişkar)* ***etdi,*** *(heç kəsə qarşı)* ***zülmkar, asi*** *(dikbaş)* ***eləmədi!***

***Bu,*** *(yəhudilərin və xaçpərəstlərin barəsində)* ***şübhəyə düşdükləri*** *(Allahın oğlu adlandırdıqları)* ***Məryəm oğlu İsa haqqında*** *(Allahın buyurduğu)* ***haqq sözdür!***

Yəhudilər bələkdəki körpənin (İsanın) danışmasında bir hikmət olduğunu anlayıb əvvəlcə Məryəmə (ə.) inandılar. Amma sonradan “Atasız övlad olurmu?”

deyib, onu ittiham etməyə başladılar. Hətta Həzrət Zəkəriyyə Peyğəmbərin yüz yaşı olmasına baxmayaraq onu bu xüsusda müttəhim bilib şəhid etdilər. Həzrət İsanın atasız dünyaya gəlməyinə inanmadılar. Halbuki, Həzrət Adəmin atasız və anasız yaranmağına inanmışdılar. Yəhudilər Zəkəriyyə Peyğəmbəri şəhid etdikdən sonra Həzrət Məryəmi və övladını da qətlə yetirmək fikrinə düşüb, rəisləri Hirdusu buna vadar etməyə çalışdılar. Bu səbəbdən Həzrət Məryəm əmisi oğlu Yusif Nəccar ilə birlikdə İsanı (ə.) da götürüb gizli şəkildə Misirə hicrət etdilər. On iki illədək orada qaldılar. Sonra Məryəm anamız oğlunu da götürüb, Qüds şəhərinə gəldi və burada Nasara türbəsində sakin oldular. Burada İsa əleyhissəlam otuz yaşına çatdıqda Allah-təala ona Peyğəmbərlik nəsib etdi və "İncili-şərif" nazil oldu. O, bu kitabla xalqı nəsihət etməyə başladı və Həzrət Musanın dininin qüvvədən düşmüş olduğunu bəyan etdi (qeyd edim ki, nazil olan hər müqəddəs kitab öz dövrünün qanunlar toplusu olaraq, özündən əvvəlki kitabın (qanunlar toplusunun) qüvvədən düşdüyünü bildirir. O cümlədən "Quran" nazil olduqda İncil də qüvvədən düşdü). İsa əleyhissəlam peyğəmbərliyini sübut etmək üçün Allahın izni ilə ölünü diriltdi, korun gözünü açdı, çarəsiz xəstələr onun duası ilə sağaldı. Bütün bu möcüzələr və kəramətlər yəhudilərin gözləri qarşısında baş verməsinə baxmayaraq, Həzrət Zəkəriyyə və Yəhya kimi onu da öldürmək qərarına gəldilər. Lakin, Allah-təala onu bu





qəsdən agah etdi və Həzrət İdris kimi göyə çəkiləcəyi ilə müjdələdi...

Mənbələrdə qeyd olunduğuna görə Həzrət Məryəm bir gün səhraya getmişdi. Bir dağın ətəyində yorulub yatdı və orada da dünyadan getdi. Allah behişt hurilərini göndərdi, ona qüsl verdilər. Sonra onun üstünə ağ bir parça saldılar. Həzrət İsa əleyhissalam anasının yanına gedəndə gördü (və elə bildi) ki, yatmışdır və üstündə ağ bir parça vardır. Anasını oyatmağa ürək etmədi, nəhayət, anasının namaz və iftar vaxtı keçəndə yavaş-yavaş onu çağırdı. Cavab eşitmədikdə yaxınlaşıb ucadan çağırdı. Yenə cavab eşitmədi. Parçanı götürdükdə anasının dünyadan getdiyini gördü. Yanar ürəklə, ağlar gözlə anasını götürdü, Beytul-muqəddəsə aparıb dəfn etdi.

İslami mənbələrdə Həzrət Məryəm İsanın həyatda olduğu zaman 51 (və ya 63) yaşında dünyadan getdiyi və Qüdsdəki Beytül-müqəddəsdə – Məscidül-Əqsada* dəfn edildiyi qeyd edilməkdədir.

* Əl-Əqsa məscidi müsəlmanların ilk qibləsidir. İnşasına Davud Peyğəmbər tərəfindən başlanıldığı və oğlu Süleyman Peyğəmbər tərəfindən tamamlandığı rəvayət olunur. Məscidül-Həramdan sonra tikilən ən qədim ikinci məscid hesab olunur. "İsra" surəsinin birinci ayəsində adı çəkilir. "Quran"a görə, Məhəmməd peyğəmbər Rəcəb ayının 27-si gecəsi Məscidül-Həramdan Əl-Əqsa məscidinə Buraq ilə aparıldı. Qeyri-müsəlmanların Əl-Əqsa məscidinə daxil olması qadağandır.

# Peyğəmbər bağçasının Gülləri





## PEYĞƏMBƏR BAĞÇASININ GÜLLƏRİ

***“Həqiqətən iz sənə Kövsər bəxş etdik! Ona görə də*** *(bu nemətlərə şükr edərək)* ***Rəbbin üçün namaz qıl və qurban kəs****! (Oğlanların vəfat etdiyi zaman sənə sonsuz deyən)* ***düşmənin özü sonsuzdur!*** *(Sənin nəslin qiyamətə qədər törəyib artacaq, adına isə həmişə rəhmət oxunacaqdır!)”. Quran, “Kövsər” surəsi.*

Fəxri-kainat Peyğəmbərimiz Məhəmməd əleyhissalamın (Ona Allahın salamı olsun!) Həzrət Xədicədən Qasım və Abdullah adında iki oğlu, Mariya adlı kənizindən isə İbrahim adında bir oğlu olsa da, hər üçü körpə yaşında vəfat etmişlər. Odur ki, Peyğəmbərimizin nəsli qızları vasitəsi ilə davam etmişdir. Bunu nəzərə alıb Məhəmməd əleyhissəlamın qızlarının həyatını araşdırıb, onların gözəl əxlaqını və mənalı həyat yolunu insanlığa nümunə göstərmək qərarına gəldim.

Həzrət Peyğəmbərin qızlarını çox sevməsinin və onları yüksək dəyərləndirməsinin o dövrün sosial-mənəvi mühiti üçün böyük önəmi var idi. Qadınların bütün hüquqlardan məhrum olduğu bir zamanda Allah Rəsulunun qızlarına bəslədiyi dərin sayqı və ata sevgisi, onları

nümayişkəranə şəkildə yüksək qiymətləndirməsi cəmiyyətin mənəvi-etik dünyagörüşündə əsl inqilab idi.

Qeyd edim ki, İslam Peyğəmbərinin Zeynəb, Ruqəyya, Ümmü Gülsüm və Fatimə adında dörd qızı olub ki, bunların hamısının anaları möminlərin anası Həzrət Xədiceyi Kübradır (Ona Allahın salamı olsun!). Yeri gəlmişkən, Xədicə anamız İslama ilk girən və onu canı və var-dövləti ilə dəstəkləyən ilk şəxsdir. Rəsulullah onun haqqında belə buyurmuşdur:

*“Zamanının ən xeyirli qadını Məryəm idi. Bu zamanın da ən xeyirli qadını Xədicədir”*

Peyğəmbərimiz onu vəfatından sonra belə, bütün xanımlarından üstün tutardı. Xədicə anamız həyatda ikən Məhəmməd əleyhissəlam başqa qadınla evlənməmişdir.





## PEYĞƏMBƏR QIZI ZEYNƏB

Həzrət Zeynəb Peyğəmbər (s.) bağçasının ilk gülü olmaqla, qızlarının ən böyüyüdür. Hicrətdən iyirmi iki il əvvəl Məkkədə doğulmuşdur. Dayısı oğlu (anası Həzrət Xədicənin qardaşı oğlu) Əbu Asla evlənmişdir. Evlilikləri İslamdan əvvəl olduğundan, İslamın ilk illərində əriylə özü arasında müəyyən problemlər yaşanmışdır. Belə ki, müsəlmanlar Mədinəyə hicrət edərkən, bütpərəst əri Zeynəbi köçməyə qoymadı. Peyğəmbərin kürəkəninin İslamı qəbul etməməsi möminləri nə qədər məyus edirdisə, Məkkə müşriklərini bir o qədər sevindirirdi. Hətta bir dəstə müşrik Əbu Asın yanına gələrək təklif etdilər ki, Məhəmmədin qızını boşamaq şərti ilə ona Məkkə zadəganlarından kimin qızını istəsə, ala bilərlər. Əbu As onları dinlədikdən sonra belə cavab verdi: “Mən belə bir işi görə bilmərəm. Zeynəbi çox sevirəm, onu heç bir qadına dəyişmərəm. Təklifinizi rədd edirəm”.

Allah Rəsulu bu əhvalatı eşitdikdə, kürəkəninin ağlını təqdir etmişdir.

Zeynəbin hicrətinə izn verməyən Əbu As Bədr döyüşündə bütpərəstlərin tərəfində vuruşmuş və müsəlmanlara əsir düşmüşdü. Xəbəri alan Zeynəb, İslam qa-

nunlarına uyğun olaraq, fidyə müqabilində ərini azad etmək üçün, Mədinəyə adam göndərdi. Fidyə Allah Rəsulunun önünə qoyulduqda, o, qəmləndi və mübarək gözləri yaşla doldu. Çünki fidyə olaraq göndərilən Həzrəti Xədicənin qızı Zeynəbə evlilik hədiyyəsi olaraq verdiyi gərdənlik idi. Allah Elçisi əshabələrinə dönərək dedi: *"Bu fidyəni almaq sizin haqqınızdır, fəqət mən sizdən rica etsəm, Əbu Ası fidyə almadan buraxarsınızmı?"* Əshab bunu sevərək qəbul etdi və Əbu Ası sərbəst buraxaraq, gərdanlıqla birlikdə Məkkəyə yola saldılar. Rəsul ondan Zeynəbi Mədinəyə göndərmək vədini almağı da unutmadı.

Əbu As vədinə əməl edərək Zeynəbi Peyğəmbərin göndərdiyi elçilərə qoşaraq, Mədinəyə yola saldı. Fəqət yolda Məkkə müşrikləri Peyğəmbər qızına hücum etdilər. Həbbar adlı bir bütpərəstin zərbəsi ilə dərədən yıxılan Zeynəb bətnində olan körpəsini itirdi (həmçinin bu yıxılmadan aldığı xəsarət bir neçə ildən sonra Zeynəbin ölümünə səbəb olacaqdır). Həzrət Zeynəbin çəkdiyi bu və digər zillətlərə görə Rəsulullah:

*"O, mənə görə əziyyətlərə məruz qalan ən xeyirli qızımdır"* – buyurmuşdir. (Təbərani, Kəbir, XXII,431- 1051)

Zeynəb Mədinədə Peyğəmbər atasının yanında xoşbəxt həyat sürməkdə ikən, hicrətin altıncı ilində Əbu As bir ticarət karvanının başında Mədinə yaxınlığından keçirdi. Bu vaxt İslam ordusu bütpərəstlərin karvanına hücum etdi və bütün malları ələ keçirdi. Bu vaxt Əbu As birtəhər canını qurtararaq Mədinəyə girdi və Zeynəbi





taparaq, ondan sığınacaq istədi. Peyğəmbər Əfəndimiz qızının verdiyi amanı qəbul etsə də, ona belə tapşırdı: *"Qızım, Allah müsəlman qadınlarının müşrik kişilərlə təmasını qadağan etmişdir. Nigahda da olsan Əbu Asa yaxınlaşma".*

Bütün bunlardan sonra Rəsulullah əshablara xitab edərək buyurdu: *"Sizlər əl qoyduğunuz malların sahibisiniz. O mallar sizin ən təbii haqqınız olan qənimətlərdir. Ancaq mən rica etsəm öz razılığınızla o malları əvvəlki sahibinə qaytarma comərdliyini göstərərsinizmi?"* Onlar hamısı bir ağızdan: *"Məmnuniyyətlə"* – deyə cavab verdilər və karvan mallarından əllərinə keçən hər şeyi qaytarıb Allah elçisinin önünə qoydular.

Əbu Asa mallarıyla birlikdə Məkkəyə dönməkdə sərbəst olduğu bildirildi. Bu anda Əbu As əshaba xitabən dedi: *"Sizlər mənim bütün mallarımı gətirib mənə qaytardınız və azad olduğumu bildirdiniz. Artıq rahat gedə bilərəm. Ancaq mən belə etmirəm, hüzurunuzda Kəlmeyi Şəhadət gətirərək müsəlmanlığımı elan edirəm. Bunu az öncə etsəydim, malları almaq üçün bəhanə olduğunu düşünərdiniz".* Bu bəyanat hər kəsi, ən çox da Zeynəbi sevindirdi. Həzrət Peyğəmbər qızını dərhal yanına çağıraraq bu əmri verdi: *"Artıq yeni nigah mərasiminə lüzum qalmadan, ərinə təslim ola bilərsən".*

Əbu Asın Həzrət Zeynəbə çox böyük bir sevgi və sayğıyla bağlı olduğu bəlli olur. Ayrı qaldıqları illər həmişə Zeynəbi anmış və onun eşq və xatirəsini müqəddəs bir əmanət kimi qorumuşdur. Mənbələr Əbu Asın ticarət

yolçuluqlarında xanım Zeynəb üçün həsrət şeirləri tərənnüm etdiyini bildirirlər. Nəhayət, bu təmiz yaradılışlı insan, səbrinin və sədaqətinin mükafatını görərək, həm xanımına, həm də İslama qovuşdu.

Həzrət Zeynəbin Əbu Asla nigahından Əli adında bir oğlu, Ümamə adlı bir qızı dünyaya gəldi. Əli körpə yaşda vəfat etdi. Ümamə isə, xalası Həzrət Fatimənin vəfatından sonra Həzrət Əli ilə evlənəcək, Əli əleyhissəlamın şəhadətindən sonra isə Əbdülmütəllibin nəvələrindən olan Müğirə ibn Nöfəl ibn Harislə həyatını birləşdirəcəkdir.

Müdrik əl-Əzdi belə nəql edir: “Atamla birlikdə (cahiliyyə) həcci edirdim. Minaya gəlib yerləşdikdə bir qrup adam gördüm. Atamdan:

- Bu camaat nə üçün toplanıb? – deyə soruşdum.

Atam:

-Qövmünün dinini tərk etmiş olan bir şəxs üçün – dedi. Göstərdiyi tərəfə baxdıqda Rəsuli-Əkrəmi gördüm:

*“Ey insanlar! La ilahə illallah” deyin, nicat tapın”* – deyirdi.

İnsanlardan kimi onun üzünə tüpürür, kimi başına torpaq atır, kimi də ona söyüş söyürdü. Günortaya qədər bu vəziyyət davam etdi. O əsnada yaxası açılmış bir qız, əlində su dolu qab və dəsmal olduğu halda gəldi. Ağlayırdı. Kainatın fəxri Peyğəmbərimiz qabı alıb sudan içdi, əl-üzünü yudu. Başını qaldırıb:





*-Əziz qızım, yaxanı başörtünlə ört! Atan haqqında, tələ qurulub öldürüləcək və zillətə salınacaq, deyə qorxma!* – buyurdu.

Bunun kim olduğunu soruşdum, “Qızı Zeynəbdir!” – dedilər (Heysəmi, VI, 21).

Həzrət Zeynəb 31 yaşında, hicrətin səkkizinci ilində Mədinədə dünyaya vida etdi. Rəsulullah cənazə namazını qıldıqdan sonra hüznlü və qədərə razı bir halda qəbirə endi. Bir az dayandıqdan sonra çıxdı və:

*- Zeynəbin zəifliyini düşünərək ona qəbir sıxıntısını və hərarətini xəfiflətməsi üçün Allaha dua etdim. Allah-təala da bu istəyimi qəbul edib qəbir əzabını ona xəfiflətdi”* – buyurdu (İbn Əsir, Üsdül-Ğabə, VII, 131).

## PEYĞƏMBƏR QIZI RUQƏYYA

Həzrət Ruqəyya xanım Peyğəmbər bağçasının ikinci gülüdür. Həyatı barədə məlumatlar çox azdır. Zeynəbdən 2 yaş balacadır.

İlk nişanı Əbu Ləhəbin oğlu Ütbə ilə olmuşdur. Həzrət Məhəmməd əleyhissalam Peyğəmbərliyini bəyan edəndə, Əbu Ləhəb ona qarşı çıxmış və ömrü boyu Peyğəmbərlə mübarizə aparmışdır. Bu səbəbdən oğlundan tələb etmişdir ki, Məhəmmədin qızı ilə nişanını pozsun. Oğlu da Peyğəmbərin qızı ilə nişanını pozub, kafirlərdən birinin qızı ilə evlənmişdir.

Qeyd edim ki, Quranın 111-ci surəsi Əbu Ləhəb haqqında nazil olmuş və surədə Əbu Ləhəb lənətlənərək, Peyğəmbərə verdiyi əziyyətə görə əllərinin quruması hökm olunmuşdur. Surə nazil olandan bir qədər sonra, həqiqətən də Əbu Ləhəbin əlləri qurumuşdur.

Həzrət Ruqəyya bundan sonra Peyğəmbər Əleyhissəlamın yaxın dostu və silahdaşı Həzrət Osmanla ailə qurmuşdur. Onların nigahından Abdullah adında bir oğlu dünyaya gəlmiş, altı yaşında gözünü xoruz dişləmiş, aldığı bu yaradan vəfat etmişdir.

Rəsulullah Həbəşistana hicrət edən Həzrət Osman və qızı Ruqəyyadan bir müddət xəbər ala bilmədi.





Kainatın Fəxri Peyğəmbərimiz tez-tez yola çıxar, o tərəflərdən gələnlərdən övladlarının xəbərini soruşardı. Qüreyşdən bir qadın Həbəş diyarından gəldi. Rəsuli-Əkrəm qızı və kürəkənini ondan da soruşdu. O da:

- Ey Əbul-Qasım, mən onları gördüm – dedi.

Allah Rəsulu:

- *Necədirlər, yaxşıdırlarmı?* – deyə soruşdu.

Qadın:

- Osman Ruqiyyəni bir uzunqulağa mindirib aparır, özü də arxasınca gedirdi, – dedi.

Həzrət Peyəmbərimiz:

- *Allah yar və yardımçıları olsun! Şübhəsiz ki, Osman Lut Peyğəmbərdən sonra ailəsi ilə birlikdə Allah üçün hicrət edən ilk insan oldu,* – buyurdu. (Ali əl-Müttəqi, XIII, 63).

Həzrət Osman çox gözəl bir insan, həyat yoldaşı üçün layiqli bir ər idi. Həzrət Rüqəyya da eyni şəkildə çox gözəl bir xanım idi.

Rəsulullah çox sevdiyi Üsamə bin Zeydi uşaq ikən bir qab yeməklə onların evinə göndərmişdi. Kiçik uşaq evə gəldikdə bu iki gözəl insan qarşısında qeyri-ixtiyari bir Həzrət Osmana, bir də Ruqəyyaya baxmağa başladı.

Sonra Peyğəmbərimizin yanına qayıtdı. Allah Rəsulu:

- Yanlarına getdinmi? – deyə soruşdu.

Üsamə:

- Bəli, – dedi.

Aləmlərin fəxri:

- Yaxşı, heç onlardan daha gözəl cütlük gördünmü? –buyurdu.

Usamə də:

- Xeyr, Ya Rəsulallah! – deyə cavab verdi (Suyuti, Tarixul Xüləfa, s.150).

Həzrət Osman xanımı Ruqəyya ağır xəstə olduğu üçün Peyğəmbərimizin izni ilə Bədr döyüşündə iştirak etməmişdi. Həzrət Ruqiyyə ordu Bədirdə olduğu əsnada vəfat etmiş, zəfərin müjdəsi Mədinəyə çatdığı gün torpağa verilmişdi. Feli olaraq Bədrdə iştirak etməməklə birlikdə Həzrət Peyğəmbərimiz Həzrət Osmanı Bədrdə iştirak edənlərdən saydı və qənimətdən ona da pay ayırdı (İbnul-Əsir, Üsdül-Ğabə, III, 586).

Həzrət Ruqəyya 24 yaşında Mədinədə vəfat etmiş, Baqi qəbiristanlığında dəfn edilmişdir.

Qızı Həzrət Ruqəyya vəfat etdikdə Kainatın Fəxri Peyğəmbərimiz qəbrin yanında oturdu. Həzrət Fatimə də ağlayaraq yanına gəldi və o da oturdu. Allah Rəsulu Fatiməyə olan mərhəməti səbəbiylə paltarının ucu ilə onun göz yaşlarını sildi və təsəlli verdi (Əhməd, I, 335).





## PEYĞƏMBƏR QIZI ÜMMÜ GÜLSÜM

Peyğəmbər bağçasının üçüncü gülü Həzrət Ümmü Gülsüm Zeynəbdən dörd, Ruqiyyədən iki il sonra dünyaya gəlmişdir.

İlk nişanı Əbu Ləhəbin digər oğlu Üteybə ilə olmuşdur. Lakin İslamın ilk illərində Əbu Ləhəbin təkidi ilə Üteybə də digər qardaşı kimi hərəkət edərək, Peyğəmbər qızı ilə nişanını pozub, kafir qızı ilə evlənmişdir. Üteybə Rəsulullaha həqarət etdiyi üçün bir aslan tərəfindən parçalandı.

Digər bacıları kimi həya, əxlaq və iman sahibi olan Həzrət Ümmü Gülsüm xanım bacısı Həzrət Ruqiyyənin vəfatından sonra Həzrət Osmanla evləndi. Onun üçün də Həzrət Osmana *“Zinnureyn”* yəni, iki nur sahibi ləqəbi verilmişdir.

Həzrət Peyğəmbərimiz bir gün Məscidi-Nəbəvinin girişində Həzrət Osman ilə qarşılaşmışdı. Ona:

- Səni son dərəcə kədərli görürəm?! – buyurdu.

Həzrət Osman:

- Ya Rəsulallah! Mənə olan heç kimsənin başına gəlmədi. Rəsulullahın qızı vəfat etdikdən sonra onunla aramdakı qohum-əqrabalıq bağı kəsilmiş oldu! – dedi.

Allah Rəsulu:

- Ey Osman! Budur, Cəbrayıl əleyhissəlam Ruqəyyanın bacısı Ümmü Gülsümü də eyni miqdarda mehrlə və ona etdiyin həyat yoldaşı kimi bir həyat yoldaşı olmaq şərti ilə sənə nigahlamağımı Uca Allah tərəfindən mənə əmr etdi, – deyə buyurdu.

Beləliklə, Allah Rəsulu qızı Həzrət Ümmü Gülsümü Hicrətin üçüncü ilində Həzrət Osman ilə nigahladı.

Kainatın Fəxri Peyğəmbərimiz:

*-Osman ilə Ümmü Gülsümü ancaq səmadan gələn vəhy ilə evləndirdim* – buyurmuşdur (Heysəmi, IX, 86).

Həzrət Ümmü Gülsüm hicrətin 9-cu ilində 28 yaşında vəfat etdi. Cənazə namazını Peyğəmbərimiz qıldırdı. Mədinədəki Baqi qəbiristanlığında, bacılarının yanında dəfn olundu. Həzrət Osman bu itkidən çox kədərləndi və ağladı. Peyğəmbər Əfəndimiz onu bu halda görüb yanına gəldi və Həzrət Osmana xitabən yavaş səslə:

*- Üçüncü qızım olsaydı, yenə sənə verərdim-* buyurdu.





## PEYĞƏMBƏR QIZI FATİMƏ

Nəbilər əfəndisinin son çiçəyi Həzrət Fatimeyi-Zəhradır. Peyğəmbərimizi əhatə edən insanlar arasında onun öz yeri vardır. Allah elçisinin sevimli qızını ***"Cənnət xanımlarının Seyidəsi"*** adlandırması fikrimizi təsdiq edir.

Həzrət Fatimə miladi tarixlə 609-cu ildə doğuldu. Ona Fatimə adını verməsinin səbəbini ucalar ucası Həzrəti Peyğəmbərimiz şəxsən belə açıqladı:

*-Onu sevənləri Allah cəhənnəmindən uzaqlaşdıracağı üçün qızıma Fatimə adını verdim.*

Həzrət Fatimənin ləqəbi **Zəhradır**. Mənası *"Ağ üzlü"* deməkdir. Peyğəmbərimizin xanımlarından biri Həzrət Aişə ögey qızı Fatimə haqqında belə demişdir:

*– Fatimənin üzü o qədər ağ, o qədər aydındır ki, gecələr onun yanında iynə saplayırdım.*

Daha sonra: *"Allah Rəsulu yanında insanların ən sevimlisi Fatimə və onun əri idi"* deyə bildirmişdi. Onun başqa bir ləqəbi də **Betüldür**. Mənası "*Tayıbərabəri olmayan*" deməkdir.

Rəsulullah (ona Allahın salamı olsun) belə buyurmuşdur:

*-Fatimə mənim bir parçamdır, onu sevindirən məni sevindirmiş, onu incidən məni incitmiş olar* (Buxari, Əshabun-Nəbi, 12, 29).

İbn Abbas belə nəql edir:

-Peyğəmbərimiz yerə dörd xətt çəkdi və:

- *Bu xətləri niyə çəkdiyimi bilirsinizmi?* – deyə soruşdu.

Səhabələr:

- Allah və Rəsulu daha yaxşı bilir! – dedilər.

Bunun müqabilində Peyğəmbərimiz:

- *Cənnət qadınlarının ən fəzilətliləri Xədicə binti Xuveylid, Fatimə binti Məhəmməd, Məryəm binti İmran, və Firoonun xanımı Asiyə binti Müzahimdir* – buyurdu. (Əhməd, I, 293)

Həzrət Fatimə Həzrət Əli bin Əbi Talib ilə ailə qurdu. Toy günü Rəsulullah Həzrət Əlidən soruşdu:

*-Ey Əli! Ciyərimi yer üzündə gəzən görsən, nə edərsən?*

Əli əleyhissəlam:

*-Bilmirəm, ey Allahın Rəsulu!* - deyə çaşqınlıqla cavab verdi.

Allah Rəsulu sorduğu sualın cavabını belə açıqladı:

- *Övladlarımız bizim yer üzərində gəzən ciyərlərimizdir. Fatimə də mənim ciyərimdir. Mənim ciyərimlə necə davranarsansa Fatimə ilə də o cür davran.*

Həzrət Fatimə hicrətin 11-ci ilində 29 yaşında Mədinədə dünyasını dəyişdi.

Məhəmməd əleyhissəlam belə buyurmuşdur:

*-Səmadan bir mələk enərək mənə salam vermək üçün Allah-təaladan izn istədi. Bu mələk daha əvvəl heç yerə enməmişdir. Mənə Fatimənin cənnətliklərin xanım-əfəndisi olduğunu müjdələdi* (Hakim, III, 164).





Həzrət Fatimənin Həsən, Hüseyn, Muhassin adlı üç oğlu, Ümmü Gülsüm, Zeynəb, Ruqiyyə adlı üç qızı olmuşdur (qızlarına bacılarının adını qoymuşdur).

Həzrət Həsən atası Kufədə şəhid edildikdən sonra müsəlmanların xəlifəsi oldu. Hakimiyyəti 6 ay davam etdi. Müaviyənin hiyləsi ilə zəhərlənərək şəhadətə qovuşdu.

Həzrət Hüseyn hicrətin 4-cü ilində doğuldu. Haqqında saysız-hesabsız kitablar, məqalələr yazılan İmam Hüseyn Kərbəla faciəsində Yezid tərəfindən şəhid edildi. Bu Həzrət müsəlmanların əqidə məktəbi, şəhidlik simvoludur.

Mühassin çox kiçik yaşlarında vəfat etdi.

Həzrət Fatimənin böyük qızı Zeynəbdir. Kərbəla faciəsinin canlı şahidi idi. Zeynəb Qahirədə vəfat edib, orada da dəfn olunmuşdur.

Həzrət Ümmü Gülsüm Həzrət Fatiəmənin ikinci qızıdır. Doğumundan az sonra anası vəfat etdiyindən yetim qaldı. Böyüyəndə xəlifə Ömər Xəttab oğlu ilə ailə qurdu. Çox keçmədi ki, xəlifə Ömər şəhid edildi. Bundan sonra Həzrət Əli qızını başqasına ərə verdi. O şəxs də şəhid oldu. Beləliklə Ümmü Gülsüm bir neçə dəfə ailə qurdu.

Həzrət Fatimənin sonuncu qızı Ruqiyyədir. Ləqəbləri Sittə və Seyidədir. O da bacısı və qardaşı kimi Kərbəla faciəsini yaşayıb. Bu dəhşətli hadisədən çox təsirlənmişdi. Çox gənc yaşda vəfat etdi.

# İMAM QIZLARININ AZƏRBAYCANA GƏLİŞİ

## *Tarixi şərait*

Şərq regionunda Məhəmməd Peyğəmbərin (s.) iki nəvəsinin – qızı Həzrət Fatimə ilə Həzrət Əlinin oğlanları İmam Həsən və İmam Hüseynin soyundan olan yüzminlərlə seyid yaşayır. Seyidlərin sözügedən coğrafiyada geniş yayılmasının isə, İlahi hikmətdən əlavə, həm də ciddi tarixi-siyasi səbəbləri var.

Tarixi mənbələrdən məlumdur ki, Həzrət Əli övladlarının Hicaz bölgəsindən digər yerlərə köçü daha çox siyasi amillərlə bağlı olub. Belə ki, 661-ci ildə Həzrət Əlinin qətlə yetirilməsi ilə Müaviyənin hakimiyyətə yolu açılır və o, cəmi bir neçə ay içərisində xilafətə rəhbərliyi ələ keçirir. Beləliklə, sonradan "Əməvilər" adlandırılan Müaviyənin sülaləsi, təxminən, 90 il - 750-ci ilədək hakimiyyətdə olur. Məhəmməd Peyğəmbərin (s.) iki nəvəsi – Həsən və Hüseyn Əməvilər hakimiyyəti üçün əsas təhlükə mənbəyi olduğundan, Müaviyə onların sıradan çıxarılmasına çalışır: əvvəlcə, Həsən zəhərləndirilərək öldürülür, daha sonra isə, Müaviyənin oğlu Yəzidə beyət etməyən, onun hakimiyyətini legitim saymayan Hüseynə qarşı təqiblər başlayır. 680-ci ilin mayında Müaviyə ölür və oğlu Yəzid onun yerinə keçir. Aramsız təzyiqlərə baxmayaraq, İmam Hüseyn Yezidə beyət etmir və xilafətin öz qanuni sahibinə qaytarılması





üçün açıq mübarizəyə başlayır. Nəhayət, 680-ci ilin oktyabrında indi "Kərbəla" adlandırılan yerdə Yəzidin 4 min nəfərlik qoşunu İmam Hüseyn və onun yaxınlarını vəhşicəsinə qətlə yetirir.

Kərbəla hadisəsindən sonra Həzrət Əli övladlarına və tərəfdarlarına qarşı amansız təqiblər başlanır.

Qeyd edim ki, xilafətdə sülalə dəyişikliyi - Əməvilərin (661-750) Abbasilərlə (750-1258) əvəzlənməsi İmam Cəfər Sadiqin dövründə baş verdi. Belə ki, 749-cu ildə ərəb xilafətinə qarşı mübarizənin əsas mərkəzinə çevrilən Xorasanda "Bəni-Haşim" qəbiləsinə mənsub iki nəslin başladığı qiyam Əməvi hökmdarı Mərvanın qətlə yetirilməsi ilə nəticələndi və xilafət soy etibarilə Peyğəmbərin (s.) əmisi Abbas ibn Əbdülmütəllibə gedib çıxan "Abbasilər"in əlinə keçdi.

Baxmayaraq ki, Abbasilər hakimiyyətə gəlmək üçün Həzrət Əli övladlarının tərəfdarlarının dəstəyindən yararlanıblar, ancaq onlar da seyidləri – İmamları və onların oğlanlarını öz səltənətlərinə ən böyük təhlükə sayaraq, təqib etməyə başladılar. Məsələn, tarixdən məlumdur ki, Abbasi xəlifəsi Mehdi VII imam Museyi Kazımın nüfuzundan ehtiyatlanaraq, onu Mədinədən xilafətin yeni paytaxtı Bağdada gətirtdirib və daimi nəzarətdə saxlayıb. Bəzi mənbələrin yazdığına görə, xəlifə Mehdi hətta onu öldürtmək də istəyib. Ancaq Museyi-Kazımın ölüm fərmanını verdiyi gecə yuxusunda Həzrət

Əlini görərək, fikrindən daşınıb, tövbə edib və Museyi-Kazımı yenidən Mədinəyə qaytartdırıb.

Digər Abbasi xəlifəsi - Harun-ər-Rəşid İmam Museyi Kazımı təkrar Mədinədən Bağdada gətizdirərək, həbsxanaya saldırıb və 799-cu ildə zəhərlə öldürtdürüb.

Tarixçilərin yazdığına görə, İmam Museyi-Kazımın 19 oğlu və 18 qızı dünyaya gəlib.

Qeyd edək ki, bizim araşdırmalarımıza görə, Azərbaycanda mövcud olan seyid ailələrinin əksəriyyəti də soy etibarilə ya İmam Zeynülabidinin, ya da İmam Museyi Kazımın övladlarına gedib bağlanır. İstər Azərbaycan, istərsə də Gürcüstan və Rusiya arxivlərində bunu təsdiqləyən təkzibedilməz dəlillər - xeyli sayda sənədlər, seyid ailələrinin şəcərələri mövcuddur. Üstəlik, İmam Museyi Kazımın qızı, İmam Rzanın bacısı Həkimə xanımın Bakıda – “Bibiheybət” adlandırılan ərazidə dəfn olunması faktı da az şey demir. Artıq təkcə rəvayətlərə yox, həm də təkzibedilməz dəlillərə əsaslanan alimlər sübuta yetiriblər ki, burada dəfn olunan məhz İmam Museyi Kazımın qızı Həkimə xanımdır. Onunla yanaşı dəfn olunmuş daha iki şəxsin də İmamın oğlanları olması haqda fikirlər var. Eyni zamanda, Nardaran pirində də İmam Museyi Kazımın qızı və İmam Rzanın bacısı Rəhimə xanımın, Bilgəh kəndində isə, İmam Museyi Kazımın digər qızı Leyla xanım dəfn olunmuşdur.

Kitabın bu fəslində həmin xanım övliyaların həyatından və kəramətlərindən bəhs edəcəyik.





## HƏZRƏT HƏKİMƏ XANIM

Həzrət Həkimə xanım yuxarıda söhbət açdığımız İmam Museyi Kazım əleyhissalamın qızı, İmam Rzanın bacısıdır.

Sevimli qardaşının şəhadətindən sonra Həzrət Həkimə xanım ailə üzvləri ilə birlikdə İranın Ənzəli şəhərinə gəlir. Buradan da deyilənə görə xeyirxah Baba Sücəddin tərəfindən dənizlə Bakı limanına çatdırılır. Baba Sücəddin Bakını Həzrət üçün təhlükəsiz bildiyindən, onu Hacı Bədir adlı imkanlı bir dostuna tapşırır (düzgünün Allah bilir). Səxavətli, ədəbli, Əhli-Beytə sadiq bir insan olan Hacı Bədir bütün ömrü boyu evində himayə etdiyi İmam övladlarına xidmət etmişdir. Düşmənlərinə xəbər çatmasın deyə, həzrətin əsl adını gizlədir, ona “Bibi” deyə müraciət edirdilər. Həkimə xanımın yanında Heybət adlı xidmətçisi olduğundan, ona – *“Bibi Heybət”* yəni, “Heybətin bibisi” deyə, müraciət etmişlər.

Həzrət Həkimə xanım deyilənə görə, ailə qurmamış (düzgünün Allah bilir), bütün ömrünü qardaşı İmam Rzanın balalarına həsr etmişdir. Həmin uşaqların – iki oğlan, bir qız – məzarları da Həzrət Həkimə xanımın müqəddəs məzarı ilə yan-yana Bakının cənub girəcəyində dəfn edilmişdir. Hacı Bədir (bəzi mənbələrdə onun

elə Heybət olduğu bildirilir) isə öz arzusuyla xanımın ayaq tərəfində və aşağı səviyyədə dəfn edilmişdir. Onların dəfn edildiyi yer **"Bibiheybət"** piri adı ilə bütün dünyada məşhurdur. Buraya ziyarətə həm Azərbaycandan, həm də qonşu ölkələrdən çoxlu sayda zəvvarlar gəlir.

Bibiheybət məscidi Şirvanşah II Fərruxzad tərəfindən XII əsrdə inşa edilmişdir. Məscidin divarındakı kitabədən A. Bakıxanov, P. İ. Berezin, B. Dori və N. O. Xanıkov öz əsərlərində bəhs etmişlər. Həmin kitabədə məscidi 1281-1282-ci illərdə II Fərruxzad ibn II Əhsitan ibn III Fəribüruzun memar Mahmud ibn Sədiyə tikdirdiyi yazılmışdır:

*"Bu Məscidi tikməyi əzəmətli Məlik, böyük sultan, dövlətin və dinin qoruyucusu, möminlər əmirinin köməkçisi əbu-l-Fəth Fərruxzad ibn Əhsitan özünə rəva görmüşdür. Allah onun hakimiyyətini ucaltsın".*

Bu mətn Xanəgah məscidinin mehrabındakı kitabədəki mətnlə eynidir.

Bibiheybət məscidində uyuyan İmam balalarını dünyanın bir çox tanınmış şəxsiyyətləri öz dövrlərində ziyarət etmiş və burada duaları qəbul olunmuşdur. Belə ki, XIX əsrin görkəmli şəxsiyyətlərindən biri olan Azərbaycan xalqının şairə qızı Xurşud Banu Natəvan (Qarabağ xanı Mehdiqulu xanın qızı) ərə gedəndən sonra bir müddət uşağı olmadığı üçün Bibiheybət ziyarətgahına gəlmiş və burada Allahdan özünə övlad diləmişdir. Nəzir olaraq isə bu ziyarətgaha yol çəkməyi əhd etmişdir.





Oğlu dünyaya gələndən sonra əhdini yerinə yetirən Xurşud Banu Natəvan balasını qucağına alıb, çəkdirdiyi yolla Həzrət Həkimə xanımın qəbrini ziyarətə gəlmişdir. Nəzir dediyi yolu salmaqla xan qızı Natəvan Azərbaycanı Yaxın Şərq və qonşu ölkələrlə birləşdirən ticarət və ziyarət yolunu xeyli asanlaşdırmışdır.

Həzrət Həkimə xanımın türbəsini Quba xanı Fətəli xan da tez-tez ziyarət edərmiş. Bu ziyarətlərin birində dünyasını dəyişən Fətəli xan öz arzusuyla ziyarətgahın həyətində dəfn olunmuşdur. Fətəli xanın məzarı 1937-ci ilin repressiyası dövründə yerlə yeksan edilmişdir. Yaxşı ki, onun baş daşı qorunmaq, mühafizə olunmaq üçün Azərbaycan Tarix Muzeyinə təhvil verilmişdir.



1911-ci ildə məscidin şimal divarına bitişik məscid çoxsaylı zəvvarlar üçün darlıq edirmiş.

1934-cü ildə Mircəfər Bağırovun hakimiyyəti dövründə (çox güman ki, onun tapşırığı ilə) Səməd adlı kommunist rəhbərlərdən biri ziyarətgaha qarşı insanlığa sığışmayan hərəkətə yol vermişdir. Yəni, bu nadan ziyarətgaha bomba qoyub buranı partlatmışdır. Xoşbəxtlikdən imam övladlarının qəbirləri dağılmamış və xalq bu qəbirləri məscidin yıxılmış sütunları altında

gizlətmişdir. Sovet dönəmində insanlar gizli yolla uzun müddət bu qəbirləri ziyarət etmişlər.

Qeyd edim ki, Səmədin də əməlləri cəzasız qalmamışdır. Belə ki, repressiya illərində o da Sibirə sürgün olunmuş və sürgündən kor olmuş halda qayıtmışdır.

Bu hadisə yadıma Nacuruddövlənin hakimiyyəti dövründə baş verən ibrətamiz bir əhvalatı saldı. Əhvalat belə olmuşdur:

Nəcuruddövlənin hakimiyyəti dövründə Həzrət Peyğəmbərimizin qəbrinin qonşuluğunda yaşayan iki yəhudi evlərinin içərisindən lağım ataraq, Peyğəmbərin pak qəbrini dağıtmaq istəyirdilər. Nəcuruddövlə yuxuda görür ki, Peyğəmbər ona deyir: *"Məni bu iki nəfərin əlindən xilas et"*. Bir neçə gün bu yuxunu təkrar görür, heyrətdən donub qalır və bilir ki, Mədinədə nəsə pis bir hadisə baş verməkdədir. Mədinəyə gəlib, şəhər əhalisinin hamısını cərgəyə düzdürür. Bir-bir hamısının üzünə baxdıqda, yuxuda gördüyü həmin iki nəfəri tanıyır. Göstəriş verir ki, onları tutub, bu məkrli planlarını zərərsizləşdirsinlər və onlara ağır cəza versinlər.

Sonra göstəriş verir ki, şərif qəbrin ətrafını qazıb, onu əridilmiş filizlə doldursunlar ki, poladdan olan bir divar yaransın və gələcəkdə heç kəs belə işlərə cəsarət etməsin".

*Sözardı: həmin iki nəfərin törəmələri indi bütün Şərqi əhatə eləyiblər. Allah həqiqi müsəlmanları zalımların fitnə-fəsadından qorusun! Amin!*





## HƏZRƏT LEYLA XANIM

Həzrət Leyla xanım VII İmam Həzrət Museyi Kazım əleyhissəlamın qızıdır. Atasının və qardaşı İmam Rza əleyhissəlamın şəhadətə yetirilməsindən sonra IX əsrdə xəlifə Məmunun təqibindən yaxa qurtarmaq üçün ailə üzvləri ilə bərabər o da Azərbaycana pənah gətirmişdir. Azərbaycanın qədim kəndlərindən olan Bakının Bilgəh kəndində məskunlaşmışdır. Deyilənə görə Mirmahmud adlı şəxslə ailə qurub və ən azı bir övladı olub (düzünü tək olan Allah bilir). Əhli-Beytə sonsuz sayqı və məhəbbətləri olan yerli əhali Peyğəmbər nəvəsi Həzrət Leyla xanıma layiq olduğu hörməti göstərmiş, onu göz bəbəyi kimi qorumuşlar. İmam qızının sağlığında özü, dünyasını dəyişdikdən sonra isə, Bilgəh kəndində olan qəbri Azərbaycan xalqının ziyarətgahına çevrilmişdir. Xəstələr şəfa üçün, dərdlilər dərman üçün bu ziyarətgaha üz tuturlar; Həzrət Leyla xanımın mübarək ruhunu yad edərək, ondan şəfaətçi olmasını istəyirlər. Və bir çox hallarda duaları qəbul olunur. Zəvvarların danışdığı söhbətlər bunu deməyə əsas verir.

- ***Quliyeva Hacı Ağabacı Əbdül qızı** – Nardaran kənd sakini:*

-İmam əleyhissəlamın qızı Həzrət Leyla xanımın ziyarətinə tez-tez gəlirik. Gözümüzü açandan görmüşük ki, bir problemimiz olanda valideynlərimiz əlimizdən tutub bizi buraya gətiriblər. Qədimlərdə bu pirin qarşısında tut ağacı vardı, qorxan adamları o ağacın başına dolandırar, üzünə bir sillə vurardılar, qorxusu keçib gedərdi. Bir gün qaynım maşında qəzaya düşmüşdü, bərk qorxu keçirmişdi. Sanki dəli kimi olmuşdu, tez-tez sayıqlayır, yuxudan diksinib qalxırdı. Götürdük gəldik bura. Qəbrin başında belə bir dua etdim ki, "Ya Rəbbim, çox adamlar Leyla xanımın ziyarətgahında mətləbinə çatıb qaynım Rafiqin də şəfa tapmasına kömək ol". Belə dua edib Rafiqi dolandırdım ağacın başına, axırda da üzünə bir sillə vurdum. Qaynımın qorxusu onunla da keçib getdi, bir daha diksinmədi...

- Bir dəfə də həyat yoldaşım onu sancmaq istəyən ilandan qorxub, eynən qaynım kimi olmuşdu. Atama dedim onu Həzrət Leyla xanımın ziyarətinə aparmaq istəyirəm, amma mənim yoldaşıma sillə vurmağım düzgün deyil. Atam dedi mən apararam. Gətirdik bura, dua elədik, sonra dolandırdıq ağacın başına, atam axırda onun üzünə bir sillə vurdu. Ondan sonra bütün qorxusu, diksinməsi keçib getdi.





*Adının çəkilməsini istəməyən müəllimə:*

- Bir şagirdim vardı, anadangəlmə həm əqli, həm də fiziki cəhətdən qüsurları vardı. Bir gün gördüm bu uşağın əqli normaldır, qüsur yoxdur. Anası məktəbə gələndə soruşdum ki, bu uşağı hansı xəstəxanada müalicə etdirdiniz? Dedi çox həkimlərin yanında olduq, heç birindən xeyir olmadı. Bu yaxında apardım Həzrət Leyla xanımın ziyarətinə. Ziyarətdə olanda qəribə bir hadisənin şahidi olduq. Birdən gördük ki, haradansa xəstə uşağın qolunun üstünə təxminən bir qarış uzunluğunda qara sap düşdü. Deyir yanımızda başqa qohumlar vardı, soruşdum ki, sapı siz atdınız? Dedilər yox. Gəldik evə, fikir verdim ki, uşağın əqli qüsurları yavaş-yavaş aradan qalxır.

### *Mənim pirlərə inamım olmayıb*

***Nəcəfova Şərqiyə Sabir qızı*** **-** *Şabran rayonu, Dəvəçi kəndi:*

- Uşaqlıqdan sağ əlimin şəhadət barmağının uc hissəsində ziyil kimi bir çıxıntı vardı, əlimi bir şeyə vuranda ziyilin ucu ağrıyır, məni çox incidirdi. Müalicələrin də heç bir xeyri olmurdu. Evimizin yanında "Çinarlı piri" adlanan bir pir vardı, hamı deyirdi ki, oranın tütyəsindən sürtdük, yaramız, ziyilimiz sağaldı, get sən də sürt, barmağın sağalsın. Amma mən heç vaxt buna inan-

mırdım. Fikirləşirdim ki, bu qədər dərmanların sağaltmadığı yaranı pirin tütyəsi necə sağalda bilər?

Bir gün gəlin köçdüyüm evin qonşuluğunda yaşayan bir qadın mənə pul verib xahiş etdi ki, uşağım xəstədir, atan evinə gedəndə bu nəziri Çinarlı pirinə qoy, oradan mənə tütyə gətir.

Mən həmin nəziri mücövürçüyə verib, əhvalatı danışdım. O, nəziri alıb, pirin torpağından kağıza büküb mənə verdi.

Həmin tütyəni evdə stolun üstünə qoymuşdum. Birdən necə oldusa, kağız cırıldı və torpaq stolun üstünə dağıldı. Sağ əlimlə torpağı sıyırıb başqa bir kağıza büküm və qonşuya verdim.

Sabahı gün hiss etdim ki, əlimi bir şeyə toxunduranda ziyilin ucu ağrımır. Əmin olmaq üçün şəhadət barmağımı yerə bərk-bərk sürtdüm, gördüm həqiqətən də ağrımır. İki gündən sonra barmağımdakı ziyil tamamilə yoxa çıxdı. O hadisədən sonra məndə pirə və onun tütyəsinə qarşı inam yarandı. Bəlkə də o tütyənin dağılması və mənim yaralı barmağımla ona toxunmağım bir qismət imiş ki, məndə inam yaransın.

***Əhmədova Şölə Vəli qızı*** *– Bakı şəhəri, Alatava qəsəbə sakini:*

-Mənim ziyarətgahlara, xüsusən də Həzrət Leyla xanımın xanəgahına çox böyük inamım və hörmətim var. Bir sıxıntım, narahatlığım olanda adətən bura üz tuturam. Yadımdadır, oğlum Elvinin dörd yaşı olmasına





baxmayaraq, hələ də yerimirdi. Müalicələr də effekt vermirdi. Bir gün onu ələmin altından keçirdim. Evə qayıdan kimi uşaq yeriməyə başladı.

***Babayeva Hacı Gülsənəm İsmayıl qızı*** *- Nardaran kənd sakini:*

- Həzrət Leyla xanıma çox böyük inamım var. Mənim bədənim iynə-dərman götürmür, onları qəbul edəndə daha da pisləşirəm. Ona görə də özümü pis hiss edəndə gəlirəm buranı ziyarət edirəm. Namaz qılıb, dua edirəm, qayıdanda çox rahat və sağlam qayıdıram. Bütün ağrılarımı burada qoyub gedirəm.

***Məmmədova Xuraman Əjdər qızı*** *- Oğuz rayonunun Kərimli kənd sakini:*

- Təzə gəlin olan vaxtlarımda yuxuda gördüm ki, dağın başında, böyük bir qəbirin yanındayam, yalvarıram ki, «Ay Zində Baba, səndən bir oğul istəyirəm». Bir neçə gün dalbadal bu yuxunu gördüm. Aradan bir müddət keçəndən sonra, oğlum dünyaya gəldi. Zində Babanın kim olduğunu, harada dəfn olunduğunu öyrənmək istəsəm də, buna nail ola bilmirdim. Günlərin birində həyətə dilənçi girdi, qayınanam ona nəzir verərkən, evə dəvət etdi ki, bir stəkan çay içsin. Dilənçi dedi: «Tələsirəm, Zində Babanı ziyarətə gedirəm». Dedim: «Kimi ziyarətə gedirsən?» Dedi: «Zində Babanı». Dedim: «Neçə ildir mən onu axtarıram, yerini tapa bilmirəm». Dedi: «Quba yolunun üstündə, dağın

başındadır». Mən ona nəzir verdim ki, mənim adımdan ziyarətgaha qoysun. Nəhayət, aradan bir neçə il keçdi, uşaq beş yaşa çatanda, sudurğa keçirdi, ölüm ayağında oldu. Əl açdım göyə, dedim: «Ya Rəbbim, bu uşaq ayılsın, birinci sinfə gedən gün kəndimizdə olan Çərşənbə ocağında qurban kəsərəm». Həmin andaca uşaq ayıldı. Böyüyüb, birinci sinfə gedəsi oldu. Həyat yoldaşım və digər kişi qohumlarımız qurban kəsməyə icazə vermədilər. Dedilər ərəb müəlliflərinin kitablarında pirdə qurban kəsməyi qadağan edirlər. Ərəblər bunu Allaha şərik qoşmaq sayırlar.

...Uşaq üç gün dərsə gedəndən sonra, sağ biləyinin aşağısından çiban çıxdı, dörd ay əlinə qələm ala bilmədi, yoldaşlarından geri qaldı. Aradan bir il də keçdi, yenə də qurbanı kəsməyə icazə vermirlər...

...Ürəyimə dammışdı ki, bu il də uşağa nə isə olacaq. Sentyabrın birində uşaq məktəbli formasını geyinib, məktəbə - 2-ci sinfə yola düşürdü ki, pilləkəndən aşağı düşəndə ayağı ilişib, yerə yıxıldı. Tərslikdən, yerdə, pilləkənin düz qabağında şüşə butulkanın qırığı varmış. Bu, heç vaxt olmayan bir hal idi ki, yarıdan qırılmış butulka oturacaq hissəsi aşağı, sınıq hissəsi bıçağın ucu kimi ağzıyuxarı halda pilləkənin qabağında durubmuş. Elə bil kimsə bunu qəsdən bura qoyubmuş ki, uşaq bunun üstünə yıxılsın. Qısası, həmin bıçağabənzər butulka qırığı uşağın çənəsinin altından batdı... Məktəbli forması al qana boyandı. Həkim çağırdıq, şüşəni çıxarıb, yarasını sarıdı...





...Yenə də əhdimə əməl etməyə, dediyim qurbanı kəsməyə icazə vermədilər. Nəhayət, bir il də ötdü...

Uşağın üçüncü sinfə getməyinə bir neçə gün qalmış ürəyim əsirdi ki, görəsən bu il nə olacaq? Allaha yalvarırdım ki, heç nə olmasın. Nə isə... Məktəb başlamasına üç gün qalmış, uşaq meyvə ağacından yıxıldı və sağ qolu qırıldı. Bu hadisədən sonra, hamı başa düşdü ki, bütün bunlar qurbanı gecikdirdiyimizə görə baş verir. Mən atamgildən xahiş edərək, bir qoç aldırdım, aparıb Çərşənbə ocağında kəsəndən sonra uşaqda heç bir problem olmadı...

“...***Onlar: “İndi işi həqiqətə gətirib çıxartdın”, - dedilər və onu*** *(qurbanı tapıb)* ***kəsdilər. Amma az qalmışdı ki, bu işi yerinə yetirməsinlər”.*** *“Quran”, 2:71.*

### *“Sədəf su almayınca əbri-nisandan gövhər verməz”*

*Məhəmməd Füzuli*

Bildiyimiz kimi gövhər (ləl-cəvahirat) dənizin dibində, sədəfin içində olur və o, gövhər olmamışdan qabaq ilbiz olur. İlbizin gövhərə çevrilməsi çox maraqlı və ibrətamiz bir prosesdir. Belə ki, içində ilbiz olan sədəf uzun bir məsafə qət edərək, dənizin dibindən üzünə doğru hərəkət edir. Və bu elə hesablanır ki, həmin üzə çıxma aprel (nisan) ayında baş verir; həmin gün ilk bahar yağışı yağır. Sədəf ağzını açaraq, bahar (aprel) yağışının ilk damcısını udur və ağzını yumub, təkrar

okeanın dibinə qayıdır. Burada bir müddət ilbizlə bahar suyunun arasında reaksiya gedir və nəticədə gövhər (ləl-cəvahirat) yaranır. Dahi şairimiz Məhəmməd Füzuli bu ibrətamiz prosesi bir beyt ilə çox gözəl ifadə etmişdir:

*"Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan,*
*Sədəf su almayınca əbri-nisandan, gövhər verməz".*

İlbizin bahar yağışının təsiri ilə ləl-cəvahirata çevrilməsi prosesini insan cəmiyyətində də müşahidə etmək mümkündür. Belə ki, hansı nəslin kökündə xeyirxah, əməlisaleh və yaxud kəramətli bir adam olubsa, zaman keçdikcə həmin nəsildən kimdəsə bu əlamət özünü büruzə verir. Dahi Füzuli bunu nəzərdə tutub deyirdi ki, *"Sədəf su almayınca əbri-nisandan gövhər verməz".*

Yəni, əslindən-kökündən ilham almayan yaxşılıq edə bilməz və yaxud, kəramət göstərə bilməz. Bu mənada Həzrət Leyla xanımda müşahidə olunan xeyirxahlıq, səxavət, mərifət və kəramət cəddi Peyğəmbərdən və onun əcdadları olan imamlardan gələn xüsusiyyətdir ki, elmi dildə genetik kod deyilən bir anlayışla ona keçmişdir.

Hər gün neçə-neçə zəvvar Həzrət Leyla xanımın Bilgəh kəndində olan şərif məzarını (bura el arasında ***Pirhəftəxar*** da deyirlər) ziyarət edib, Allaha etdikləri dualarda bu övliya xanımı vəsilə tuturlar.





## HƏZRƏT RƏHİMƏ XANIM

Həzrət Rəhimə xanım, əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, Həzrət Peyğəmbərimizin nəvəsi olmaqla, VII İmamımız Həzrət Museyi Kazım əleyhissəlamın qızı, Həzrət İmam Rza əleyhissəlamın bacısıdır. Atası və qardaşı şəhadətə yetişəndən sonra IX əsrdə xəlifə Məmunun zülmündən qaçıb Azərbaycanın Nardaran kəndinə sığınmışdır. Bugünkü günə gəlib çatan məlumatlara görə, Rəhimə xanım Nardaranda Mirabdulla adlı bir şəxslə ailə həyatı qurmuş, bu nikahdan bir övladları olmuşdur (düzünü Allah bilir).

Bu ailənin hər üç üzvünün – Rəhimə xanımın, Mirabdullanın və övladının qəbirləri Nardaran kəndindədir. Bu qəbirləri neçə əsrlərdir ki, xalq ziyarət edir.

Rəhimə xanımın qəbrinin üzərində hələ ta qədimdən türbə mövcud olmuşdur. Türbənin üzərindəki kitabəni araşdıran tarixçi alim Məşədixanım Nemət "Azərbaycanda Pirlər" kitabında yazır:

"Türbə binasını memarlıq konstruktiv quruluşna görə XII-XIII əsrlərə aid etmək olar, ona bitişik düzbucaqlı plana malik məscidin qapısı üzərində bütöv bir əhəng daşına iri süls elementli nəsx xətt ilə yazılmış ərəbcə kitabənin tərcüməsi belədir:

*“Bu mübarək məscidin, Allahın evinin bina olunmasına hacıların seçilmişi, dövrün yeganəsi, Böyük sədr Xacə Hacı Həmzə ibn Qutlu Mahmud Şahabadi* – Allah onun müvəffəqiyyətini əbədi etsin – *yeddi yüz altmış beşinci ildə əmr etmişdir”* (Miladi: 1363- 1364).

Kitabədə qeyd olunan Xacə Hacı Həmzə Şirvanşahlar dövlətində baş sədr vəzifəsində işləmişdir. Bu vəzifə dövlətdə şirvanşahdan sonra üçüncü şəxsiyyət hesab olunurdu. Məqbərə qarşısında dəfn olunmuş şəxslərin başdaşındakı kitabələrdən görünür ki, onlar da dövrlərinin görkəmli alimləri olmuşlar. Hicri 1049 (1639-1640)-cu ildə şəhid olmuş Şeyx Sədinin adına digər mənbələrdə rast gəlməmişik. Onunla yanaşı, oğlu Şeyx Xoda Pulad da dəfn olunmuşdur. Şeyx ləqəbinə və *“əs – şəhid əs – səid”* – xoşbəxt şəhid sözlərinə görə Şeyx Sədinin hər hansı bir hərəkatda, mübarizədə həlak olduğunu güman etmək olar. Şeyxlər, ümumiyyətlə, müsəlman dünyasında ən nüfuzlu şəxslər olmaqla ölkənin sosial-mədəni, iqtisadi-siyasi həyatında mühüm rol oynayırdılar.

“Nardaran Piri” abidələri kompleksində sənətkarlarla əlaqədar olmuş “əxi” cəmiyyəti üzvlərinin də abidələri vardır. Qeyd olunan kompleksdə daha bir maraqlı məscid və məqbərə abidəsi vardır. Abidənin üzərini uzun illər qum örtmüş, 1950-ci ildə o, qum altından çıxarılmışdır. Bina iki otaqdan ibarətdir. Düzbucaqlı plana malik əvvəlinci otaq (5,80 x 3,20 x 2,53 m) məscidə aiddir. İkinci tağ tavanlı otaq (2,75 x 2,75 x 2,53) isə





türbə binasıdır. Türbənin başqa yerdən qapısı yoxdur. Buraya ancaq məsciddən açılan çatmatağlı qapıdan (1,13 x 0,58) daxil olunur. Məscidin tağlı qapısı (1,20 x 0,59 m) eşmə ilə, kiçik baştağı isə sadə həndəsi naxışlarla haşiyələnmişdir. Qapı üzərindəki iki parça əhəng daşında (1,07 x 3,9) kufi elementli süls xətti ilə kitabə həkk olunmuşdur. Ərəbcə kitabənin məzmunu belədir:

*“Bu məscidin tikilməsinə, mömin Şeyx Nurəddin Mahmud ibn Şeyx Zahid Əbu Yusif, həqiqətən yeddi yüz yeddinci ildə (1307-1308) əmr etmişdir -Hökmdarlıq Allaha məxsusdur”.*

Kitabədə daha iki şeyxin – Nurəddin Mahmud və atası şeyx Zahid Əbu Yusifin adları çəkilir. Qeyd olunan şeyxlərin elmi və ictimai-siyasi fəaliyyətləri indi “Nardaran piri” adlanan ruhani, sosial, mədəni, həmçinin siyasi mərkəzlə sıx bağlı olmuşdur.

Şirvanşahdan sonra dövlətdə üçüncü vəzifə olan baş sədrin həmin kompleksdə məscid binası tikdirməsi bir daha göstərir ki, qeyd olunan sosial-dini mərkəz təkcə imamzadə kimi yox, ölkənin ictimai, iqtisadi, siyasi həyatında mühüm rol oynamış mərkəzlərdən biri olmuşdur. Belə mərkəzlər, adətən, baş sədrin tabeliyində olurdu.

Pir kompleksi yaxınlığında daha başqa məscid, karvansara binası, ətrafda böyük qəbiristanlıq da mövcuddur. Kompleks yaxınlığında hamam binası da olmuşdur. Lakin bu hamam uçub dağılmış, kitabəsi isə qalmamışdır. Çox mümkündür ki, bunlar hamısı qeyd olunan

dini-sosial mərkəzin vəqflərindəndir. Hamam binasının üzərindəki kitabəni hələ 1920-ci illərdə arxeoloq İ.Əzimbəyov oxuyub nəşr etdirmişdir. Maraqlı burasıdır ki, hamam da baş sədr tərəfindən tikilmişdir. Ərəbcə yazılmış kitabənin mətni belədir:

*“Bu pak və təmiz imarətin tikilməsinə sədr əl – möhtərəm Xacə Zeynəddin ibn mərhum Dağmanlı Mövlana Şəhabəddin (Allah ona rəhmət eləsin!) əmr etdi” (1338 miladi)”.*

Yuxarıda qeyd etdim ki, Həzrət Rəhimə xanım və onun ailə üzvlərinin qəbirləri üzərində tikilmiş məscid binası əsrlər boyu qum altında qalmış, yalnız 1950-ci ildə tapılaraq qum altından çıxarılmışdır. Araşdırmalarımız zamanı məlum oldu ki, bu məscidin tapılması çox maraqlı bir hadisə nəticəsində baş vermişdir. Belə ki, Nardaran kənd sakini Yunis kişi bir gecə yuxusunda görür ki, İmam Museyi Kazım əleyhissəlamın qızı Həzrət Rəhimə xanım bu yeri ona göstərib deyir ki, qalmışam qumun altında, gəl məni xilas elə. Səhər açılanda Yunis kişi bir neçə ağsaqqalla bu yerə gəlir. Baxıb görürlər ki, göstərilən yerdə balaca bir çökəklik var. Sanki qum altda harasa axıb gedir. Camaat toplaşıb həmin yerdən qumu daşıyıb, dənizə tərəf tökürlər. Bir qədər qazdıqdan sonra məscid binasını tapırlar və içəridəki qumu boşaltdıqda, xanım həzrətlərinin qəbrini aşkar edirlər.

1994-cü ildə Nardaran əhalisindən toplanmış vəsait hesabına qədim türbənin üzərində ikinci mərtəbə inşa





edilib. Məscidin tikintisində təşkilatçılıq edən Nardaran kənd sakini, hal-hazırda pirin mücövürçüsü olan Hacı Ədalət məscidin tikintisi zamanı rastlaşdıqları maraqlı bir əhvalatı belə nəql edir:

- 14 avqust 1994-cü il tarixindən Nardaran camaatının köməkliyi ilə burada tikintiyə başladıq. Tikintidə demək olar ki, bütün kənd sakinləri iştirak edirdi. Kimisi bellə qumu vedrələrə yığır, kimisi dolu vedrələri kənara daşıyırdı ki, qədimdə tikilmiş türbənin ətrafı qumdan təmizlənsin. Camaatın belə qızğın işlədiyi vaxt birdən gözüm kənarda oturub ağlayan cavan bir oğlana sataşdı. Bu oğlan bizim kənddən idi. Qarabağ müharibəsində yanında mina partlayıb, partlayışın təsirindən ayaqları tutulub. Yaxınlaşdım oğlana, dedim niyə ağlayırsan? Dedi ki, mən də qum daşımaq istəyirəm, heyif ayağım işləmir. Dedim ki, camaat dağılıb gedəndən sonra sən yatarsan burada, inşallah xanım şəfaətçi olar, sabah sən də qum daşıyarsan. Axşam biz getdik evə, oğlan qaldı ziyarətgahda. Səhər tezdən qayıdıb gələndə gördüyüm mənzərədən heyrətə gəldim: Dünən ağlayan oğlan əlində vedrə qum daşıyırdı. Məni görüb sevinə-sevinə yüyürdü üstümə, dedi: “Ədalət dayı, sağ ol ki, mənə düzgün məsləhət verdin”. Dedim danış görüm, necə oldu bu? Dedi: “Yatmışdım burada, gecə yuxuda gördüm hicablı bir xanım gəldi, mənə dedi ki, sənə kömək edəcəm, sən də sabah qum daşıyarsan. Bu vaxt yuxudan ayıldım, gördüm ayağım normal işləyir. Daha

yatmadım, beli, vedrəni götürdüm gecədən başladım qum daşımağa”.

- Bir dəfə də bura Bakıda yaşayan bir ailə gəlmişdi – deyə, Hacı Ədalət söhbətini davam etdirir: – Qadının qəflətən həm dili, həm də qulağı batmışdı. Nə danışa, nə də eşidə bilirdi. Ərinin adı Qaraş idi, oturdu mənimlə bu otaqda, qadın keçdi o biri otağa. Aradan bir-iki saat keçmiş gördük kimsə yan otaqdan çağırır ki, “Qaraş, ay Qaraş”. Qaraş o yana-bu yana baxdı ki, görəsən, kimi çağırırlar. Dedim nə baxırsan, yoldaşındı, səni çağırır. Dedi ki, ola bilməz, o danışa bilmir. Bu vaxt qadın bərkdən çağırdı ki, Qaraş, gəl bura, dilim açılıb. Keçdik o biri otağa, gördük qadının dili də açılıb, qulağı da. Bütün ailə üzvləri sevincdən bir-birini qucaqlayıb ağladılar. Qadın bir azdan özünə gəlib danışdı ki, “Niyyət tutub yatdım, gözümə yuxu gedəndə gördüm ki, Həzrət Rəhimə xanım gəldi, əlini çəkdi başıma, dedi sağalacaqsan. Bu vaxt yuxudan ayıldım, gördüm həm eşidirəm, həm də danışa bilirəm”.

***Rəhimova İlhamə Rafiq qızı*** *– Bakı şəhər sakini:*

-2000-ci il idi, London universitetinə qəbul olunmaq üçün sənəd vermişdim. Azərbaycana ayrılmış üç yerə 500 nəfərə yaxın adam sənəd vermişdi. Ona görə də qəbul olunma ehtimalım çox az idi. Gecə-gündüz oxuyur və Allaha yalvarırdım ki, əziyyətim itməsin, qəbul ola bilim. İmtahana bir neçə gün qalmış bacım Turac (o da sənəd vermişdi) dedi: “Yuxuda gördüm ki, hardasa





tanımadığımız bir pirə getmişik, növbə ilə qədim tağlı qapıdan əyilib içəri keçirik. İçəridə üç nəfər nurani qadınlar əyləşiblər – İslami geyimdə. Onlar münsiflər heyəti kimi gələnləri sorğu-sual edirdilər. Birinci İlhamə girdi. Bu nurani, ağ libaslı xanımlar bir neçə söz soruşduqdan sonra İlhamənin kürəyinə əlləriylə yavaşca vurub ”Sən keçdin” dedilər.” Turac özü onlara yaxınlaşanda: “Sən hələ gözlə” deyiblər.

-İmtahandan sonra bir neçə mərhələdə müsabiqələr oldu – deyə, İlhamə xanım söhbətini davam etdirir: - Hər mərhələdə uğur qazansam da, növbəti mərhələnin həyəcanı məni boğurdu. Bu ərəfədə qəribə bir yuxu gördüm: Gördüm ki, tanımadığım bir ziyarətgahın həyətinə daxil oluram. Giriş darvazasından girəndə sağ tərəfdə havada üç nəfər qadın dayanıb, bu qadınlar ağ rəngdə gözəl bir İslami libas geyiblər, sifətləri də çox nurludurlar. Bu anda beynimə bir informasiya sızdı ki, bu xanımlar üç bacıdırlar, müqəddəsdirlər. Pirin darvazasından əyilib həyətə keçəndə bu xanımlar əlləri ilə mənə aşağıdakı günbəzi göstərdilər. Günbəzə tərəf irəliləyəndə sağ tərəfdə bir su quyusu gördüm. Quyunun yanına gəlib maraqla tamaşa etdim. İçərisi şəffaf su ilə dolu idi. Suya bir qədər baxdıqdan sonra günbəzə doğru getdim... Səhər yuxudan oyanıb müsabiqəyə getdim və qəbul olan üç nəfərdən biri mən oldum.

Sonralar yuxuda gördüyüm o piri çox axtardım. Bir gün bacım Turacla birlikdə Nardaran pirinə - Həzrət Rəhimə xanımın ziyarətinə getdik. Birinci dəfə idi ki, bu

pirə gedirdik. Darvazadan həyətə girən kimi tanıdım ki, yuxuda gördüyüm ziyarətgah buradır. Su quyusu da sağ tərəfdə həmin yuxuda gördüyüm yerdə idi. Günbəzə daxil olanda Turac dedi ki, mənim də yuxuda gördüyüm günbəz buradır. Sonra öyrəndik ki, burada dəfn olunan Həzrət Rəhimə xanım Həzrət Musa Kazım əleyhissəlamın qızıdır və üç bacıdırlar. Onu da deyim ki, bacım Turac sənəd verdiyi universitetə həmin il qəbul ola bilmədi, növbəti il qəbul oldu.

***Şəbnəm Xeyrulla*** – *tanınmış telejurnalist:*

-Aylardır qardaşım baş ağrısından əziyyət çəkir. Neçə həkimə gedib, nə qədər yerdə müayinələrdən keçib. Hər nevroloq bir diaqnoz qoyub, neçə dərman yazıb. Heç birinin də təsiri olmurdu. Gündə azı 8-10 ağrıkəsici dərman içdiyi üçün artıq ağrıkəsicilərin də mənası yox idi. Özünə sağalmaz xəstəlik diaqnozu qoyub, gündə ölümdən danışırdı.

Bu gecə birdən ağrı ilə yuxudan oyanıb, səsinə ayılan nənəmə gördüyü yuxunu danışıb. Yuxuda özünü Nardaran pirinin qarşısında görüb. Pirdən çıxan bir kişi onun qolundan tutub, ən içdəki otağa aparır və ağzını açmağını tələb edir. Sonra da əlindəki kəlbətinlə dişlərini çıxarmağa başlayır. Qardaşım ona etiraz edəndə deyir ki, sənin dərdin dişlərindədir, çıxarmaq lazımdır. Nənəm yuxunu eşidəndə pis olub. Axı inanclarda diş çıxarmaq yaxın bir adamın ölümü kimi yozulur. Qardaşım isə yuxunun təsiri ilə bu gün stomatoloqa





gedib. Müayinədən sonra məlum olub ki, ağıl dişi çıxa bilmədiyi üçün çirk edib və bu da birbaşa sinirlərlə əlaqəli imiş. Neçə vaxtdır başında yaranan ağrıların səbəbi də elə həmin çıxa bilməyən ağıl dişi olub. Həkim dişini çıxarıb, çirki təmizləyəndən sonra bütün ağrılar da çəkilib.



İndi ağrısız olduğu üçün deyib-gülür, sevinir. Bu gün mən də Nardaran pirinə çəkilişə gəlmişəm. İstər-istəməz bu yerin qeyri-adi enerjiyə malik olduğunu etiraf etməliyəm. Allaha çox şükür! Bütün xəstələr tezliklə şəfaya çatsınlar.

***İlhamə Dağlı*** – *Bakı şəhər sakini:*

-Məndə belə bir hal yaranmışdı ki, bütün günü başım hərlənirdi, az qalırdım yıxılam. Daim dərman içirdim, təzyiqimi ölçdürürdüm, həkimə gedirdim heç bir təsiri olmurdu. Bir gün məndə yenə də o hal baş verdi. Atam təzəcə rəhmətə getmişdi. Anam da ağladı ki, bu qızın dərdi məni öldürəcək. Mən bir az limonlu şərbət içib uzandım, ancaq yatmadım, yarıoyaq olduğum halda gözümün qarşısına Nardaran piri gəldi və başı hicablı, qara geyimli bir qadın mənə dedi: *"Səndə heç bir qorxulu xəstəlik yoxdur, sənin şəfan burdadır, gəl bura şəfa taparsan. İndi qalx ayağa, uzanma, get*

*anana de ki, fikir eləməsin"*. Mən ayağa qalxıb anama dedim, bibim də bizdə idi. Anam o saat o pirə nəzir dedi. Atamın qırxından sonra Nardarana getdik və Rəhimə xanımın məzarını ziyarət elədim. O gündən bu günədək məndə baş ağrısı, baş gicəllənmə olmayıb.

***Aygün Həsənoğlu** – Qəbələ rayon sakini:*

-Qəbələdə yaşayırdım. Dindar deyildim, hərdən bildiyim bir neçə duanı oxuyardım. Amma dini ibadətləri yerinə yetirmirdim. Ailəmizdə də namaz qılan, dini gözəl bilən adam olmayıb. İmamlar haqqında məlumatım da yox idi. Bir dəfə yuxuda bir məzarın önündə durduğumu gördüm. Məzar daşının üzərində ərəbcə yazılar vardı. Kimsə mənə: *"Bu, İmam Rzanın məzarıdır"* - dedi. Bundan sonra imamaların kim olduğu ilə maraqlandım, İmam Rzanın 12 imamdan biri olduğunu və böyük din xadimi olduğunu öyrəndim. Uzun müddət keçdi. Yuxularımda hərdən tanımadığm ziyarətgahları görürdüm.

Nardaran piri haqqında heç bir məlumatım yox idi. Heç Nardaran adlı yer olduğunu da bilmirdim. Bir dəfə yuxuda özümü bir məscidin önündə olduğumu gördüm. Müxtəlif adamlar həyətə daxl olur, məscidə girirdilər. Məscidin önündə bir çeşmə vardı, mən də həmin çeşmənin önündə durmuşdum. Üzünü görmədiyim bir nəfər mənə dedi: *"Bura Nardarandır. Bu sudan iç, niyyət et"*.

Sudan içdim, amma yadımda deyil, niyyət etdim, ya yox. Bir müddət keçəndən sonra bu yuxunu rəfiqəmə





danışdım. O, həyəcanla dedi: *"Nardaran Bakının kəndidir, orada çox böyük bir ziyarətgah var, yuxuna giribsə, demək səni çağırır. Mütləq ziyarətə getməlisən"*.

Nardaranı tanımadığımı bildirəndə rəfiqəm məni oraya aparacağına söz verdi. Sonradan Bakıya köçdüm və həmin rəfiqəm Bakıya gələndə məni Nardarandakı ziyarətgaha apardı. Ziyarətgaha daxil olanda heyrətləndim, məscid də, önündəki çeşmə də eynilə yuxuda gördüyüm kimi idi. Burada dəfn olunmuş xanımın İmam Rzanın ailəsindən olduğunu biləndə daha da heyrətləndim. Bundan sonra imkan olduqca ən azı ildə bir dəfə Nardaran ziyarətgahına gedir, dua oxuyuram. Görünür, həqiqətən də ziyarətgahlar bizim bilmədiyimiz bir enerji sahəsinə malikdirlər. Ona görə yüz illərlə insanların üz tutduğu məkanlara çevrilmişlər.

### *Adım Rəhimədir, sənə şəfa verməyə gəlmişəm*

***Xudiyeva Raifə Vaqif qızı** – Sumqayıt şəhər 21 saylı məktəbin ədəbiyyat müəllimi:*

-Öd kisəmdəki daşdan əziyyət çəkirdim. Çox müalicələr alsam da, cərrahiyyə əməliyyatı keçirsəm də nəticə vermirdi. On ildən artıq idi ki, yataqda xəstə yatırdım. Bir dəfə həkim gəlib məni müayinə edəndən sonra onun yan otaqda uşaqlarla danışığını eşitdim: *"Daha biz bacardığımızı etdik, bundan sonra əlimizdən bir şey gəlmir. Ancaq Allah sağalda bilər"*. Bu söhbəti eşidəndən sonra çox narahat oldum. Bir gün damarıma

sistem qoşulduğu halda yuxuya getdim. Yuxuda gördüm qarapaltarlı bir qadın gəldi yanıma. Soruşdum: *"Kimsən?"* Dedi: *"Adım Rəhimədir, biz dörd bacıyıq. Sənə şəfa verməyə gəlmişəm. Üzünə üç dəfə üfürəcəm, sağalacaqsan".* Mənə gülmək gəldi ki, 10 ildir həkimlər mənə cürbəcür müalicələr edirlər, əməliyyat edirlər, sağalmıram, indi sənin üfürməyinləmi sağalacağam? Dedi sağalacaqsan və üzümə üç dəfə üfürdü. Bu vaxt yuxudan ayıldım. Əhvalımda yaxşılıq hiss etdim. Həmin gündən yataqdan qalxdım və özümdə heç bir xəstəlik hiss etmədim. Amma yuxuma gələn qadının kim olduğunu bilmirdim. Çox soraqlaşandan sonra dedilər Nardaranda dəfn olunan İmam Museyi Kazımın qızı Rəhimə xanımdır. Gəldim onun özünün və bacılarının məzarlarını Ziyarət etdim. Allah bu müqəddəs xanımların xatirinə bütün xəstələrə şəfa versin!

***Yusifova Lətafət Şəmistan qızı*** *– Sumqayıt şəhər 21 saylı orta məktəbdə fizika müəlliməsi:*

-Mənim İmam övladlarına və onların ziyarətgahlarına böyük inam və hörmətim var. İmkan daxilində onları ziyarət etməyə çalışıram və onların kəramətlərindən faydalanıram. 1998-ci ildə bərk xəstə yatırdım. Müalicələr effekt vermirdi. Bir il yataqda qaldım. Oğlum Elmarın o vaxt 8 yaşı vardı. Rəsm çəkməyə böyük həvəsi vardı. Dedi: *"Ana, Mir Mövsüm ağanın rəsmini çəkəcəm, o sənə şəfa verəcək".* Dedim: *"Bala, sən uşaqsan, elə böyük şəxsiyyətin şəklini çəkəmə, pis alınar".*





Bir gün gördüm uşaq Seyidin şəklini çəkib gətirdi. Pis alınmamışdı, oxşayırdı. Asdı başımın üstündən. Həmin gecə yuxuda Mir Mövsüm ağanı gördüm; ziyarətinə getmişdim. Seyid ayağa qalxıb, mənə tərəf gəldi və əlini başıma çəkdi. Həmin anda beynimdən belə bir fikir keçdi ki, Ağa yeriyə bilmirdi, necə oldu ki, indi yeridi? Bu vaxt yuxudan ayıldım və əhvalımda yaxşılıq hiss etdim. Səhər durub yeriməyə başladım. Sonra gedib Mir Mövsüm ağanın qəbrini ziyarət etdim.

Peyğəmbər nəvəsi, İmam övladı Həzrət Rəhimə xanımın Nardaran kəndində olan şərif məzarı Azərbaycan xalqının ən sevimli ziyarət yerlərindən biridir.

## HƏZRƏT XƏDİCƏ XANIM

Həzrət Xədicə xanım kəraməti ilə məşhur olan xanım övliyalardandır. Həzrət Museyi – Kazım əleyhissəlamın qızı (yaxud nəvəsi) olduğu ehtimal olunur (düzünü Allah bilir). Xədicə xanımın qəbri Bakının Mərdəkan qəsəbəsində, Xəzər dənizinin sahilində, “Pirhəsən” adıyla tanınan xanəgahdadır. Yeri gəlmişkən qeyd edim ki, bu pir kompleksində iki qədim türbə mövcuddur. Türbələrdən biri (nisbətən hündürdə olanı) Pir Həsənə, digəri isə, Xədicə xanıma məxsusdur. Pir Həsənin türbəsinin üzərindəki ərəbcə kitabəni AMEA-nın Arxeologiya və Etnoqrafiya İnsitutunun əməkdaşı Məşədixanım Nemətova aşağıdakı kimi tərcümə etmişdir:



*“Bu mübarək məqbərə ən kamil insanların nümunəvisi Pir Həsənindir. Əzəmətli xaqan Şah Abbas* – Allah onun hökmranlığını əbədiləşdirsin –





*vaxtında Dərviş əl-Hüseyni tikdirmişdir. Min iyirmi birinci il” (1612-1613)*

Həzrət Xədicə xanımın qəbri olan türbənin isə, kitabəsi qalmamışdır. Türbə uzun illər qum altında qalmışdır. 1990-cı illərin əvvəllərində bir nəfər mömin şəxsin gördüyü yuxu ilə ərazidə olan qum təmizlənmiş, nəticədə Xədicə xanımın günbəzi və qəbri üzə çıxmışdır. Həmin dövrdən burada bir çox çarəsiz xəstələr şəfa tapdığından bu qəbir insanlar tərəfindən müqəddəs tutulmuş və pir kimi ziyarət olunmağa başlanmışdır. Bunu ziyarətgaha qoyulmuş xatirə kitabından da aydın görmək olur. Belə ki, bu kitabda ziyarətçilər başlarına gələn əhvalatları qeyd etmişlər. Oxucuların marağına səbəb olacağını nəzərə alıb, xatirə kitabında yazılmış bir neçə əhvalatı diqqətinizə çatdırıram:

***Rzayeva Cəlalə Rauf qızı** – Bakı şəhəri, Naxçıvan küçəsi 94, mənzil 5:*

-Ağır xəstəlik keçirdiyimdən can üstə olmuşam. Anam bu halımdan qorxmuşdu. Sonra mən xəstəlikdən sağalıb qalxsam da, anam bərk xəstə düşdü. Onda qorxudan həm ürək, həm də şəkər  xəstəlikləri yaranmışdı. Bu onu çox qorxudurdu. Bir ay xəstəxana şəraitində yatmasına baxmayaraq, anamda heç bir irəliləyiş hiss olunmurdu. Dünyagörmüş qohumlarımız bizə məsləhət

gördülər ki, "Pir Həsən" ziyarətgahına gəlib buradakı müqəddəsləri, o cümlədən Xədicə xanımın məzarını ziyarət edək. Belə də etdik. Bu gün beşinci dəfədir ki, buranı ziyarət edirik. Birinci gün gələndə anam təngnəfəslikdən yeriyə bilmirdi. İkinci gün bir az yüngülləşmə, üçüncü gün daha çox yüngülləşmə hiss olunurdu. Bu gün artıq anam özünü sağlam hiss edir. Biz pirdə dəfn olunanlara Allahdan rəhmət diləyirik. Allah onların xatirinə bura üz tutan çarəsizlərin dərdinə çarə qılsın.

* * *

***Hüseynova Səkinəxanım Mirismayıl qızı*** - *Maştağa qəsəbəsi, Axund Mirəbdülxaliq küçəsi, ev 1:*

-Qızım Mehparə 1984-cü ildə uşaq dünyaya gətirərkən onda psixi pozğunluq yaranmışdı. Müalicələr heç bir effekt vermirdi. Gecə ikən onu xəstəxanadan götürüb, xəlvət bu pirə gətirdim. Ziyarət edib gedəndən sonra tamam sağaldı".

*5 may 2002-ci il.*

* * *

"Mən *Nadirova Vüsalə Zeynal qızı* bu müqəddəs ziyatətgahın daimi zəvvarlarından briyəm. Hələ xəstə olmayana qədər ailə üzvlərimlə piri ziyarətə gəlirdik. 28 oktyabr 2002-ci il tarixdə sübh çağı sudurğa keçirdim, dilim qatlanmışdı. Valideynlərim məni həkimlərə apardılar. Lakin qəbul etdiyim iynə-dərmanların heç bir





müsbət təsiri olmurdu. Hər dəfə sudurğa keçirəndə elə zənn edirdim ki, həyatımın sonudur. Nəhayət, valideynlərim məni bu pirin ziyarətinə gətirdilər. İki dəfə ziyarət edəndən sora özümdə xeyli yüngüllük hiss etdim və burada niyyət tutdum ki, tam sağalım, üçüncü dəfə ziyarətə piyada gələrəm. Allah niyyətimi qəbul etdi və buradakı müqəddəslər xatirinə mənə şəfa verdi. Əhdimə əməl edib, piyada gəlmişəm".

***Nadirova Vüsalə Zeynal qızı*** - *Əmircan qəsəbəsi, ev 4, mənzil 53.*

*17 avqust, 2003-cü il.*

* * *

"Mən ***Şərafət Həsənova*** Neftçala rayonunun Mirqurbanlı kəndində yaşayıram. Bura ziyarətə gəlməmişdən qabaq uzun müddət müxtəlif xəstəxanalarda yatmışam. Məni qorxudan o idi ki, xəstəliyimin nə olduğunu həkimlər müəyyən edə bilmirdilər. Ağrılar məni çox pis vəziyyətə gətirirdi. Sonra qaynanam məni Bakıya gətirdi. "Pir Həsən" pirinə üç gün dalbadal ziyarətə gəldim. Xanım Xədicənin şərif məzarını ziyarət etdim. İndi məndə hər şey yaxşıdır. Ağrılardan qurtulmuşam. Bura üz tutanların hamısına Allahdan şəfa diləyirəm".

*13 dekabr 2003-cü il.*

* * *

"Mən ***Səfərov Xəyyam Nüsrət oğlu*** 2000-ci ildə qaynanam Rzayeva İsbəngülü iflic vəziyyətdə "Pir Həsən" ziyarətgahına gətirdim. Həm Seyidin, həm də seyidə Xədicə xanımın qəbirlərini ziyarət etdik. Buna qədər əlimizi hər yerdən üzmüşdük. Xəstədə ağız, burun, çənə tanınmaz hala düşmüşdü, çənə pis şəkildə aşağıya əyilmişdi. Biz bura iki dəfə ziyarətə gələndən sonra Allahın möcüzəsi ilə rastlaşdıq. Pirdə olarkən, bir göz qırpımında sifət düzəlməyə başladı. Biz getmək üçün maşına əyləşəndə xəstə özünə gəlmiş və artıq özünü rahat hiss edirdi. Bundan sonra ailəmiz həmişə pir sahibinə dualar edirik".

*Ünvan: Keşlə qəsəbəsi, Moskva prospekti, ev 79.*

*20 aprel 2004-cü il.*

* * *

"Mən – Türkan qəsəbə sakini ***Əliyeva Əntiqə Balaəhməd qızı*** 15 oktyabr 2004-cü il tarixdə süd vəzimdə şiş olduğunu hiss etdim. Həmin gün səhər həkimə gedib, diaqnostik aparata girdim. İki ədəd şabalıd və qoz boyda şiş olduğunu dedilər və əməliyyat etməyi təklif etdilər.

Xəstəxanadan çıxıb, birbaşa üz tutdum ziyarətgahlara. Mir Mövsüm ağanı, Mir Sultan ağanı, "Pir Həsən" pirini, Maştağada Seyid İbad ağanı və digər müqəddəs yerləri ziyarət etdim. Üç dəfə bura gəlib, Xədicə xanımın günbəzini ziyarət etdim. Sonralar üç klinikada





müayinədən keçdim ki, görüm məndə şiş var, ya yoxdur? Hər üçü təsdiq etdi ki, məndə şiş yoxdur. Mən bu gün – 9 noyabr 2004-cü il tarixdə bura gəlib qurbanımı kəsirəm. Həyat yoldaşım Əliyev Bəyləri də bir il bundan əvvəl ağır vəziyyətdə bu pirə gətirmişdik. Həmin vaxt o da şəfa tapdı. Onun da qurbanın bu gün birlikdə gətirmişik. Qurbanolduqlarımın möcüzəsinə inanırdım, bilirdim ki, sinəmdə olan şiş yox olacaq, onlar məni darda qoymazlar".

*Əliyeva Əntiqə Balaəhməd qızı.*

*9 noyabr 2004-cü il.*

* * *

"Mən - ***Əsədov Dəyanət Əhliman oğlu*** özüm bilmədiyim xəstəliyə görə Bakıdakı ... xəstəxanasında müalicə alırdım. Beynimə müxtəlif fikirlər gəlirdi və mən onu edirdim. Elə bilirdim yaxşı hərəkətdir. Sonradan etdiyimə peşman olurdum. Hərdən sanki ağlımı itirirdim. Bir gün əmim Qubad məni xəstəxanadan qaçırıb "Pir Həsən" ziyarətgahına gətirdi. Burdakı günbəzə girib Allaha yalvardım ki, məni sağaltsın.

Şükür Allaha, günbəzdən 200 metr aralanmışdım ki, burnumdan qan açıldı. Ondan sonra həmin xəstəlik məni tərk etdi".

*Əsədov Dəyanət*

*19 dekabr 2008-ci il.*

* * *

"Oğlum Teymur Qarabağ müharibəsində minaya düşəndən sonra yarası sağalsa da, özünü həmişə narahat hiss edirdi. Bir gün onu bura ziyarətə gətirdim. Pir Həsənin və Xədicə xanımın qəbirlərini ziyarət etdikdən sonra narahatlığı keçib getdi".

*Paşayev Fazil* – Mingəçevir şəhərində məskunlaşmış Laçın rayon sakini.









## RƏBİƏ ƏDƏVİYYƏ

Rəbiə Ədəviyyə zühd və təqvası ilə məşhur olan xanım övliyalardandır. Bəsrədə doğulmuşdur, atasının adı İsmaildir.

Atası çox yoxsul idi. Körpə dünyaya gələndə evində heç bir şeyi yoxdu. Göbəyini kəsmək üçün işə yarayacaq bir damla qəndil yağı və mum yox idi. Üç qızı vardı. Rəbiə dördüncüsü oldu. Ona görə də adına Rəbiə dedilər. Xanımı ərinə dedi ki, qonşuya get, bir az qəndil yağı istə. Amma İsmail Allahdan başqa kimsədən bir şey istəməyəcəyinə söz vermişdi. Çıxıb qonşusunun qapısına qədər gəldi, əlini qonşusunun qapısına gəzdirib döndü və xanıma dedi ki, qapı açılmadı. Xanımı ağladı, o da xeyli kədərləndi, başını dizinə qoyub yuxuya getdi. Röyada Rəsulullahı - səlləllahu əleyhi və səlləmi – gördü. Peyğəmbər əleyhissəlam ona dedi ki: *"Heç kədərlənmə, dünyaya gələn bu qızın seyidədir. Ümmətimdən yetmiş min kişi onun sayəsində şəfaət tapar. Sabah Bəsrə valisi İsa Zazanın yanına get. Bir kağıza bu dediklərimi yaz: "Hər gecə mənə yüz ələvat oxuyurdun. Bu cümə gecəsi sələvat oxumağı unutdun. Onun kəffarəsi olaraq, halaldan dörd yüz dinar bu yazını sənə gətirən şəxsə ver". Kağızı valiyə çatdır".*

İsmail oyandı, ağladı, qalxıb yazını bir kağıza yazdı və bir məmurla valiyə göndərdi. Vali yazını görüncə, buyurdu ki: *"Rəsulullah bizi yada saldığı üçün şükr olaraq yoxsullara min dinar, bu şəxsə də dörd yüz dinar verin və onu görmək istədiyimi bildirin. Ancaq belə bir şəxsin buraya gəlməsi düzgün olmaz, gərək biz onun yanına gedək, saqqalımızı qapısının kandarına sürtək. Allah xatirinə, nə ehtiyacı olsa, bizə gəlsin".*

Rəbiə yaşa dolanda, atası və anası öldülər. Bəsrədə o vaxt qıtlıq düşmüşdü. Bacıları hərə bir yana dağıldı. Bir gün Rəbiə küçəyə çıxanda zalım bir şəxs onu görüb yaxaladı və altı gümüşə satdı. Sahibi ona iş buyurdu. Ağır bir gün keçirirdi. Rastına bir naməhrəm çıxdı. Rəbiə qaçdı. Qaçarkən yıxıldı, qolu çıxdı. Üzünü yerə sürtüb belə dua etdi: *"Ya Rəbbim! Qəribəm, atasız-anasız bir yetiməm, heç kimim yoxdur, əsir edilmişəm. Qolum da çıxıb. Bunlar məni kədərləndirmir. Ancaq Sənin rızanı istəyirəm. Bilmirəm, məndən razısanmı?"* Bir səs eşitdi: *"Kədərlənmə, sabah elə bir məqamda olacaqsan ki, ən yaxın mələklər səni ziyarət edəcəklər".* Rəbiə sahibinin evinə döndü. Gündüzlər oruc tutur, lazımi işləri görür, axşama qədər ayaq üstündə olurdu. Bir gecə sahibi yuxudan oyandı, pəncərədən baxıb Rəbiəni gördü. Rəbiə səccadəyə qapanaraq dua edirdi: *"Ya Rəbbim! Bilirsən ki, mənim arzum Sənin əmrinə tabe olmaqdır. Mənim səadətim Sənin hüzurunda olmaqdır. Əgər hürriyyətim əlimdə olsa, Sənə ibadətdən bir an geri qalmazdım. Ancaq məni bir bəndənin əlinə*





*və əmrinə verdin".* Rəbiə başının üstündə asılı bir qəndil gördü, amma qəndil heç bir yerə taxılmamışdı. Qəndil bütün otağa işıq salmışdı. Sahibi bu vəziyyəti görcək qorxdu, qalxıb yatağına girdi. Səhər açılan kimi o, Rəbiənin yanına çağırıb onu azad buraxdı və belə dedi: *"Əgər burada qalsan, mən də sənə xidmət edərəm. Sərbəstsən, istədiyin kimi hərəkət et".* Rəbiə dedi ki, burax məni, gedim. O da buraxdı. Rəbiə bir xarabalığa gəlib çıxdı. Heç kəs onun harada olduğunu bilmirdi. Orada ibadətə qapıldı. Arada bir Həsən Bəsrinin məclislərinə gedər, ona xidmət edərdi. Bir dəfə ürəyinə həcc arzusu düşdü. Səhraya yollandı. Bir minik heyvanı vardı, yükünü ona yükləmişdi. Heyvan çöldə öldü. Adamlar dedilər ki, biz sənin din qardaşlarınıq, sənə kömək edək. Onlara belə dedi: *"Siz gedin, mən sizə güvənərək gəlməmişəm".* Onlar da getdilər. Rəbiə tək qaldı. Dua elədi: *"Ya Rəbbim! Qərib və aciz bir qadınla padşahlar beləmi rəftar edər? Məni Öz evinə çağırdın. Yolda minik heyvanımı öldürdün və məni çöldə təkbaşına qoydun".* Yalvarışı heç bitməmişdi ki, minik heyvanı cana gəldi və ayağa qalxdı. Rəbiə yükünü ona yüklədi və yoluna davam etdi.

Rəbiə daima məhzun gəzərdi, güldüyünü görən olmamışdı. Çox ağlardı. Cəhənnəm sözünü eşidəndə özündən gedər, uzun zaman huşsuz qalardı. Yaşı səksəni keçmişdi. Amma yenə də sərbəst gəzirdi. Ondan soruşanda ki, niyə belə çox ağlayırsan, cavab verərdi ki, öləndə Cənnətə layiq görülməyəcəyimdən qorxuram.

Kəfənin daima yanında gəzdirirdi. Namaz qılanda kəfənini salıb onun üstündə səcdə edərdi. Namazda səssiz ağlardı. Səcdə vaxtı göz yaşlarından səcdə yerində göl əmələ gələrdi.

Bir dəfə bir neçə gün ifratsız oruc tutdu. Gecələri yatmadı, namaz qıldı. Çox bərk acmışdı. Bir nəfər qapısına gəlib yemək gətirdi. Dedi ki, gedək, bir bardaq su götürüb, orucumuzu açaq. Bardağı gətirənədək qəndil söndü. Rəbiə qaranlıqda su içmək istədi. Bardaq əlindən düşüb qırıldı. Rəbiə ah çəkdi və dərdli-dərdli dedi: *"Ya Rəbbim! Mənim kimi bir çarəsizlə niyə belə rəftar edirsən?"* Bir səs eşitdi: *"Eləmi, istəyirsənsə, bütün dünyanın nemətini sənə verərəm. Amma o zaman səndən dərdi alaram. Dünyanın dərdi və neməti bir qəlbə yerləşməz. Ey Rəbiə, sənin muradın var, Mənim də muradım var. İkimizin də muradımızı bir qəlbdə birləşdirək"*. Rəbiə bunu eşidincə, qəlbini dünyadan elə kəsdi ki, otuz beş il namaz qıldı və hər namaz qılanda bunu axırıncı namaz hesab etdi. İnsanlardan tamam uzaqlaşdı, qorxurdu ki, kimsə gəlib onu məşğul etsin, Allahdan ayrılsın.

Rəbiənin kəramətlərinə dair çoxlu rəvayətlər var. Deyirlər ki, bir il Rəbiə əkin əkmişdi. Tarlanı çəyirtkə basmışdı. Belə dua elədi: *"Ya Rəbbim! Ruzim Sənin əlindədir. İstəsən, onu düşməninə, istəsən, övliyana yedirdərsən"*. Çəyirtkə sürüsü uçub getdi.

Bir gün Həsən Bəsri Fərat çayının kənarında oturan Rəbiyyəni görüncə, səccadəsini suyun üzərinə sərib: *"Gəl burada iki rükət namaz qılaq"* - dedi. Rəbiyyə:





*"Ustad, axirət əhlinə dünya bazarından bir nümunəmi göstərmək istəyirsən? O halda onun eləsini göstər ki, insan oğlu bənzərini göstərməkdə aciz qalsın"* – deyə cavab verdi. Rəbiyyə daha sonra səccadəsini havaya sərdi və *"Ey Həsən, sən də buraya gəl və insanların gözündən qeyb ol"* - dedikdən sonra əsas söyləmək istədiyini söylədi: *"Ustad, sənin etdiyini balıqlar, mənim etdiyimi isə, mələklər edər"*.

**Rəbiə Ədəviyyənin hikmətli sözlərindən:**

*- Allah bəndəsi nemətdən zövq aldığı kimi, möhnətdən də zövq aldığı zaman razı olmuş olur.*

*- Rəbiədən soruşdular ki, sən tapındığını görürsənmi? Cavab verdi ki, görməsəydim tapınmazdım.*

*- Ya Rəbbim! Sənə Cəhənnəm qorxusu ilə ibadət edirəmsə, məni Cəhənnəmdə yandır. Sənə Cənnət ümidi ilə ibadət edirəmsə, Cənnəti mənə haram qıl. Əgər Sənə Sənin üçün ibadət edirəmsə, daima Özünü mənə göstər.*

## PİR CAHAN

Azərbaycanda müqəddəs ziyarətgaha çevrilən xanım övliyalardan biri də *"Pir Cahan"* adı ilə tanınan pirdə dəfn olunmuş xanımdır. Bu pir Zərdab rayonunun Lələağacı kəndi ilə Yarməmmədbağı kəndinin sərhədində yerləşir. Pirin ərazisi sıx bitmiş yulğun ağacları ilə örtülüdür. Burada cəmi iki ədəd qəbir mövcuddur. Qəbirlərdən biri qadına (xanım övliyaya), digəri isə, kişiyə (ola bilsin ki, onun həyat yoldaşıdır. Düzünü Allah bilir) məxsusdur. Bu pir orta əsrlərdən bu yana mövcuddur. Ona görə də buradakı ağaclara toxunulmur. Şahidlərin dediklərinə görə, pirin yanından keçən adamlar müxtəlif zamanlarda burada qədim geyim formasında bir qadınla bir kişini görmüşlər və onlar bir anda yox olmuşlar. Ağsaqqalların dediyinə görə zaman-zaman insanlara görünən və yox olan bu varlıqlar ola bilsin ki, pirdə dəfn olunanların ruhlarıdır. XIX əsrdə bu pirə Yarməmmədbağı kənd sakini Soltanəhməd kişi mücövürçü olmuşdur. Onun pirdə mücövürçü olmasının çox maraqlı tarixçəsi vardır və mühüm bir tarixi hadisəyə bağlanır. Belə ki, təxminən 1850-ci illərin əvvəllərində Soltanəhməd kişi pirin yanından keçəndə burada yad bir kişi görür və onunla salamlaşaraq kimliyi ilə maraqlanır.





Kişi cavab verir ki, "Mən Ağsunun Külüllü kəndindən olan Hacı Əhməd əfəndiyəm. Nikolay hökumətinin təqibindən qaçaraq bura sığınmışam". Beləliklə, Hacı Əhməd əfəndi bir müddət (1850-ci illərin əvvəllərində) bu pirdə yaşayır və bu müddətdə Soltanəhməd kişi hər gün evindən ona çörək gətirib verir. Soltanəhməd kişinin övladlarına danışdığı və bu günə gəlib çatan söhbətə görə günlərin birində Hacı Əhməd əfəndi onun gətirdiyi çörəyi yeyərək, artıq getmək vaxtı olduğunu bildirir və Soltanəhməd kişi ilə halallaşır. Tapşırır ki, bundan belə bu pirə mücövürçü olarsan və bura xidmət göstərərsən. Bunu deyəndən sonra möcüzəli şəkildə havaya qalxmış və bir anda yox olmuşdur. Həmin vaxtdan Soltanəhməd kişi ölüncə "Pir Cahan" pirinə xidmət göstərmiş, ölümündən sonra bu işi övladları və nəvələri davam etdirmişlər.

Araşdırmalarımız göstərir ki, XIX əsrin ortalarında Ağsu rayonunun Külüllü kəndində həqiqətən də Hacı Əhməd əfəndi adlı şəxs yaşamış (məşhur Bilal əfəndinin atası) və kəramətli övliya olmuşdur. Tarixi mənbələrdən o da məlumdur ki, Külüllü kəndindən olan Hacı Əhməd əfəndi öz təhsilini Kürdəmirdə məşhur Nəqşibəndi Şeyxi Mövlanə Hacı İsmayıl Şirvanidən (1782-1848) almış və müridizm hərəkatının öncüllərindən biri olmuşdur. Çar hökumətinin müridizmə qarşı amansız mübarizəsi Hacı Əhməd əfəndidən də yan keçmədi. Belə ki, 1813-cü ildə Rusiya ilə İran arasında bağlanan "Gülüstan" müqaviləsindən sonra Azərbaycanın

şimalında din xadimlərinə, özəlliklə də sufilərə qarşı böyük təzyiq və təqiblər başlandı. Bu gün arxivdə saxlanan rus rəsmi sənədlərində 1849-cu ildə Şamaxı quberniyasından dindarların kütləvi şəkildə sürgün olunması haqda qeydlər vardır. Sürgünlərin səbəbi kimi Şirvan əhalisinin yeni təlim – müridizm bayrağı altında mübarizəyə başlamaları göstərilir. Sənədlərdə həmçinin hərəkatın rəhbərinin Külüllü Hacı Əhməd əfəndi olduğu göstərilir. Hadisədən yeddi il sonra knyaz Behbudov təəssüf edirdi ki, 1849-cu il sürgünləri zamanı Hacı Əhməd əfəndinin kənarda qalması (*tapılmaması*) 1855-1856-cı illərdə yeni Şirvan üsyanının başlanmasına səbəb olmuşdur.

Tədqiqatçı Məhəmməd Rıhtımın araşdırmalarına görə 1855-ci ilin yanvarından etibarən çar məmurları Şeyx Hacı Əhməd əfəndini izləməyə başlayırlar. Knyaz Behbudov 1856-cı il 6 sentyabr tarixində Daxili İşlər Nazirliyinə göndərdiyi 552 saylı rəsmi məktubda Hacı Əhməd əfəndinin və Qaraqoyunlu Qəhrəman bəyin həbs edilərək Tambov quberniyasına sürgün olunduğunu qeyd edir.

Hacı Əhməd əfəndi 1856-cı il dekabrın 24-də Tambov şəhərində vəfat etmiş, orada da dəfn olunmuşdur.

Göründüyü kimi, tarixi sənədlərdə göstərilənlərlə Soltanəhməd kişinin dediyi sözlər tam üst-üstə düşür və zaman baxımından da uyğun gəlir. Sual yaranır ki, Külüllü Şeyx Əhməd əfəndi çar məmurlarından qaçarkən gizlənmək üçün niyə məhz *"Pir Cahan"*ı seçmişdir? Bu sualın dəqiq cavabı məlum olmasa da, onu bir neçə variantda izah etmək olar. Birinci variant sufi şeyxlərinin aldıqları mənəvi ilham və işarələrlə əlaqəlidir. Belə ki, kəramətli övliya olan Əhməd əfəndiyə mənəvi işarələrlə göstərilə bilərdi ki, bu pir onun üçün təhlükəsizdir və burada təqibdən qurtula bilər. İkinci variant genetik bağlılıqla əlaqədardır. Araşdırmalarımız göstərir ki, bir çox kəramət sahiblərinin nəsil şəcərəsi çox qədimlərdə mövcud olmuş pirlərə, imamlara bağlana bilir. Odur ki, Hacı Əhməd əfəndinin də nəsil şəcərəsinin *"Pir Cahan"*da dəfn olumuş xanım övliyaya bağlanması mümkündür. Bu iki ehtimaldan hansının doğru olmasını Allah bilir.

*Pir Cahan* piri əsrlərdir ki, bölgə əhalisinin sevə-sevə ziyarət etdikləri müqəddəs məkandır. Buradan edilən dualar xanım övliyanın üzünün nuru hörmətinə Allah dərgahında tez qəbul edildiyindən bugünkü nəsil tərəfindən də yad edilməkdədir...

# Kəramət haqqında
# Elmi-ladun söhbətlər





## KƏRAMƏT SAHİBLƏRİ CƏMİYYƏTİN TRANSORMATORU FUNKSİYASINI YERİNƏ YETİRİRLƏR

### *Elmi-ladun söhbətlər*

Yəqin oxucuları maraqlandıran ilk sual ***"elmi-ladun"***un nə olmasıdır. Nəzərinizə çatdırım ki, ***ladun*** sözü ərəbcə ***"dərin qat"*** mənasını verməklə, elmin dərin qatlarına işarədir. Bu, tək zəhmətlə (oxumaqla) əldə edilə bilməyən, həm də qəlbə gələn duyumla (hissiyyatla) qazanılan bilgidir. Vaxtilə peyğəmbərlər və digər kəramət sahibləri bu cür elmə malik olublar və sirlər üzərindən pərdələri məhz bu elmlə qaldırıblar.

Allah-təalanı qəlb və ruhla tanıyıb bilməyə **mərifətullah** da deyirlər. "Sülük-ül-Uləma" adlı əsərdə keçən bir hədisi-şərifdə: *"Elmlərdən eləələri vardır ki, onları ancaq mərifətullaha sahib olanlar bilirlər. Onlar bu elmlərdən xəbər verdikləri zaman mərifətullaha sahib olmayanlardan başqası onları inkar etməz"* – buyrulmuşdur.

Hadimi həzrətləri: *"Mərifətullah bilgiləri kəşflə və ilhamla hasil olur. Müəllimdən öyrənilməz. İbadətlərin yapılması və bütün şəriət bilgiləri isə ustaddan öyrənməklə əldə edilir"* – demişdir.

İnsanın görünməyən və aləmi əmirdən olan qəlb, sirr, ruh kimi dəyərləri mövzu edən elmə qısaca könül –

yəni, qəlb; ruhla bağlı elmə ***elmi-batin*** (və yaxud ***elmi-ladun***) deyilir. Deyleminin rəvayət etdiyi bir hədisi-şərifdə: *“Elmi batin Allah-təalanın sirlərindən bir sirdir. Onun hökmlərindən bir hökmdür. Dilədiyi qulunun qəlbinə salar”* – deyə buyurulmuşdur.

Şəhabəddin Şührəverdi: *“Elmi-batin (elmi-ladun) ilə qulun Allah-təalaya yaxınlığı artar. Bu elm Allah adamı deyilən vəliləri və talibləri ona qovuşduran, doğru yolu qüvvətləndirən və insanlara doğru yolu göstərən alimlərin söhbətlərində qazanılır. Bu alimlər peyğəmbərlərin varisləridir”* – demişdir.

Kitabın bu fəslində siz xanım övliyalarda olan kəramətin elmi-ladun yolu ilə təhlilini oxuyacaqsınız.

Bildiyimiz kimi, kainat fizikanın qanunları (fiziki qanunlar) ilə idarə olunur. Yəni İlahi sistemdə enerjinin paylanması ilə, fizikada enerjinin paylanması qanunları üst-üstə düşür.

Məsələn, “Quran”da **36**-cı surə *YA SİN* adlanır. İlyas Peyğəmbərə müraciətlə müqəddəs kitabda *"İlyasin"* deyilməsi, bu sözün *"kamil insan", "Peyğəmbər"* sözünün sinonimi olduğunu deməyə əsas verir.

Bildiyimiz kimi, peyğəmbərlər və kəramət sahibləri Allah-təala ilə bəndələri arasında enerji ötürücüsü funksiyasını yerinə yetirirlər. Fizikada isə bu funksiyanı transformatorlar yerinə yetirir.





İndi onlar arasında olan riyazi oxşarlıqlara nəzər salaq.

Kamil insanın anatomik quruluşunda **5** duyğu üzvü, **5** oma, **5** bel fəqərəsi; həmçinin baş-beyində **5** şöbə vardır və gündə **5** dəfə ibadət edir. Sadaladığım **5** amili özündə cəmləşdirən kamil insanın – kəramət sahbinin Qurandakı rəmzi **36**-dır (*YASİN*).

Maraqlıdır ki, transformatorda da **5** vəziyyət olmaqla, hər vəziyyətdə **36** (!) sarğı olur.

Bildiyimiz kimi Peyğəmbərin qəbul etdiyi enerji (vəhy) gizli səs, siqnal formasında olur. O, bu siqnalı sözə ÇEVİRMƏKLƏ insanlara çatdırır. Həm də, hamısını deyil, onların şüuru səviyyəsində (həzm edə biləcəyi qədər) ötürür.

Maraqlıdır ki, transformatorun da iş prinsipi eynən bu cürdür. "*Transformasiya*" - ÇEVİRMƏ deməkdir və funksiyası mənbədən qəbul etdiyi yüksəkgərginlikli enerjini alçaqgərginlikli enerjiyə (220) çevirib, mənsəbə *(cihazlara)* ötürməkdən ibarətdir.

Bildiyimiz kimi, transformatorlar - *yüksəldici* və *alçaldıcı* olmaqla - iki qrupa bölünür.

**Yüksəldici** transformatorların vəzifəsi qəbul etdikləri enerjini artıraraq ötürməkdən ibarətdir. Onlara nəinki cihaz birləşdirmək, heç yaxınlaşmaq da mümkün deyildir. İnsanı məsafədən vurur. Onun üçün də belə transformatorlar məhəllələrdən kənarda qoyulur və onlarla əlaqə alçaldıcı transformatorun vasitəsi ilə qurulur.

İlahiyyat sistemində bunun misalı vəhy gətirən mələklərdir ki, adi insanların onlarla əlaqəsi nəinki mümkün deyildir, hətta uzaqdan belə onu görməsi ilə mələyin enerji və informasiya yükünə tab gətirə bilməzlər (xatırladım ki, Həzrət Cəbrayıl tərəfindən vəhy Peyğəmbərimizə çox vaxt məhəllədən kənarda – Hira dağında nazil olardı).

**Alçaldıcı** transformatorlar isə, məhəllə (oxu: *cəmiyyət*) daxilində yerləşdirilməklə, yuxarıda qeyd etdiyim kimi, qəbul etdiyi yüksəkgərginlikli enerjini azaldaraq, cihazların (oxu: *insanların*) tutumuna uyğun – **220**-yə çevirərək, ötürürlər.

İlahi sistemdə bunun misalı peyğəmbər və kəramət sahibləridir ki, qəbul etdikləri vəhyin bir hissəsini özlərində saxlamaqla (informasiya yükünü azaltmaqla) insanların beyin tutumuna (şüur səviyyəsinə) uyğun olaraq cəmiyyətə ötürürlər.

İlahi sistemdə və fizikada enerjinin saxlanması və paylanmasındakı bənzərlik tək bunlardan ibarət deyildir. Belə ki, məişətimizdə istifadə etdiyimiz bütün cihazların üzərində bir qayda olaraq **220** ədədi həkk olunmuşdur.

Maraqlıdır ki, həmin **220** ədədi enerji (ruh) daşıyıcısı olan insanın da üzərinə həkk olunmuşdur. Belə ki, hər bir insanın anatomik quruluşu **220** (!) sümüyün birləşməsindən yaranıb!

Diqqətinizi başqa bir maraqlı məqama da çəlb etmək istəyirəm. Fiziklərdə belə bir haqlı sual yaranacaq ki, peyğəmbərlər və kəramət sahibləri  də bioloji cəhət-





dən bizim kimi insanlar olduğu halda, niyə onlar mələyin informasiya və enerji yükünə tab gətirə bilir, başqa insanlar tab gətirə bilmir?

Bu maraqlı sualın da cavabını yenə fizikanın qanunları ilə vermək mümkündür. Belə ki, adətən transformatorların tutumunu artırmaq üçün onu açıb, içindəki sarğıları artırmaqla *(genişləndirməklə)* buna nail olurlar.

Kamil insanlarda da eynən bu cürdür – vəhy qəbul etməzdən öncə onların qəlbində genişlənmə prosesi gedir. Yəni, onların enerji və informasiya götürmə qabiliyyəti artırılır. Bu barədə "Quran"ın ***"Açılıb genişlənmə"*** (94) surəsində belə deyilir:

***"Məgər biz sənin köksünü açıb genişləndirmədikmi?!"*** *"Quran", 94:1.*

## ZİYARƏTGAHLAR CƏMİYYƏTİN İLDIRIMÖTÜRÜCÜLƏRİDİR

"Quran"ın **13**-cü surəsi ***«Göy Gurultusu»*** adlanır. Göy gurultusunun enerji prosesi olduğu və həyəcan yaratdığı hamıya məlumdur. Surədə deyilir:

***«Göy gurultusu Onun şəninə təriflər deyir. O, ildırımlar göndərib** (kafirlər) **Allah barəsində mübahisə edərkən, onlara istədiyini vurar. Allahın cəzası şiddətlidir!»*** (13:13)

Mendeleyev cədvəlinin **13**-cü elementi isə Alüminiumdur. Elektrik ötürmə qabiliyyəti yüksək olduğundan, alüminium energetika (!) sənayesinin özəyini təşkil edir.

**13** rəqəmi həm "Quran"da, həm də fizikada həyəcan rəmzi sayılır (göy gurultusu insanda da həyəcan yaradır). Təsadüfi deyildir ki, hidrogen atomunun enerji qəbul etməmiş (həyəcanlanmamış) yükü **13** EV-dur. Hidrogen atomu enerji qəbul etdikdə həyəcanlanır və yükünü ötürməklə boşalır.

İnsanlar arasında bəd xəbərin tez yayılması da həyəcanlanma ilə bağlıdır. Belə ki, bəd xəbərin enerji yükü mənfi olduğundan, onu qəbul edən insan həyəcanlanır və yükünü ötürməyə çalışır. Bu halı atomun və təbiətin həyəcanlanması (göy gurultusu) ilə müqayisə etdikdə, çox böyük oxşarlıq görünür. Həmçinin təbiət öz həyəcanını (yükünü) yağışla boşaltdığı kimi, insan da göz yaşı ilə boşaldır.





Bəzi binalar və yaxud obyektlər tikilərkən, yanında ildırımötürücülər quraşdırılır. İnsan cəmiyyətində bu funksiyanı kəramət sahibləri və yaxud onların müqəddəs ziyarətgahları yerinə yetirir. Belə ki, təcrübədən məlumdur ki, bir çox məhəlli bəlaların qarşısını Allahın izni ilə ziyarətgahlar alırlar. Bu mənada onlar cəmiyyətin ildırımötürəni funksiyasını yerinə yetirirlər.

***"... Şübhəsiz ki, bunda** (bu deyilənlərdə) **düşünən insanlar üçün neçə-neçə dəlillər vardır!"*** *Quran, 13:3.*

## PİR AĞALARI NİYƏ VURDU?

Bu yay şəhərin istisi nəfəsimi kəsəndə Qusar rayonundan olan bir oxucumun dəvəti göydəndüşmə oldu. Dəvəti qəbul edib, onların yaşadığı Piral kəndində bir neçə gün qonaq oldum. Çox qonaqpərvərdirlər. Kənddə olduğum günlərdə fürsətdən istifadə edib, "Piler" (mənası yüksəklik deməkdir) pirini və Şıx Seyidəli Babanın qəbirlərini də ziyarət etdim.

Mənimlə bərabər ziyarətdə olan kənd sakini 87 yaşlı Bünyəddin Balasultan oğlu bu pirlərlə bağlı şahidi olduğu çox maraqlı bir əhvalat danışdı. Oxucularımın marağına səbəb olacağını nəzərə alıb, əhvalatı diqqətinizə çatdırıram:

-1933-cü il idi. 13-15 yaşlarında üç uşaq Piral kəndində "vəziyyətə nəzarət" edirdik. başçımız xalaoğlum Ağalar idi. Hər gün səhər bir yerə toplaşıb, axşama qədər bağları, bağçaları çalıb-çapırdıq. Yetənə yetib, yetməyənə də bir daş atırdıq. Hətta, iş o yerə çatmışdı ki, Ağalar dirilərə sataşmaqla kifayətlənməyib, ölülərə də daş atırdı. Belə ki, o, pirlərə gedib, orada biədəb söyüşlər söyər, hətta oranı murdarlamaqdan da çəkinməzdi.

Bir səhər Ağalar "işə" gəlmədi. Mən onun arxasınca evlərinə getdim. Gördüyüm mənzərədən heyrət etdim: Ağalar yumaq kimi yumrulanıb qalmışdı. Əlləri, ayaqları və ağzı açılmırdı. Evin küncündəki oxlovu götürüb, onun ağzına saldım və dişlərini bir təhər azacıq aralayıb, çaynikin lüləyindən ağzına bir az su tökə bildim. Çox çətinliklə suyu uddu. Nə qədər çalışdımsa əllərini , ayaqlarını aça bilmədim. Tez yüyürüb, anasına xəbər verdim (anası mənim xalam idi və başqa ərə getmişdi). Dünyagörmüş qadın idi; gəlib baxan kimi dedi bu uşağı pir vurub. Yəqin dinc durmayıb, pirə sataşıb. Atasına dedi, tez ol arabanı qoş, bir qurban da götür, gedək pirə.

Ağaları güc-bəla arabaya qoydular, beş-altı ağsaqqal da götürüb pirə yola düşdülər. Mən də bunlara qoşuldum ki, görüm işin axırı necə qurtaracaq. Birinci Şıx Seyidəli Babanı ziyarət etdilər. Qurban kəsib, "Quran" oxudular və anası (*Ərzi xalam*) ağlayıb-sıtqayıb, Övliyadan bağışlanma dilədi. Sonra Piler pirinə getdik. burada da eyni şeylər təkrar olundu və qurbanın ətini bişirməyə başladılar. Yumağa dönən "qəhrəmanı" da bir qıraqda qoymuşdular. Birdən fikir verdim ki, Ağalar yuxuya gedib. Bir müddətdən sonra o, ayıldı və heç nə olmayıbmış kimi, qalxıb, bizimlə süfrə başında oturub çörək yeməyə başladı.

O hadisədən sonra Ağalar heç vaxt atamanlıq etmədi və pirlərin yanından keçəndə həmişə "Bismillah" deyib keçərdi.

Bünyəddin kişi söhbət edir ki, həmin dostum böyüyəndə çox ağıllı və savadlı adam oldu. Hətta, sovxoz

direktoru vəzifəsinə qədər yüksəldi. Allah rəhmət eləsin, həmişə tez-tez gəlib bu pirləri ziyarət edib, qurban kəsərdi.

Maraqlı və ibrətamiz hadisədir.

***"Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə, haram*** *(hörmətli)* ***aya*** *(həcc ayı hesab edilən zülhiccəyə və ya rəcəb zülqədə, zülhiccə və məhərrəm aylarına),* ***qurbanlara, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, həmçinin Rəbbinin lütfünü və razılığını diləyərək Beytülhərama*** *(müqəddəs evə)* ***üz tutub*** *(ziyarətə)* ***gələnlərə hörmətsizlik etməyin!*** *(Onlara qarşı nalayiq işlər görməyi özünüzə halal (rəva) bilməyin!)...* ***Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!"*** *"Süfrə" surəsinin 2-ci ayəsi.*





## "QURAN" İNSANA MƏHƏBBƏT AŞILAYIR

"Quran"ın **16**-cı surəsi **«Bal arısı»** adlanır. Qeyd edim ki, ana arı öz balasını **16** gün bəslədiyindən, onun haqqında olan surə də **16** rəqəmi ilə nömrələnib. Sözü gedən surədə arının misalında insanlara məhəbbət aşılanır: Bal–arının gülə olan məhəbbətinin nəticəsində yarandığı üçün həm Qərbdə, həm də Şərqdə məhəbbət rəmzi sayılır. Məhəbbət yandırıcı hiss olduğundan, bu söz **«yanmaq», «alovlanmaq»** sözü ilə yanaşı işlədilir. Bu hikmət kimya elmində də özünü eyni rəqəmlər altında büruzə verir. Belə ki, Mendeleyev cədvəlinin **16**-cı elementi olan kükürd məişətimizə **yandırıcı** bir vasitə kimi daxil olub. Həmçinin məhəbbət insana yaşamaq həvəsi, enerji (ruh) verdiyi kimi, kükürdün oksidləşməsindən yaranan sulfat turşusu da ($H_2SO_4$) akkumulyator istehsalında istifadə edilməklə, məişətimizə **enerji mənbəyi** kimi daxil olub.

Məhəbbətdə iki tərəf iştirak edir və biri olmadan o biri yanmaz. Bu hal kimya elmində də özünü eyniylə büruzə verir. Belə ki, **16**-cı element olan **Kükürd**, atom kütləsi **16** olan **Oksigensiz** yanmır. Ən maraqlısı da odur ki, Kükürdlə Oksigenin birləşməsində Kükürdün energetik səviyyələr üzrə elektronları **2 – 8 – 6** formasında yerləşir. Bunu da bütöv oxuduqda görürük ki, "Quran"ın səhifələrinin sayına işarədir. ("Quran" nazil olandan ta XIX əsrə qədər harada və nə vaxt çap olunmasından asılı olmayaraq 286 səhifədə yerləşdirilib; bu

barədə növbəti fəsillərdə danışacağıq). Qeyd edim ki, 286 ədədinin əbcəd hesabı ilə cəmi (2 + 8 + 6) **16**-ya bərabərdir ki, bu da "Quran"ın insanlara məhəbbət aşıladığını bir daha sübut edir:

***«Siz bir-birinizi sevin ki, mən də sizi sevim».*** *(Allah-təala. Qüdsi hədislərindən).*

Atom kütləsi **16** olan və yanmanı təmin edən Oksigenin sıra nömrəsini (8) Kükürdün məhəbbət rəmzi olan sıra nömrəsinə - **16**-ya vurduqda (8 x 16) alınan **128** ədədi **«Bal arısı»** surəsinin ayələrinin cəmini göstərir və elementlərlə surələr arasında olan əlaqəni bir daha təsdiq edir.

Diqqətinizi bal arısında olan digər xüsusiyyətin insanlarda özünü göstərməsinə cəlb etmək istəyirəm. Yuxarıda qeyd etdim ki, bal arısı gözəllik rəmzi olan gülə məhəbbət bəsləyir və ancaq onlarla təmasda olur. Xatırladım ki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Arının gülə olan məhəbbətinin nəticəsində **bal** yarandığı kimi, insanın da (kişinin) qadına olan məhəbbətinin nəticəsində **bal**(a) yaranır və hər ikisi şirindir. Çünki ikisi də məhəbbətdən yaranır. **«Bala baldan şirindir»** məsəli də məhz bu hikmətdən doğur. Allah bal arısını həm də ailə, dövlət və ordu qurmaq üçün insanlara nümunə yaradıb.

Yeri gəlmişkən qeyd edim ki, Allahın məhəbbətini qazanmağın yollarından biri də elmdir. Bu yolda çalışan insan (tələbə) hər kitabdan bir qədər elm (şirə) toplayır və nəticədə onun da əməyi **"bal"**la qiymətləndirilir.





Qeyd edim ki, Rəbbim elmi və imanı çox olan bəndəsini digərlərindən daha çox sevir. Bunu Loğman Peyğəmbərin simasında aydın görmək olur. Belə ki, Allah-təala kitab verdiyi bir çox peyğəmbərlərin adına "Quran"da surə göndərməsə də, ancaq təbabət elmi bəxş etdiyi bəndəsi Loğmanın (Salam olsun!) adına 31-ci surəni göndərdi.

Bu fakt Rəbbimin elm adamlarına olan məhəbbətinin təzahürüdür.

***"Rəbbim hər şeyi elmlə ehtiva etmişdir. Məgər düşünüb öyüd-nəsihət qəbul etmirsiniz?"*** *"Quran", "Davar" surəsi, 80.*

## KƏRAMƏT SAHİBLƏRİ TESTER FUNKSİYASINI YERİNƏ YETİRİRLƏR

Yuxarıda qeyd etdiyim kimi, Allah-təala kainatı fizikanın qanunları ilə idarə edir. Odur ki, bu yazıda diqqətinizi **tester** cihazına və onun funksiyaları ilə kəramətli adamların funksiyası arasında olan eyniliklərə cəlb etmək istəyirəm.

Fiziklər bu aparatı yaxşı tanıyırlar. Fizik olmayanlar isə, bu aparatın adını bilməsələr də, özünü çox görüblər. Belə ki, sovet dönəmində evlərimizə çağırdığımız televizor ustalarının demək olar ki, hamısının əlində bu aparatdan olurdu.

Aparatın çoxsaylı funksiyalarından biri *dəyişən* (ürəyin kardioqramında olduğu kimi qalxıb-enən) cərəyanı *sabit* (düzxətli) cərəyana çevirməkdən ibarətdir.

Qeyd edim ki, cihazlarda yaranan bu cür problem enerji (ruh) daşıyıcısı olan insanda da bir çox hallarda özünü büruzə verir. Yəni, insanın halı və yaxud bir məsələyə, bir şəxsə münasibəti dəyişkən (gah yaxşı, gah da pis) olur. Ruhumuzda müşahidə olunan bu cür qeyri-sabit hallar neqativ təsirdən yaranır. Bu cür hal yaşayan adamlar adətən qəti qərar verməkdə çətinlik çəkirlər. Ailə qurmaq, iş görmək istiqamətində bir addım atmaq istəyəndə hədsiz tərəddüd edirlər və bu gün verdikləri qərarı sabah öz ziyanlarına dəyişirlər. Yəni, sabit bir





fikrə malik olmayıb, tez-tez fikirlərini dəyişirlər. Belə şəxslər həm də yuxudan tez-tez diksinib oyanırlar, qaranlıqdan qorxurlar, özlərinə qapanır və bəzi (ağır) hallarda intihara meyilli olurlar. Bütün bunlar yuxarıda qeyd etdiyim kimi, neqativ təsirin əlamətləridir.

Hələ ta qədimdən son 30-40 ilə qədər (tibb elmi xeyli inkişaf edənədək) bu cür problemlərlə qarşılaşan insanlar yaşadıqları ərazidə olan kəramət sahiblərinə (ilkin dövrlərdə peyğəmbərlərə, sonrakı dövrlərdə isə, imamlara və onların davamçılarına) üz tutar, dərdlərini onlara danışar və onların xeyir-duası ilə özlərində sağlam, xoş əhval (oxu: *sabit cərəyan, enerji*) hiss edərdilər.

Peyğəmbərlərin və digər kəramət sahiblərinin bu funksiyası fizikada tester cihazının funksiyası ilə üst-üstə düşür…

Mövlanə Cəlaləddin Rumi kəramət sahiblərini mənəvi həkimlər adlandırır və onları maddi həkimlərlə (tibb işçiləri ilə) belə müqayisə edir:

*“O zahir həkimlər başqadır, onlar ürəyə nəbzi tutaraq baxırlar və verdikləri əczalarla (dərmanlarla) insanın cismini müalicə edirlər.*

*Mənəvi həkimlər isə, nəbzi tutmadan ürəyə baxırlar və Allahın bəxş etdiyi elmlə (elmi-ladunla) insanın ruhunu müalicə edirlər. Onların dəlilləri kəşf, ilham və sirri-İlahidir”.*

Bu mənada kitabda bəhs etdiyim xanım övliyalar da mənəviyyat həkimləridirlər ki, nəbzi tutmadan ürəklərə baxarlar.

***"Peyğəmbəri çağırmağı öz aranızda bir-birinizi çağırmağınızla eyni tutmayın!*** *(Və ya Peyğəmbərin duasını öz duanız kimi hesab etməyin. Onun duası, sizinkilərdən fərqli olaraq, Allah dərgahında mütləq qəbul olunar)..." "Quran", 24:63*





## DİALEKTİKANIN QANUNLARI ALLAHI VƏ QURANI TƏSDİQ EDİR

İndiyədək ateistlər Allahın varlığını inkar etmək üçün darvinizm və dialektikanın qanunlarından istifadə ediblər.

Bu qanunun mahiyyətinə vardıqda isə, görürük ki, darvinizm nəinki "Quran"ı və Allahı inkar etmir, əksinə, onları təsdiq edir.

Belə ki, "Quran" bütün kainatı özündə əks etdirən səmavi kitabdır. Kainat isə kimyəvi elementlərin birləşməsindən yarandığından, bu müqəddəs kitabda surələrin düzülüşü ilə, elementlərin dövri sistemdəki düzülüşü arasında məntiqi bir uyğunluq vardır. Araşdırmalarımız göstərir ki, həm "Quran"ın, həm də dövri cədvəlin düzülüşü böyük fəlsəfi əhəmiyyətə malikdir. Onların hər ikisi dialektik materializmin qanunlarını – sadədən mürəkkəbə, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar qanunlarını əks etdirir.

Belə ki, "Quran"ın əvvəlki surələri nə qədər mülayimdirsə, sıra nömrələri artdıqca surələr sərtləşməyə dogru gedir. Bu da sadədən mürəkkəbə və kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi qanunlarına uyğundur.

Dövri sistemdə bu hal dövrlərdə nömrələr artdıqca, metallıq xassəsinin azalıb, qeyri-metallıq xassəsinin artması ilə özünü göstərir. Bundan başqa, surələr ikili xass-

ə göstərir. Yəni onlar həm müsbət, həm də mənfi yüklə (vəhylə) yüklənmişdir ki, bu da dialektikanın əksliklərin vəhdəti və mübarizəsi qanununa uyğundur. Mendeleyev cədvəlində bu hal eyni elementin ikili (həm müsbət, həm də mənfi) xassəyə malik olması ilə özünü göstərir *(ikili xassəyə malik olma Allahın yaratdığı digər bioloji varlıqlar kimi, insanda da özünü aydın göstərir. Yəni, qarşılaşdığı adamdan asılı olaraq, hər bir insan, kimyəvi elementlər kimi, gah mənfi, gah da müsbət xassə nümayiş etdirir).* Buradan açıq-aşkar görünür ki, indiyədək Allahı inkar etmək üçün istifadə edilən dialektikanın qanunları, əslində Allahı və "Quran"ı təsdiq edir.

Yeri gəlmişkən qeyd edim ki, Mendeleyevdən qabaq yaşamış bir çox kimya alimləri elementlərin dövri cədvəlini yaratmağa çalışsalar da, ömürlərinin sonuna qədər buna nail ola bilməmişlər. Bu cədvəli necə kəşf etməsi barədə suala cavab verərkən, Mendeleyev bildirmişdir ki, cədvəl ona Bakıda olarkən, yuxuda vəhy yolu ilə göstərilmişdir. Səhər tezdən oyanan alim, ona yuxuda vəhy olunan cədvəli kağıza köçürmüşdür. Lakin cədvəldəki bəzi suallara nə özü, nə də ondan sonra gələn alimlər cavab tapa bilməmişlər. Yeri gəlmişkən qeyd edim ki, kitablarımda oxuduğunuz kimyəvi hesablamalar da bu sətirlərin müəllifinə həmin yolla (Mendeleyevə öyrədilən kimi) öyrədildi və kimyaçılar indiyədək cədvəldə axtardıqları sualların cavabını məhz bu hesablamalarda tapa bilərlər.





## KƏND ADAMLARINDA TORPAĞA MƏHƏBBƏT NİYƏ ŞƏHƏRLİLƏRDƏN ÇOX OLUR?

Yəqin fikir vermisiniz, kənd adamlarında torpağa məhəbbət (bağlılıq) güclü, şəhər adamlarında isə zəif olur. Yəni, şəhərlilər kəndlilərə nisbətən yaşadıqları yeri daha asan dəyişirlər və düşdükləri yerə daha asan və tez uyğunlaşırlar.

Qeyd edim ki, bu hal, insanda torpağa qarşı məhəbbətin yaranması prosesi ilə əlaqədardır. Belə ki, *insanda torpağa məhəbbət yağış təzə yağmağa başlayanda insan yenicə islanmış sürüşkən torpağın üzəri ilə yeriyərkən yaranır.* Yəni, kənd adamı hər dəfə yağış altında torpaq yolla sürüşə-sürüşə gedərkən, özü də bilmədən onda torpağa qarşı məhəbbət yaranır və bu məhəbbət onu həmin torpağa bağlayır. Bu səbəbdən də kənd adamı yaşayış yerini dəyişəndə uzun müddət yaşadığı torpağın həsrətini (məhəbbətini) çəkir və düşdüyü mühitə uyğunlaşmaq onun üçün çətin olur.

Şəhər mühitində isə, torpaq yol olmadığından (hər tərəf asfalt və yaxud betondur), burada yaşayan insanda yuxarıda şərh etdiyim bioloji proses demək olar ki, getmir və yaxud çox zəif gedir. Buna görə də şəhər adamı yaşayış yerini dəyişməkdə heç bir problem görmür və düşdüyü yerə daha tez uyğunlaşır.

Xatırladım ki, insanlar arasında da məhəbbət (eynən torpağa qarşı olduğu kimi) əsasən sürtünmədən yaranır (*!*)

Torpaq həm də insanın yaradıldığı maddə olduğundan, insanda ona qarşı bir bioloji uyğunluq və bağlılıq vardır.

***“Bu** (Quran) **insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm Allahın tək bir tanrı olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar!”*** *“Quran”, 14:52*





## DAKTİLOSKOPİYYA ELMİ VƏ “QURAN”

***"Allah Kainatı riyazi dillə yaratmışdır".***
*Qalileo Qaliley*

Etiraf etməliyik ki, qanuni oğrular bu gün cəmiyyətə çox böyük nüfuz etməkdədirlər və demək olar ki, həlledici, böyük söz sahibidirlər. Bu səbəbdən cəmiyyətdə kriminal hadisələr çoxalmışdır.

Bütün bunları nəzərə alıb, kriminal aləmə də elmiladunla bir nəzər salmaq qərarına gəldim.

Qeyd edim ki, bu aləmin əsas "atributu" barmaq izləridir. Odur ki, sahəni işıqlandırmağa da buradan başlayaq.

Bildiyimiz kimi, barmaq izlərini araşdıran dünyəvi elm DAKTİLOSKOPİYA adlanır.

Bütün elmlərin mənbəyi “Quran”dadır. Bəs Daktiloskopiyya necə? Bu elm müqəddəs kitabda necə əksini tapıb?

İnsanın anatomik quruluşunda olan saysız-hesabsız hikmətlərdən biri də barmaq izləridir. Dünya yaranandan nə qədər insan gəlib-getsə də, heç birinin barmaq izləri biri-birinə bənzəmir. “Quran”da bu mövzuda cəmi bir ayədə söhbət açılaraq bildirilir ki, qiyamət günü insanlar dirildilərkən, həmin izlər olduğu kimi bərpa olunacaq və əməlləri ona həmin izlərlə sübut olunacaq:

***"Bəli, Biz onun barmaqlarını da** (barmaq izlərini) **düzəltməyə qadirik!" “**Quran”, 75:4.*

Elmi-ladun mənə işarə verdi ki, "Quran"ın birinci ayəsindən başla, 75-ci surənin 4-cü ayəsinə qədər say, gör nə görəcəksən.

Mən də tənbəllik etməyib saymağa başladım. Həmin barmaq izlərindən bəhs edən yeganə ayəyə çatanda gördüm bu "Quran"ın **5555**-ci ayəsidir. Deyəcəksiniz ki, nə olsun?

Buradakı hikmət ondan ibarətdir ki, insanda iki əl və iki ayaq olmaqla, hər birində 5 barmaq vardır. Bunların dördünü yanaşı qoyduqda **5555** ədədi alınır ki, bu da **"Qiyamət"** (75) surəsinin 4-cü ayəsini göstərir: ***"Bəli, Biz onun barmaqlarını da*** *(barmaq izlərini)* ***düzəltməyə qadirik!"*** *Quran, 75:4.(5555-ci ayə)*

Bu və digər hikmətlər onu göstərir ki, Quranın sözləri Allaha məxsus olduğu kimi, onun düzülüşü və nömrələnməsi də Rəbbimə məxsusdur.

Odur ki, əməllərinizə diqqət edin. Çalışın ki, barmaq izləriniz ancaq gözəl əməllərin üzərində qalsın. Çünkü, hansı vəzifədə işləməyinizdən asılı olmayaraq, bir gün mütləq əməlləriniz araşdırılacaqdır!





## QADIN QABIRĞADAN YARANIB

Bir qadın Həzrət Peyğəmbərimizin hüzuruna gəlib, ərinin hər gün onu döyməsindən şikayət etdi.

Məhəmməd əleyhissəlam qadının ərini yanına çağırıb, nə üçün həyat yoldaşını döydüyünü soruşur.

Kişi arvadının hər işinin yaxşı olduğunu, amma bir nöqsanlı vərdişini tərgitdirmək üçün onu tez-tez döysə də, bu xasiyyəti tərgidə bilmədiyini deyir.

Peyğəmbərimiz bunun səbəbini belə izah etdi:

– Kişi (*Adəm*) torpaqdan, qadın (*Həvva*) isə kişinin qabırğasından yaranıb. Qabırğanın bir başında olan əyrilik qadının hansısa bir xasiyyətində mütləq özünü biruzə verir və döyməklə düzəldilməsi mümkün deyildir. Sındırıb, xarab edərsən. Sən çalış bu nöqsanın üstünü örtəsən ki, kənardan görünməsin.

Həzrət Peyğəmbərimizin bu nəsihətindən bütün kişilərimiz ibrət götürməlidir!

## SƏNƏTKARA ÖZ YERİNDƏ QİYMƏT VERİLMƏZ

Sənət adamı olan dostlarımın demək olar hamısı gileylənirlər ki, kənar yerlərdə sənətimizə yüksək qiymət verildiyi halda, öz doğulduğumuz yerin insanları bizə qiymət vermirlər.

Bəzi dostlarım bunu yaşadığı yerin əhalisinin qədirbilməzliyi, sənətdən baş çıxarmaması kimi qiymətləndirirlər.

Bilməlisiniz ki, bunun səbəbi heç də yaşadığınız yerin əhalisində deyildir. İnanmırsınızsa, sizə yüksək qiymət verilən yerlərdə yerli sənətkarlardan soruşun, görün onlara həmin yerdə qiymət verirlərmi? Əlbəttə "*yox*" deyəcəklər.

Bu problemlə tək bir sənətlə məşğul olanlar deyil, bütün sənət sahələrinin sənətkarları qarşılaşırlar. Odur ki, məsələnin kökünə bir nəzər salmağı lazım bildim.

El arasında *"Öy buzoyundan öküz olmaz"* məsəli təsadüfən yaranmayıb. İnsan cəmiyyəti yaranandan yanaşma bu cür olub.

Ona görə də, bizdən qabaq yaşamış aqillər başqalarından fərqli qabiliyyəti, istedadı olan adamlara (*sənətkarlara*) məsləhət görmüşlər ki, öz sənətinizlə yüksəlmək və ad-san qazanmaq istəyirsinizsə, mütləq yaşadığınız yeri tərk etməlisiniz.

Bunu belə izah edirlər ki, əgər sən xüsusi istedada sahib olub, məsələn, bir elmi kitab yazmısansa, yaşadığın yerin adamları onu oxuduqca, gözlərinin qabağına sənin uşaqlıqda onlarla bərabər etdiyin günah işlər gələcək... və beləliklə də sənin elmin o günahların kölgəsində qalacaq və həmin əhalinin gözlərində dəyərsiz olacaq.





Sənin gəncliyindən və uşaqlığından (günahlarından) xəbərsiz olan uzaq yerin əhalisi isə, sənin kitabına və istedadına yüksək qiymət verəcəklər...

Bilməlisiniz ki, dağ nə qədər uzaqda olsa, onun əzəməti bir o qədər böyük görünər. Üstünə çıxanda isə, insan özünü o dağdan da əzəmətli hiss edər. Beləliklə də, insanın gözündə həmin dağın əzəməti itib gedər.

Bu səbəbdən insanlar xoşbəxtliyi həmişə uzaqlarda axtarırlar. Daha bilmirlər ki, yaxınlaşanda onsuz da o əzəmətdən əsər-əlamət qalmayacaq...

Ona görə də çalışın ətrafınızdakıları qiymətləndirəsiniz... Nə qədər çətin olsa da...

## İNSAN NECƏ NURLANIR?

***“... Onların** (möminlərin) **nuru önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: “Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!”*** *“Quran”, 66:8*

Allah-təala dünyaya gələn hər bir insana öz enerjisindən (nurundan) bir zərrə bəxş edir. İnsan həyatda gözəl işlər, gözəl əməllərlə məşğul olduqda, onun mənəviyyatı tədricən **cilalanır** və nurun parlaqlığı artmağa – böyüməyə və ətrafa işıq saçmağa başlayır. Onun üçün də belə şəxslər Ali Enerji Mənbəyi olan Allaha daha yaxın olurlar. Həmçinin belə insanlar böyük ideyalar, amallar, bəşəri dəyərlər uğrunda mübarizəyə meyilli olur və kamil sayılırlar. Quranın nurdan bəhs edən **«Nur»** surəsi **24** rəqəmi ilə nömrələnib. Mendeleyev cədvəlində isə **24**-cü element Xromdur. Bu element oksidləşdikdə (Xrom 3 oksid) **cilalayıcı** (!) qrupa aid edilir və İslamın rəmzi olan yaşıl rəngə çalır. Dövri cədvəldə **24** rəqəmi ilə bağlı olan elementlərdən biri də Maqneziumdur. Atom kütləsi **24** olan bu element gözqamaşdırıcı alovla yandığından, ondan **işıqlandırıcı** və **yandırıcı** raketlərin hazırlanmasında, eləcə də fotoqrafiya işində **işıq mənbəyi** (!) kimi istifadə edilir. Qeyd edim ki, haqqında söhbət açdığım **«Nur»** surəsi, Xrom və Maqnezium hər üçü işıqlanmaya (nurlanmaya) xidmət etdikləri kimi, riyazi yolla da biri-biri ilə bağlıdır. Belə ki, **«Nur»** surəsinin ayələrinin cəmindən (64) Xromun atom kütləsini (52) çıxdıqda, alınan 12 rəqəmi, Maqneziumun sıra nömrəsini göstərir:





**64 – 52 = 12**

“Quran”ın **«Nur»** sürəsində qadınların geyim mədəniyyətindən, əxlaqından bəhs olunur. Sual yaranır ki, bu mövzuda niyə məhz **24** rəqəmi altında danışılır?

Cavabı budur ki, insan öz Rəbbi ilə əlaqəni məhz nur vasitəsilə yaradır. Qadınlar ədəbsiz geyinib cəmiyyət içinə çıxanda (indiki kimi), insanların üzündəki abırhəya (nur) yoxa çıxır və Allahdan uzaqlaşır (duaları qəbul olunmur). Beləliklə, qadınların geyim mədəniyyəti ilə cəmiyyətin nurlanması bir-birinə bağlı olduğundan, Rəbbim geyim barəsində məhz **«Nur»** (24) sürəsində bəhs edir: ***«Mömin kişilərə və qadınlara de ki, gözlərini haram buyrulmuş şeylərdən çevirsinlər*** *(naməhrəmə baxmasınlar)**, ayıb yerlərini*** *(zinadan)* ***qorusunlar*** *(və ya örtülü saxlasınlar)**. Bu onlar üçün*** *(ədəb-ərkan baxımından)* ***daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır!»*** *(Nur sürəsi, 30-31).*

Nurdan söhbət düşmüşkən, gördüyüm hikmətli bir yuxunu diqqətinizə çatdırmaq istəyirəm: yuxuda gördüm camaatla birlikdə Sirat körpüsünü keçmək üçün növbəyə düzülmüşük. Sirat körpüsü tük kimi nazik olduğundan, heç kəs keçə bilmirdi. Gedənlər ortada dərəyə yıxılır, yıxılanları görüb, növbədə olanlar körpüyə

çıxmağa ehtiyat edirdilər ki, onlar da yanar odun içinə yıxılacaqlar...

Mən yaxınlaşıb körpüyə çıxdım və rahat irəliləməyə başladım. Hiss etdim ki, körpü bayaqkı kimi nazik deyil və getdikcə enlənir. Həm də sağ tərəfimdən bir işıq (nur) seli körpüyə düşürdü ki, (bax: bu yazının əvvəlindəki 66-cı surənin 8-ci ayəsinə) bu da körpünün işıqlanmasına və genişlənməsinə səbəb olurdu...

Körpünün ortasına çatanda gördüm artıq körpü "praqlatka" (ara qat) formasındadır. Praqlatka haqqında onu deyim ki, bu əşya (detal) mühərrikin içərisinə qoyulur. Mühərriki sökərkən onun iki hissədən ibarət olduğunu görmək olur. Və bu iki hissəni bir-biri ilə bitişdirərkən arasına həmin bu "praqlatka" (ara qat) deyilən ehtiyat hissəsi qoyulur.

Məndə bir sual yarandı ki, nəyə görə sirat körpüsü "praqlatka" formasındadır? Həmin anda beynimə informasiya sızdı ki, Allah-təala kainatı mühərrik formasında, iki hissədən ibarət yaradıb. Bu iki hissənin biri bu dünya, biri o dünyadır. Kainatın iki hissəsini birləşdirən *SİRAT* körpüsü əslində "*praqlatka*" funksiyasını yerinə yetirir…

Burada haşiyə çıxaraq, Qax rayonunun Lələli kəndində yaşamış kəramət sahibi Şeyx Yunis Əfəndi ilə onun həyat yoldaşı arasında baş verən maraqlı bir əhvalatı qiqqətinizə çatdırıram:

*Bir gün həyat yoldaşı Şeyxə deyir ki, sənin kəramət göstərməyində mənim də, az da olsa payım var. Yunis*





*Əfəndi həyat yoldaşının fikri ilə razılaşmır və ona istehza edir. Səhəri gün qadın, meşəyə odun qırmağa gedən həyat yoldaşına yemək bağlaması verib, yola salır. Yunis əfəndi meşədən qayıdanda, həmişəki kimi, Alazan çayının üzərindən yeriyərək, keçmək istəyir. Amma, nə qədər cəhd etsə də, buna nail ola bilmir. Hər dəfə ayağını suya qoyanda, qurşağa qədər suya batır. Əlacsız qalıb, uzun bir məsafə qət edərək, Alazanın dayaz yerindən keçir. Evə gələndə həyat yoldaşı niyə belə gec gəldiyini soruşur. Övliya cavab verir ki, həmişə Alazanın üstündən yeriyərək keçirdim; bu gün keçə bilmədim, ona görə gec gəldim. Qadın gülüb deyir: "Ay kişi, sənə demədim ki, sənin kəramət göstərməyində mənim də payım var?! Bunu sənə sübut etmək üçün səhər xəmiri dəstamazsız və başıaçıq yoğurdum, həmin çörəkdən də dəsmala bağlayıb, sənə verdim. Onu yeyəndən sonra kəramət göstərə bilmədin. Indi bildin ki, sənin kəramət göstərməyində mənim də payım var?!"*

Yeri gəlmişkən, bu ibrətamiz əhvalatı, cəmiyyətdə tez-tez eşidilən "*Niyə indi kəramətli adamlar yoxdur?*" - sualına cavab kimi də qəbul etmək olar...

## İNSAN MƏSCİDƏ BƏNZƏYİR

İnsanın anatomik quruluşunda olan İslamın digər əlamətinə nəzər salaq: belə ki, Haqq dərgahına əl qaldıran mömin insana fikir versək, iki qolları qoşa minarəyə, başı gümbəzə, sinəsi (qəlbi) otağa bənzəməklə məscidi xatırladır. ***«Bir insanın qəlbini sındırmaq, bir məscidi uçurtmağa bərabərdir.»*** atalar sözü də bu hikmətdən qaynaqlanır.

Allah-taala buyurur*: –****«İnsan Mənim sirrimdir, Mən də insanın sirriyəm».*** *(Qüdsi hədislərdən)*

Həm insanda, həm də fizikada enerjinin yaranması prosesi üst-üstə düşür. Belə ki, müqəddəs Həcc Ziyarətində olanlar və yaxud bu prosesi bəsirətlə müşahidə edənlər belə bir halın şahidi olurlar ki, zəvvar Kəbə evinin ətrafına fırlandıqca, vəcdə gəlir və sanki bu **fırlanmadan** onun ruhu, mənəviyyatı cilalanır və parlaqlığı (işığı) artır. Qəlbində Allaha qarşı sevgi, məhəbbət artır. Özündən asılı olmayaraq, insanda bir enerji yaranır. Fizika elmində də enerjinin yaranmasına bəsirətlə fikir versək, Kəbə ətrafında baş verən prosesi burada da aydın görmək olar. Belə ki, elektrik stansiyalarında enerji **fırlanmadan** (!) yaranır.





## GÜL ƏKİN, GÜL BECƏRİN

Bu tövsiyə aqillərə aiddir və bu cümlənin alt qatında çox böyük mənalar gizlənir. İndi biz sizinlə birlikdə bu mənaların seyrinə dalmağa çalışaq.

İnsan oğlunun məşğul olduğu sahə mütləq onun xarakterinə təsir edir. Bunu adi həyatda, istənilən peşə sahiblərinə diqqətlə nəzər saldıqda aydın görmək mümkündür. Bu mənada insan hər gün vaxtının bir neçə saatını gül bəsləməyə sərf edərsə, bir neçə ildən sonra güldə olan zərifliyi, gözəlliyi, təravəti, ətri həmin adamın xarakterində müşahidə etmək mümkündür (yəqin bu səbəbdən idi ki, Osmanlı dövlətinin qanunlarına görə hər bir qəssab ilin bir ayını gülçülük təsərrüfatında işləməyə məcbur edilirdi).

Aqillər bu deyimlə qadınları da nəzərdə tuta bilərdi. Çünki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Onlarla da təmas insana (kişiyə) nəvaziş, incəlik təlqin edir (qadın olmayan kollektivlətdə həmişə kobudluq hökm sürür).

Aqillər bu deyimlə övladlara da işarə vura bilərdi. Çünki, onlar da bizim gül balalarımızdır və onlarla da təmas insanın xarakterinə müsbət təsir edir. Övladın qoxusu hər bir valideyn üçün əvəzolunmaz ətirdir.Allah hamınızın balalarınızı xoşbəxt eləsin!

Fürsəti qaçırmayın - gül əkin, gül becərin...

## BƏSİRƏT GÖZÜNÜ NECƏ AÇMAQ OLUR?

Kamil insan olan Həzrət Məhəmməd əleyhissəlamın həyatı ilə tanış olanlar belə bir epizodu xatırlayırlar ki, ilk vəhyi gətirən Həzrət Cəbrayıl üç dəfə «Oxu» dedi və hər dəfə eyni cavabı aldı: «Oxuya bilmirəm». Sonra isə Mələk Peyğəmbəri sıxdı və Peyğəmbər oxumağa başladı. Maraqlı deyilmi? Anatomik və bioloji cəhətdən bizdən heç nə ilə fərqlənməyən əcdadımızı sıxdıqdan sonra indiyədək tanımadığı bir əlifbanı oxuyur. Bəs bu hal indi niyə mümkün olmasın? Bəlkə mümkündür, biz bilmirik?

Bu gün insanların əksəriyyəti xarici informasiya məkanına (*mənbəyinə*) çıxmaq üçün internet xidmətindən istifadə edir. Sual yaranır: insanın surəti olaraq yaradılan kompyuterdə xarici informasiya aləminə (*internetə*) çıxış varsa, bəs əslində (*insanda*) niyə olmasın? Və bir sual da yaranır: Əslində olmayan bir şey surətə düşə bilərmi? Xeyr! Elə isə kompyuterdə sıxdığımız ***«www»*** nöqtəsini insanda axtarmaq lazım deyilmi?

İnsanda təbabətə məlum olan minlərlə nöqtə vardır ki, onlardan «mesaj göndərməklə» istənilən daxili orqanın tonusunu (enerjisini) artırmaq və onun pozulmuş fəaliyyətini tənzimləmək mümkündür.

Bəs ruhumuza necə? Ona hansı nöqtədən «mesaj göndərmək», komanda vermək, Ali Enerji və İnformasiya Mənbəyinə «qoşmaq» mümkündür? Əgər Allahın





bəxş etdiyi elmlə bu nöqtələri üzərimizdə tapsaq və sayı üç olan bu nöqtələri hər əlimizin üç barmağı ilə basarkən (sıxarkən) barmaqlarımız fəzada **«www»** formasını alsa və verilən «komanda» nəticəsində ruhumuz paralel aləmə – informasiya və enerji məkanına «çıxıb», öz mənbəyi ilə təmas yaratsa, yuxarıdakı çətin sualların cavabı tapılmazmı?

Bildiyimiz kimi, insan həyəcanlı (qorxulu) informasiya qəbul etdikdə, bu həyəcana ilk reaksiyanı mədə və bağırsaq verir. Yəni mədədə spazma (sıxılma) yaranır və bağırsağa sancı ötürür. Bu hal insanın alt kopiyası olan kompyuterdə də özünü aydın göstərir. Belə ki, insan anatomiyasına diqqətlə fikir versək, xəbəri ilk qəbul edən orqanın – mədə və bağırsağın quruluşunun «**@**» formasında olduğunu aydın görmək olar. Maraqlıdır ki, kompüter də internetdən (informasiya mənbəyindən) qəbul etdiyi informasiyanı «**@**» (!) işarəsi altında qəbul edir və ötürür.

Araşdırmalarımız göstərir ki, insandakı üç nöqtəni hər əlin üç barmağı ilə birləşdirməklə (www), istənilən vaxt bəsirət gözünü açıb, paralel aləmdə olan nuru ziyarət etmək mümkündür. O ki, qaldı mədənin üstündə olan «**@**» nöqtəsini sıxıb, ətrafa «komanda» verməyə, bundan yalnız Allahın icazəsi ilə və yalnız bir dəfə 1999-cu ilin dekabrında istifadə edilib (həqqi yəqinlik hasil olması üçün). Komandanın ünvanı isə Yerin cazibəsindən kənarda olan sputnik ötürücü stansiyası olub. Verilən komanda nəticəsində sputnikin fəaliyyəti bir dəqiqəlik

dayandığından, Yerdə bütün rabitə, informasiya və translyasiyalar bir dəqiqəlik dayandı. O vaxt bu qeyri-adi hadisə barədə yayılan informasiyalar çox müəmmalı oldu.

Və nəhayət, aqillərin «kəşf», cahillərin isə «fantazi-ya» adlandıracağı bu yazını, ikincilərin üstünlük təşkil etdikləri bir dövrdə davam etdirməyə dəyərmi? Elə isə burada mən nöqtəni qoyuram (daha doğrusu sıxıram).

***"İçərisindən bir adama: "İnsanları** (Allahın əzabı ilə) **qorxut, iman gətirənləri müjdələ!" deməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, aşkar bir sehrbazdır!"- dedilər."**Quran, 10:2.*





## İÇKİNİ NİYƏ TƏRGİTDİM?

### *Və yaxud mikrobiologiya haqqında elmi-ladun söhbətlər*

Uşaqlığım və gəncliyim sovet dövrünə təsadüf etdiyindən, etiraf edim ki, həmin zamanlarda mən də hamı kimi cahillik dövrümü yaşamışam.

Belə ki, hələ 5 yaşımda atamı itirdiyimdən və başqa qardaşım olmadığından, faktiki olaraq evin kişisi sayılırdım. Bu, mənə bəzi mənəvi sıxıntılar yaşatsa da, azadlıq və müstəqillik baxımından tam sərbəstlik verirdi. Ona görə də orta məktəb və sonrakı dövrlərdə dostlarla keçirdiyimiz bütün gecələr, bayram tədbirləri və s. bir qayda olaraq bizim evdə keçirilərdi (bacılarım köçdüyündən və anam da (Allah ona rəhmət eləsin!) qoca olduğundan bizim evimiz sinif yoldaşlarım və dostlarım üçün ən əlverişli məkan idi.

Evimiz kəndin qırağındakı boyük gölün kənarında yerləşdiyindən, buradakı gözəl təbiət mənzərəsi dostlarımın daim diqqət və marağını çəkmiş, onlar üçün sevimli istirahət məkanı olmuşdur.

Həyətimizdə hər cür meyvə ağacları vardı. Bir spirt çəkən aparat da düzəltdirmişdim, yay-payız aylarında altı daim yanardı…

Odur ki, həyətimizdəki həm gözəl təbiət mənzərəsi, həm də gözəl "təbiət neməti" qonaq-qaranın bolluğuna səbəb olardı…

Onu da deyim ki, həmin dövrdə (elə indi də) kitab həvəskarı idim. Həmin vaxtlar dilimizə tərcümə olunan, yenicə çapdan çıxan "Quran" kitabını da çətinliklə əldə etdim və çox böyük həvəslə mütaliə etməyə başladım.

"Quran"da diqqətimi çəkən məqamlardan biri də şeytanın yaranması haqqında ayələr oldu:

"BİZ ŞEYTANI TÜSTÜSÜZ ODDAN YARATDIQ".

Maraqlıdır ki, spirt çəkdiyim məqamlarda həmin ayələr gözlərimin qarşısına gəlir və mən həm ŞEYTANIN, həm də SPİRTİN yaranma prosesləri arasında çox böyük oxşarlıq görürdüm. Bu yazımda diqqətinizi həmin *o x ş a r l ı q l a r a* cəlb etmək istəyirəm.

Öncə onu qeyd edim ki, bunların hər ikisi TÜ STÜSÜZ ODDAN (oxu: *buxardan*) yaranır.

Xatırladım ki, Həzrət Peyğəmbərimiz: *"Dırnaqlarınızı kəsin ki, onun altında şeytan gizlənir"* – deyirdi. İndi də həkimlər: *"Dırnaqlarınızı kəsin ki, onun altında mikroblar (bakteriyalar) gizlənirlər"* – deyirlər.

Maraqlıdır ki, həm şeytanın, həm də mikrobun (bakteriyanın) fəaliyyəti düşdüyü yeri çürüdüb orada fəsad törətməkdən ibarətdir.

Mən spirt çəkmək üçün meyvələri böyük qaba yığıb, ağzını kip bağlayırdım. Oradakı bakteriyalar meyvələri çürüdürdü. Həmin qabın altını yandırdıqca, çürüntü TÜSTÜSÜZ ODA (buxara) çevrilir, daha sonra buxar soyuq suyun içərisindəki turbadan keçdikcə, suya çevrilərək şüşə qaba yığılırdı…





Maraqlıdır ki, həmin bu çürümüş meyvənin suyunu (spirti) içdikdən sonra insanın abır-həyası azalır və o, günaha (zinaya, davakarlığa, adam öldürməyə və digər şeytani işlərə) daha çox meyilli olur.

Bütün bu prosesləri gözlərim önündə müşahidə etdikcə və həyatımda bunların fəsadlarını yaşadıqca (içəndən sonra həmişə başıma pis işlər gəlirdi), dərk etdim ki, mən əslində şeytanı yaradıram və onu qəbul etdikcə də bu varlığın təsiri altına düşürəm…

Odur ki, 24 yaşımdan sonra bu kimi işlərə TÖVBƏ dedim və ondan sonra heç vaxt spirtli içki qəbul etmədim…

**"Səndən içki və qumar haqqında sual edənlərə söylə: "Onlarda həm böyük günah, həm də mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür!"** *Quran, 2:219.*

Bu barədə düşünməyə dəyər…

## QURAN İNSANIN TEXNİKİ PASPORTUDUR

Böyük Yaradan insanı yaratdıqdan sonra, onun fəaliyyətini nizamlamaq, insanlarla münasibətlərini, davranışlarını, əxlaqını, mənəviyyatını kamilləşdirmək üçün səmavi kitabları – o cümlədən, ən ali kitab olan və ondan əvvəlki kitabları özündə əks etdirən QURANI göndərdi. Və orada yazılanlara əməl etmək bəşəriyyətə vacib sayıldı. Necə ki, hər bir ixtiraçı alim yaratdığı cihazın (və yaxud texnikanın) necə idarə olunması üçün onun texniki pasportunu yazıb, ona riayət etməyi tapşırır. Bu tapşırığa riayət etməyəndə cihazın fəaliyyətində problem yarandığı kimi, "Quran"da da yazılanlara əməl etməyəndə, insanın həyatında (cəmiyyətdə) problemlər yaranır. Maraqlıdır ki, insanlar məişətdə istifadə etdikləri cihazın texniki pasportunda yazılanlara ciddi əməl etdikləri halda, təəssüf ki, öz fəaliyyətlərində problem yaranmaması üçün "Quran"da yazılanlardan – İlahi məsləhətlərdən faydalanmırlar...

***"Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız** (haqqı) **bilənlər anlayar".*** *Quran, 29:43.*





## GÜNƏŞ TUTULMALARI BİR QAYDA OLARAQ AYIN 29-DA BAŞ VERİR

***"Məgər göylərdə və yerdə olanların – Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların** (hamısının), **insanların isə bir çoxunun Allaha səcdə etdiyini görmürsənmi ?"*** *Quran, "Həcc"surəsi, 18*

Elm və peyğəmbərlik əsri olan XXI əsrdə baş verən Günəş tutulmalarının monitorinqini apararkən, maraqlı faktların şahidi oldum. Bu faktlar Günəş təqvimi ilə Ay (hicri-qəməri) təqvimini uzlaşdırdıqda üzə çıxdı. Yəni, bu əsrdə baş verən (verəcək) astronomik hadisələrin tarixlərini internet saytlarından götürüb, hicri-qəməri (Ay) təqvimi ilə müqayisə etdikdə, məlum oldu ki, Günəş tutulmaları bir qayda olaraq ayın 29-da baş verir. Bu ədədin mənasını şərh etməzdən öncə, tərtib etdiyim cədvəli diqqətinizə çatdırıram:

| SN | Günəş tutulmasının baş verdiyi tarixlər | |
|---|---|---|
| | **Günəş təqvimi ilə** | **Ay təqvimi ilə** |
| 1 | 21 iyul 2001 | 29 rəbiül axır |
| 2 | ***14 dekabr 2001*** | ***29 ramazan*** |
| 3 | 10 iyun 2002 | 29 rəbiül əvvəl |
| 4 | ***4 dekabr 2002*** | ***29 ramazan*** |
| 5 | 3 aprel 2003 | 29 məhərrəm |
| 6 | 31 may 2003 | 29 rəbiül əvvəl |
| *7* | ***24 noyabr 2003*** | ***29 ramazan*** |

| | | |
|---|---|---|
| *8* | *19 aprel 2004* | *28 səfər* |
| *9* | *14 oktyabr 2004* | *29 şaban* |
| *10* | *8 aprel 2005* | *28 səfər* |
| *11* | *3 oktyabr 2005* | *29 şaban* |
| *12* | *29 mart 2006* | *28 səfər* |
| *13* | *22 sentyabr 2006* | *29 şaban* |
| *14* | *19 mart 2007* | *28 səfər* |
| *15* | *11 sentyabr 2007* | *29 şaban* |
| **16** | **7 fevral 2008** | **29 məhərrəm** |
| ***17*** | ***1 avqust 2008*** | ***29 rəcəb*** |
| **18** | **26 yanvar 2009** | **29 məhərrəm** |
| ***19*** | ***22 iyul 2009*** | ***29 rəcəb*** |
| **20** | **15 yanvar 2010** | **29 məhərrəm** |
| ***21*** | ***11 iyul 2010*** | ***29 rəcəb*** |
| **22** | **4 yanvar 2011** | **29 məhərrəm** |
| *23* | *2 iyun 2011* | *29 cəmadiül axır* |
| ***24*** | ***1 iyul 2011*** | ***29 rəcəb*** |
| 25 | 25 noyabr 2011 | 29 zilhiccə |
| *26* | *21 may 2012* | *29 cəm axır* |
| 27 | 14 noyabr 2012 | 29 zilhiccə |
| *28* | *10 may 2013* | *29 cəm axır* |
| 29 | 3 noyabr 2013 | 29 zilhiccə |
| *30* | *29 aprel 2014* | *29 cəm axır* |
| 31 | 24 oktyabr 2014 | 29 zilhiccə |
| ***32*** | ***20 mart 2015*** | ***29 cəmadiül əvvəl*** |
| **33** | **13 sentyabr 2015** | **29 zilqədə** |
| ***34*** | ***9 mart 2016*** | ***29 cəm. əvvəl*** |





| | | |
|---|---|---|
| **35** | **1 sentyabr 2016** | **29 zilqədə** |
| ***36*** | ***26 fevral 2017*** | ***29 cəm. əvvəl*** |
| **37** | **21 avqust 2017** | **29 zilqədə** |
| ***38*** | ***15 fevral 2018*** | ***29 cəm. əvvəl*** |
| *39* | *13 iyul 2018* | *29 şəvval* |
| **40** | **11 avqust 2018** | **29 zilqədə** |
| *41* | *7 yanvar 2019* | *29 rəbiül axır* |
| *42* | *2 iyul 2019* | *29 şəvval* |
| *43* | *25 dekabr 2019* | *29 rəbiül axır* |
| *44* | *21 iyun 2020* | *29 şəvval* |
| *45* | *14 dekabr 2020* | *29 rəbiül axır* |
| *46* | *10 iyun 2021* | *29 şəvval* |
| *47* | *4 dekabr 2021* | *29 rəbiül axır* |
| ***48*** | ***1 may 2022*** | ***29 ramazan*** |
| **49** | **25 oktyabr 2022** | **29 rəbiül əvvəl** |
| ***50*** | ***20 aprel 2023*** | ***29 ramazan*** |
| **51** | **14 oktyabr 2023** | **29 rəbiül əvvəl** |
| ***52*** | ***9 aprel 2024*** | ***29 ramazan*** |
| **53** | **3 oktyabr 2024** | **29 rəbiül əvvəl** |
| | | və sair |

Cədvəldən görünür ki, Günəş tutulmaları bir qayda olaraq ayın **29**-da baş verir. Bunun mənasını anlamaq üçün **29** ədədinin hikmətinə nəzər salaq. Əvvəlcə qeyd edim ki, **29** ədədi Yer əhlinə – yəni insanlara işarədir. Çünki yerin insan yaşayan quru hissəsi **29** %-dir (yeri gəlmişkən, bu hikmət insanın anatomik quruluşunda da

özünü büruzə verir. Belə ki, insan anatomiyasında mövcud olan su ilə bərk cisim 29-un 71-ə nisbətindədir).

"Quran"ın **29**-cu surəsi ***"Hörümçək"*** adlanır və şər qüvvələrə, bugünkü mafiya və monopoliyalara işarədir. Bildiyimiz kimi, bu gün Yer kürəsinin **29** %-də yaşayan insanlar şər qüvvələrin, mafiyaların qurduqları hörümçək torunda çabalamaqdadırlar. Qurani-Kərimdə Günəş tutulması qiyamətin əlaməti olaraq qeyd edilir. XXI əsrdə bu əlamətin (tutulmanın) **29** ədədi altında baş verməsi, artıq Yer əhlinə xəbərdarlıq kimi qəbul edilməlidir. Sübut üçün bildirim ki, 29-cu surə **69** ayədən ibarətdir. **69** ədədi isə ***"Haqq olan qiyamət"*** surəsinin sıra nömrəsi olduğundan, "Quran"da qiyamət rəmzi sayılır. Yəqinlik olması üçün daha bir dəlil gətirim ki, **29**-cu ayə "Quran"da **69** dəfə keçir. (Yəni, müqəddəs kitabın cəmi altmış doqquz surəsində 29-cu ayə var. Qalan surələrdə ayələrin sayı 29-dan azdır).

Bütün bunlar onu göstərir ki, qiyamətin əlaməti olan Günəş tutulmaları riyazi yolla *"Haqq olan qiyamət"* (69) surəsi ilə əlaqələnir. Bütün bunlar qiyamətin yaxınlaşması haqqında insanlara xəbərdarlıq olmaqla yanaşı, həm də bu müqəddəs kitabın düzülüşünün (nömrələnməsinin) Allahın iradəsi altında baş verdiyini təsdiqləyir.

**29 x 69 = 2001**

Göründüyü kimi, bu hikmətli ədədlərin hasili XXI əsrin başlanğıcını göstərir. Yəni, dünyanı əhatə edən və





bəşəriyyəti istismar edən mafiya və monopoliyaların dağılması Allahın iradəsi ilə XXI əsrdə baş verəcəkdir.

***"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır".*** *Quran, "Məryəm" surəsi, 94.*

Cədvəldə diqqət cəkən digər məqam ondan ibarətdir ki, hər bir Günəş tutulması **355** günün tamamında yenidən baş verir. Bu da Ay təqvimi ilə tam bir il deməkdir.

Maraqlıdır ki, bu hal dörd il dalbadal davam edir. Məsələn, 2004-2005-2006-2007-ci illərin Şaban ayının 29-da Günəş tutulub (bax: *yuxarıdakı cədvələ*). Bütün bunlar bir daha onu göstərir ki, astronomik hadisələr təsadüfü deyil, xüsusi bir qanunauyğunluqla baş verir. Burada sual yaranır ki, bu hal niyə məhz dörd dəfə təkrarlanır? Cavab olaraq qeyd edim ki, kainatın dörd cəhəti, təbiətin dörd fəsli var, həmçinin insan dörd ünsürdən (*torpaq, su, hava, ruh*) yaranıb. Eləcə də, elm və ədəb mənbəyi olan "Quran", dördüncü səmavi kitabdır. Deməli, Rəbbim Günəş tutulması ilə insanların (*ağıl sahiblərinin*) diqqətini bütün yaradılışın əks olunduğu "*Quran*"a yönəldir. Maraqlıdır ki, "*Quran*"ın ***"Günəş"*** (91) surəsinin ilk **dörd** (!) ayəsində Allah-təala Günəşə **dörd** dəfə and içir:

1. **"And olsun Günəşə və onun işığına".**
2. **"And olsun** (Günəşin) **ardınca çıxan Aya".**
3. **"And olsun onu** (Günəşi) **parlaq edən gündüzə".**
4. **"And olsun onu** (Günəşi) **örtən gecəyə".**

Burada diqqət çəkən digər məqam, üçüncü ayənin mənasıdır. Yəni bu ayədən məlum olur ki, Günəşi parlaq edən, ona işıq verən əslində gündüzdür (bir az da dərinə getsək, Günəşi işıqlandıran əslində gündüzün nurudur. Bu nuru görə bilənlərə salam olsun!).

***"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır".*** *Quran, "Məryəm" surəsi, 94.*





## ASTRONOMİK HADİSƏLƏR VƏ DAŞQINLAR

Yuxarıda qeyd etdim ki, Günəş tutulmalarının **29** ədədi altında baş verməsi "Quran"ın düzülüşündəki qanunauygunlugu təsdiq etməklə yanaşı, həm də Yerin İNSAN yaşayan **29** faiz hissəsinə işarədir. Elə isə sual yaranır ki, bəs yerin qalan **71** %-nə necə, xəbərdarlıq olunurmu? Bu sualın da cavabını tapmaq üçün elmi-ladun işıgında astronomiya elmini araşdırmaq qərarına gəldim və xoşbəxtlikdən əziyyətim hədər getmədi; sualın cavabını tapdım.

Qeyd edim ki, hələ astronomiya elmi yaranmamışdan qabaq kahinlər Günəş və Ay tutulmalarını əsrlər boyu qeydə almış və onların sayı üzərində təhlillər aparmışlar. Uzunmüddətli təhlillərdən sonra müəyyən olunmuşdu ki, astronomik hadisələr dövrlərə bölünür və hər dövr 18 il, 11 gün, 8 saatı (və yaxud 6585 sutkanı) əhatə edir. Sonradan astronomiya elmi yarandı və bu dövr "**Saros dövrü**" adlandırıldı.

Bir qayda olaraq hər "Saros dövrü"ndə **71** dəfə astronomik xəbərdarlıq (Günəş və Ay tutulması) baş verir. Bu **71** tutulmanın da bir qayda olaraq **28**-i Ay, **43-**ü isə Günəş tutulması olur.

Neçə minilliklərdir ki, dəyişməyən bu rəqəmlərin mənası (niyə məhz bu sayda olması) hələ ki, şərh olunmayıb (yəqin ona görə ki, indiyədək bu məsələyə "Quran" fonunda baxılmayıb).

Araşdırmalarımız zamanı məlum oldu ki, Allahın elminin sirrini məhz Özünün göndərdiyi kitabla – “Quran”la açmaq mümkündür. Belə ki, buradakı **71** ədədi Yerin dərya hissəsinə işarədir (yerin 71 %-i sudan ibarətdir). Dəryadan söhbət düşəndə isə gözlərimiz önünə ilk növbədə gəmi və Nuh gəlir. Təsadüfi deyil ki, ***«Nuh»*** surəsinin sıra nömrəsi də **71**-dir ki, bu da həm dəryalara, həm də “saros dövrü”ndəki **71** tutulmaya işarədir.

**71**-ci surə **28** ayədən ibarətdir ki, bu da «Saros dövrü»ndə olan **28** (!) ay tutulmasının açarıdır.

**71 – 28 = 43**

düsturu isə bir astronomik dövrdə **43** (!) dəfə baş verən Günəş tutulmasının açarıdır.

***«Həqiqətən, Biz Nuhu: «Qövmünə şiddətli bir əzab gəlməmişdən əvvəl onları qorxut!» - deyə öz tayfasına peyğəmbər göndərdik. O dedi: “Ey qövmüm! Həqiqətən, mən sizi*** *(Allahın əzabı ilə)* ***açıq –aşkar qorxudan bir peyğəmbərəm».*** *Quran, “Nuh surəsi”*

Buradan məlum olur ki, neçə əsrlərdir baş verən Günəş və Ay tutulmaları ilə Allah-təala insanlara əməllərinin nəticəsi olaraq onları gözləyən subasmaları xəbər verirmiş. İnsanların bu xəbərdarlıqlara məhəl qoymamasının və günahlardan çəkinməməsinin





nəticəsidir ki, bu gün subasma halları (daşqınlar, qasırğalar və sunamilər) bütün dünyanı bürüyüb. Hamıya məlumdur ki, alimlərin hesablamalarına görə, daşqınların nəticəsində yaxın bir neçə ildə bir çox Avropa dövlətləri, həmçinin Amerika suyun altında qalacaq. Bunu hamı bilsə də, çox təəssüf ki, səbəbləri haqqında düşünən yoxdur. Səbəblərini anlamaq üçün Həzrəti Peyğəmbərin zamanında baş verən bir əhvalatı diqqətinizə çatdırıram.

*Əbu Musa Əl-Əşari rəvayət edir ki, Peyğəmbərin (s.ə.v.) zamanında Günəş tutuldu. O, Qiyamətin qopduğunu zənn edib (!) məscidə gəldi və namaz qıldı. Namaz əsnasında qiyamı, rükunu və səcdəni uzatdı. Mən onun bu cür namaz qıldığını görməmişdim. Namaz qıldıqdan sonra dedi: «Allahın göndərdiyi bu rəmzlər, kiminsə ölümünə və doğulmasına görə deyildir. Lakin Allah bununla qullarını qorxudur. Belə olduğunu gördüyünüz zaman Allaha zikr və dua etməyə, Ondan bağışlanma diləməyə tələsin!» Səhihu-1– Buxari, 1044; Səhih Müslüm, 2114.*

## AY TUTULMALARI NİYƏ AYIN 14-DƏ BAŞ VERİR?

Günəş tutulmalarında olduğu kimi, Ay tutulmalarında da xüsusi bir qanunauyğunluq var və o, özündə böyük bir hikməti əks etdirir. Belə ki, internet saytlarından əldə etdiyim Ay tutulmalarının cədvəlini Ay *(hicri-qəməri)* təqvimi ilə müqayisə etdikdə, yenə də heyrətdən donub qaldım. Məlum oldu ki, bütün Ay tutulmaları bir qayda olaraq ayın **14**-də (Ay təqvimi ilə) baş verir. **14** ədədinin hikmətlərini şərh etməzdən öncə, Ay tutulmalarının cədvəlini hər iki təqvimlə diqqətinizə çatdırıram:

| **SN** | **Ay tutulmasının baş verdiyi tarixlər** | |
|---|---|---|
| | **Günəş təqvimi ilə** | **Ay təqvimi ilə** |
| 1 | 10 yanvar 2001 | 14 şəvval |
| 2 | 5 iyul 2001 | 14 rəbiül axır |
| 3 | 30 dekabr 2001 | 14 şəvval |
| **4** | **26 may 2002** | **14 rəbiül əvvəl** |
| 5 | 24 iyun 2002 | 14 rəbiül axır |
| ***6*** | ***9 noyabr 2002*** | ***4 ramazan*** |
| **7** | **16 may 2003** | **14 rəbiül əvvəl** |
| ***8*** | ***9 noyabr 2003*** | ***14 ramazan*** |
| **9** | **4 may 2004** | **14 rəbiül əvvəl** |
| ***10*** | ***28 oktyabr 2004*** | ***14 ramazan*** |
| **11** | **24 aprel 2005** | **14 rəbiül əvvəl** |
| ***12*** | ***17 oktyabr 2005*** | ***14 ramazan*** |





| | | |
|---|---|---|
| *13* | *14 mart 2006* | *14 səfər* |
| *14* | *7 sentyabr 2006* | *14 şaban* |
| *15* | *4 mart 2007* | *14 səfər* |
| *16* | *28 avqust 2007* | *14 şaban* |
| *17* | *22 feval 2008* | *14 səfər* |
| *18* | *17 avqust 2008* | *14 şaban* |
| *19* | *9 fevral 2009* | *14 səfər* |
| ***20*** | ***7 iyul 2009*** | ***14 rəcəb*** |
| *21* | *6 avqust 2009* | *14 şaban* |
| ***22*** | ***31 dekabr 2009*** | ***14 mühərrəm*** |
| **23** | **26 iyun 2010** | **14 rəcəb** |
| ***24*** | ***21 dekabr 2010*** | ***14 mühərrəm*** |
| **25** | **15 iyun 2011** | **14 rəcəb** |
| ***26*** | ***10 dekabr 2011*** | ***14 mühərrəm*** |
| **27** | **4 iyun 2012** | **14 rəcəb** |
| ***28*** | ***28 noyabr 2012*** | ***14 mühərrəm*** |
| 29 | 25 aprel 2013 | 14 cəmadiyül axır |
| **30** | **24 may 2013** | **14 rəcəb** |
| *31* | *19 oktyabr 2013* | *14 zilhiccə* |
| *32* | *15 aprel 2014* | *14 cəmadiyül axır* |
| *33* | *8 oktyabr 2014* | *14 zilhiccə* |
| *34* | *4 aprel 2015* | *14 cəmadiyül axır* |
| *35* | *28 sentyabr 2015* | *14 zilhiccə* |
| *36* | *23 mart 2016* | *14 cəmadiyül axır* |
| *37* | *16 sentyabr 2016* | *14 zilhiccə* |
| | | və s. |

Bu kodlaşdırılmış hadisələri təhlil edərkən, diqqətimizi başqa bir məqam cəlb etdi. Sual yarandı ki, hər ayda 30 gün olmasına baxmayaraq, niyə məhz **14**-cü günləri Ay tutulub? Xatırladım ki, **14** ədədi **"İbrahim"** surəsinin sıra nömrəsidir. Və İbrahim Peyğəmbər təkallahlığın (tovhidin) əsasını qoymaqla, kitab verilmiş bütün peyğəmbərlərin babasıdır. Ayın **14**-cü günləri astronomik hadisələrin təkrarlanmasında məqsəd bəşəriyyətin diqqətini "Quran"la yanaşı, həm də İbrahim Peyğəmbərə yönəldir.

***"Biz hər şeyi sayıb yazmışıq."*** *(78: 29)*

**14** ədədindən söhbət gedərkən maraqlı bir tarixi faktı diqqətinizə çatdırım ki, Məhəmməd (s) dünyaya təşrif gətirən gecəsi, zalım şah olan fars hökmdarı Nuşirəvanın sarayından **14** (!) sütun uçdu. Hadisəni şərh etmək üçün saraya toplaşan münəccimlər və bilicilər belə qərara gəldilər ki, səmavi kitablar vasitəsi ilə xəbəri qabaqcadan verilən Peyğəmbər artıq dünyadadır və Nuşirəvanın hakimiyyəti süqut edəcək. Aradan heç iki il keçmədi ki, verilən proqnoz özünü doğrultdu və Sasanilər dövləti dağıldı.

*"İbrahim"* surəsinin rəmzi olan **14** ədədi "Quran"-da çox böyük tarazlıq yaradır. Belə ki, ***"Rəhimli Allah"*** surəsinin sıra nömrəsi və rəmzi olan **55** ədədi bu müqəddəs kitabda **41** dəfə keçir (cəmi qırx bir surədə 55-ci ayə var. Qalan surələrdə ayələrin sayı 55-dən azdır).

Eyni zamanda **41** ədədi Quranda **55** dəfə keçir





(kitabın cəmi əlli beş surəsində 41-ci ayə var. Qalan surələrdə ayələrin sayı 41-dən azdır). Bunların fərqi isə **14** ədədinə bərabərdir:

**55 – 41 = 14**

Beləliklə, **14** ədədi tarazlıq (balans) rəmzi sayılır. Məlumdur ki, bəşər yaranandan xeyirlə şər arasında həmişə balans olmuşdur. Bəşər tarixinin elə mərhələləri də olmuşdur ki, xeyirlə ər arasında mövcud balans (birincinin ziyanına) pozulmuşdur. Peyğəmbərlər tarixini araşdırdıqda, məlum olur ki, onların zühuru da məhz belə mərhələlərdə baş verir. Yəni Allah-təala xeyirlə şər arasında pozulmuş tarazlığı peyğəmbərlər vasitəsi ilə bərpa edir. Bu gün də Yerdə xeyirlə şər arasında tarazlığın pozulması göz önündədir. Artıq haqq-ədalət demək olar ki, qalmayıb. Yerdəki bu vəziyyət Allah-təalanın qəzəbinə səbəb olmuşdur. Elmi-ladun araşdırmalarımız göstərir ki, son vaxtlar baş verən təbii fəlakətlər və müəmmalı təyyarə qəzaları da məhz bu qəzəbin təzahürüdür. Bunu sübut edən faktları aşağıda diqqətinizə çatdıracağam.

Günəş tutulmalarının cədvəlində olduğu kimi, Ay tutulmalarının da cədvəlində tutulmalar arasında interval **355** gündür ki, bu da (Ay təqvimi ilə) bir il deməkdir. Bu fakt Ay tutulmalarındakı nizamı, qanunauyğunluğu sübut etməklə yanaşı, həm də diqqətimizi yaradılışın əks olunduğu və dördüncü səmavi kitab olan

"Quran"a yönəldir. Qeyd edim ki, "Quran"ın ***"Ay"*** (54) surəsində eyni ayə **dörd** (!) dəfə təkrar olunur:

***"And olsun ki, Biz Quranı*** *(ondan)* ***ibrət almaq*** *(öyüd nəsihət qəbul etmək)* ***üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan*** *(ondakı elmdən, ədəbdən faydalanan)* ***varmı?!"*** *"Ay" surəsi, 17-22-32-40-cı ayələr.*

Baş vermiş hadsələrin təhlili göstərir ki, Günəş və Ay tutulmaları insanlara xəbərdarlıqdır – siqnaldır. Belə olduqda insanlar günahlarına görə tövbə etməli və yaxşı işlər görməyə çalışmalıdırlar. Çünki belə xəbərdarlıqların ardıyla təbii fəlakətlər və qəzalar gəlir. Ancaq qazanılan savablar insanı bu cür fəlakətlərdən sıgortalayır (necə ki, Nuh və onun ətrafındakılar sıgortalanmışdılar). Söhbətin bu yerində Allah dostu İbrahim bin Ədhəmin sözləri yada düşür.

*Bir gün İbrahim bin Ədhəmdən soruşdular ki, "Allah-təala buyurur:*

*"Ey bəndələrim, Məndən dilək diləyin, qəbul edərəm, verərəm". Halbuki diləyirik, vermir. Səbəbi nədir? İbrahim bin Ədhəm belə cavab verdi: "Allah-təalanı çağırırsınız, amma ona itaət etmirsiniz. Peyğəmbəri tanıyırsınız, amma onun ardınca getmirsiniz. "Qurani-Kərim"i oxuyursunuz, amma onun göstərdiyi yolla getmirsiniz. Cənabi Haqqın nemətlərindən faydalanırsınız, amma Ona şükr etmirsiniz. Cənnətin ibadətkarlar üçün olduğunu bilirsiniz, amma hər vaxt ibadətə hazır durmursunuz. Cəhənnəmin asilər üçün yaradıldığını*





*bilirsiniz, amma ondan çəkinmirsiniz. Atalarınızın və babalarınızın aqibətinin necə olduğunu görürsünüz, amma ibrət almırsınız. Öz ayıblarınızı görmürsünüz, amma başqalarının ayıblarını araşdırırsınız. Belələri ki, var şükr etsinlər ki, başlarına daş düşmür və yerə girmirlər. Daha nə istəyirlər? Dualarınızın nəticəsi yalnız bu olursa, kifayət deyilmi?"*

## "QURAN" NİYƏ 114 SURƏDİR?

***"Siz** (günah törətməkdə) **həddi aşan bir qövmsünüz deyə,** (sizi başlı-başına buraxıb) **"Quran"ı sizə təbliğ etməkdən vaz keçməliyikmi?!"** "Quran", "Qızıl bəzəklər"surəsi, 5.*

Fəxri-kainat Peyğəmbərimiz Məhəmməd əl-Mustafa (özünə və davamçılarına salam olsun!) hədislərinin birində "*Mən elmin şəhəriyəmsə, Əli əleyhissəlam onun qapısıdır*" – deyə buyurmuşdur. Mən də öz növbəmdə bu buyruğa əməl edərək, elm şəhərinə (dəryasına) QAPIDAN girməyə qərar verdim. Odur ki, rəqəmlərdəki hikmətin seyrinə dalmaq üçün Əli əleyhissalamdan bir hədisə nəzər salaq:

*Bir yəhudi alimi Həzrət Əlinin elmini yoxlamaq üçün ondan soruşdu ki, «dünyada elə bir ədəd varmı ki, birdən ona qədər bütün rəqəmlərə qalıqsız bölünsün?» Həzrət dedi: «Yeri vur onun qatlarına, axtardığını tapacaqsan. Yəhudi alimi 360-ı vurdu yeddiyə, 2520 ədədini aldı. Qumun üstündəcə hesablama apardı, gördü birdən ona qədər bütün rəqəmlərə qalıqsız bölünür. Alim Allahın və Onun vəlisinin elmi qarşısında heyrət etdi və Onun qüdrətinə boyun əyərək, oradaca İslamı qəbul etdi.*

Bildiyimiz kimi, dördüncü səmavi kitab olan "Qurani-kərim" Məhəmməd əleyhissalama Həzrət Cəbrayıl vasitəsi ilə, vəhy yolu ilə nazil edilmiş və Peyğəmbərin





yanındakı katiblərin vasitəsi ilə dərilərin və daşların üzərinə həkk olunmuşdur. Peyğəmbərimizin vəfatından sonra isə Xəlifə Osmanın hakimiyyəti dövründə onun tapşırığı ilə bir qrup alim və "Quran"ı əzbər bilənlərin iştirakı ilə bu yazılar kitab halına salınmışdır. Bunu bəhanə edərək, müəyyən adamlar "Quran"ın ayələrinin və surələrinin sayı, onların düzülüşü haqqında mübahisə açırlar. Guya kiminsə haqqında olan ayələr "Quran"dan çıxarılıb və yaxud Peyğəmbər özünə sərf edən sözləri bu kitaba salıb.

Bəzi adamların fikrincə isə, bu müqəddəs kitabın sözləri (ayələri) Allah kəlamı olsa da, bunların düzülüşü (hansı ayənin harada yerləşməsi) insan beyninin məhsuludur. Mənim fikrimcə isə bu cür düşünənlər yanılırlar. Yəni, ayələr Allaha məxsus olduğu kimi, onların nömrələnməsi, hansı surədə yerləşməsi, eləcə də surələrin düzülüşü də tamamilə Allah-təalanın nəzarəti və iradəsi ilə baş tutmuşdur və xüsusi bir qanunauyğunluğa tabedir. Bunu sübut etmək üçün aşağıda dəyərli dostum Xalid Fərəcin vəhy yolu ilə qəbul etdiyi və təbliği elə həmin vəhylə də bu sətirlərin müəllifinə həvalə edilən bir neçə riyazi dəlil–düsturu sizin diqqətinizə çatdıracağam. Bu riyazi sübutlar "Quran"ın nömrələnməsinin Allah tərəfindən olduğunu və bu müqəddəs kitab tərtib edilərkən (bu günədək) heç bir kəlmənin dəyişilmədiyini bəşəriyyətə sübut etmək üçündür:

Kainatın **dörd** cəhətdən, təbiətin **dörd** fəsildən ibarət olmasını, həmçinin insanın **dörd** ünsürdən yaran-

masını və bu müqəddəs kitabın **dördüncü** səmavi kitab olmasını nəzərə alıb, "Quran"ın ilk **dörd** surəsindəki ayələri cəmləyək:

**7 + 286 + 200 + 176 = 669**

Qeyd edim ki, bu dörd surə bəşəri dəyərləri mülayimliklə təblig etdiyindən, **669** ədədi də "Quran"da mülayimlik və yaxud bəşəri dəyərlər rəmzi sayılır.

Bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından bəhs edən surələr isə **9** rəqəmi ilə gəlir (9; 19; 29; … 109) və sayı 11 olan bu surələrdəki ayələri cəmləsək, **555** ədədi alınar. Bu ayələrə fikir versək, əsasən sərt ayələrdən ibarət olduğunu və **cəzadan** bəhs etdiyini görərik.

Elə isə bəşəri dəyərləri mülayimliklə təbliğ edən **669** ədədindən, sərtlik və cəza rəmzi olan **555** ədədini çıxaq:

**669 – 555 = 114**

Alınan **114** ədədi "Quran"ın surələrinin sayını göstərir. Düsturdan məlum olur ki, *bu müqəddəs kitabın mahiyyəti bəşəri dəyərlərin təbliğindən və bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından ibarətdir.*

***"Həqiqətən, Rəbbin insanların zülmünə baxmayaraq, onlara qarşı mərhəmət sahibidir. Və şübhəsiz ki, Rəbbinin cəzası da şiddətlidir!"*** *"Quran", "Göy gurultusu" surəsi, 6.*





Bu düstur bir daha təsdiq edir ki, "Quran"ın 114 surədən və 6.236 (altı min iki yüz otuz altı) ayədən ibarət olması, həmçinin, surələrin və ayərin düzülüşü insan beyninin məhsulu olmayıb, Allahın elmi və iradəsi ilə düzülmüşdür.

***"Biz hər şeyi sayıb yazmışıq"*** *"Xəbərdarlıq" surəsi (78:29).*

## "MƏHƏMMƏD" SURƏSİ NİYƏ 47 ƏDƏDİ İLƏ NÖMRƏLƏNİB?

Fəxri-kainat Peyğəmbərimizin adına olan ***"Məhəmməd"*** surəsi **47** ədədi ilə nömrələnmişdir. Bundan qabaqkı səhifədə bəhs etdiyim hikmətlər burada da özünü büruzə verir. Bu hikməti sübut etmək üçün dostum Xalid Fərəcin vəhylə qəbul etdiyi daha bir düsturu diqqətinizə çatdıracam. Düsturdan məlum olur ki, ***"Məhəmməd"*** surəsinin sıra nömrəsi olan **47** ədədi onu Allahın Öz adına olan ***"Rəhimli Allah"*** surəsinə bağlayır. Yəni, Peyğəmbərin adına olan surənin hikməti Allahın adına olan surədə açılır.

Belə ki, sözü gedən surə *("Rəhimli Allah")* **78** ayədən ibarətdir. Bu ayələrin otuz birində eyni ayə təkrar olunur:

***"Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?!"***

Bunu əsas götürüb, ayələrin ümumi sayı olan **78** ədədindən təkrar olunan **31** ədədini çıxaq:

**78 – 31 = 47**

Gördüyünüz kimi, alınan **47** ədədi ***"Məhəmməd"*** surəsinin sıra nömrəsini göstərir. Bu fakt həmçinin, "Quran"ın düzülüşünün Allaha məxsus olmasını bir daha təsdiq edir. Eyni zamanda Məhəmməd əleyhis-səlamın Allahın Rəsulu olmasının riyazi yolla təsdiqidir.





Surədəki eyni ayənin niyə məhz **31** dəfə təkrar olunmasına gəldikdə isə, **31** ədədi ***"Loğman"*** surəsinin nömrəsi olmaqla, elm sahiblərinə (Allahın elm bəxş etdiyi şəxslərə) işarədir. Mənası odur ki, **31** dəfə verilən suala ancaq elm sahibləri düzgün cavab verərlər. Bu həm də Məhəmməd əleyhissəlamın bir elm sahibi olmasına işarə verir.

Bu və aşağıda təqdim edəcəyim digər dəlillər həm də onu sübut edir ki, "Quran"ın **114** surədən, **6236** (altı min iki yüz otuz altı) ayədən ibarət olması heç bir şübhə doğurmur.

## TƏYYARƏ QƏZALARININ MONİTORİNQİ ONLARIN "QURAN"LA VƏ ASTRONOMİK HADİSƏLƏRLƏ ƏLAQƏSİNİ SÜBUT EDİR

Əvvəlcə onu qeyd edim ki, "*Quran*"ın orjinalı **286** səhifədən ibarətdir. Yəni, XVIII əsrə qədər (ərəb ölkələrində İslama baxış dəyişənə qədər) çap olunan və Kəbədə, elcə də dünyanın müxtəlif muzey və kitabxanalarında saxlanılan bütün "*Quran*" kitabları **286** səhifəyə yerləşdirilib.

Araşdırmalarımız göstərir ki, bu, təsadüf olmayıb, xüsusi bir qanunauyğunluğa tabedir. Bu qanunauyğunluq isə, özünü aşağıdakı hikmətlərdə biruzə verir:

1) "*Quran*"da təsbit olunmuş İslamın iki böyük bayramı – Qurban və Ramazan bayramları arasında qalan günlərin sayı bir qayda olaraq, (Qurban bayramından sayılmaqla) **286** gündür.

2) İnsan ana bətnində **286** günə yaranır. Belə ki, cütlüklər görüşəndən sonra, toxumun ana bətninə çatması **6** gün + bətndə normal inkşaf **280** gün = **286** gün. Deməli, uşaq ana bətnində "*Quran*"ın hər səhifəsinə bir gün hesabı ilə qalır.

3) İnsanlar ən çox Günəş və Ay (Qəməri) təqvimindən istifadə etməklə, ildə iki dəfə təqvim dəyişməsini qeyd edirlər: 21 martda və 31 dekabrda. Bu iki bayram arasında qalan günlərin sayı da (Novruz bayramından sayılmaqla) bir qayda olaraq **286** gündür.





4) Quranın 2-ci surəsi olan ***"İnək"*** surəsinin də **286** ayədən ibarət olması təsadüfi deyildir. Belə ki, inəyin **286** sümüyün birləşməsindən yaranmasını artıq elm təsdiq etmişdir.

"Quran"ın əsas mahiyyəti günahlara görə insanın TÖVBƏ etməsidir ki, bu da üç dəfə deyilir. Bunu riyazi dilə çevirsək: 286; 286; 286. Bunları topladıqda isə, **858** ədədi alınır:

**286 + 286 + 286 = 858**

Elmi-ladun üsulu ilə son 15 ildə baş verən bütün Günəş və Ay tutulmalarının monitorinqini apardım. Əldə etdiyim nəticələr astronomları və fizikləri heyrətə saldı (monitorinqin nəticələri barədə bir neçə məqalə və kitab yazıb, çap etdirmişəm). Belə ki, bütün Günəş və Ay tutulmalarının bir-biri ilə "Quran"ın səhifələrinin üç misli olan **858** (!) ədədi ilə bağlandığı sübut olundu (bax: aşağıdakı iki cədvələ).

**XXI əsrin ilk 15 ilində baş verən Ay tutulmalarının cədvəli**

| Əsrin ilk tutulması | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 09.01.2001 | 858 | 16.05.2003 | | | | |
| 05.07.2001 | 858 | 09.11.2003 | 858 | 14.03.2006 | | |
| 30.12.2001 | 858 | 05.05.2004 | 858 | 07.09.2006 | | |
| 24.06.2002 | 858 | 28.10.2004 | 858 | 03.03.2007 | 858 | 07.07.2009 |
| 24.04.2005 | 858 | 28.08.2007 | 858 | 31.12.2009 | | |
| 17.10.2005 | 858 | 21.02.2008 | 858 | 26.06.2010 | | |
| 16.08.2008 | 858 | 21.12.2010 | 858 | 25.04.2013 | | |
| 09.02.2009 | 858 | 16.06.2011 | 858 | 19.10.2013 | | |
| 06.08.2009 | 858 | 10.12.2011 | 858 | 15.04.2014 | | |
| 04.06.2012 | 858 | 08.10.2014 | | | | |
| 28.11.2012 | 858 | **04.04.2015** | | | | |
| 25.05.2013 | 858 | **28.09.2015** | | | | |





***XXI əsrin ilk 15 ilində baş verən Günəş tutulmalarının cədvəli***

| Əsrin ilk tutulması | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 21.07.2001 | 858 | 23.11.2003 | 858 | 29.03.2006 | 858 | 01.08.2008 |
| 14.12.2001 | 858 | 19.04.2004 | | | | |
| 10.06.2002 | 858 | 14.10.2004 | | | | |
| 04.12.2002 | 858 | 08.04.2005 | | | | |
| 31.05.2003 | 858 | 03.10.2005 | 858 | 07.02.2008 | 858+858 | **13.09.2015** |
| 22.09.2006 | 858 | 26.01.2009 | 858 | 02.06.2011 | | |
| 19.03.2007 | 858 | 22.07.2009 | 858 | 26.11.2011 | | |
| 11.09.2007 | 858 | 15.01.2010 | 858 | 21.05.2012 | | |
| 11.07.2010 | 858 | 14.11.2012 | 858 | **20.03.2015** | | |
| 04.01.2011 | 858 | 10.05.2013 | | | | |
| 01.07.2011 | 858 | 03.11.2013 | | | | |

Son illərdə təyyarələrin müəmmalı şəkildə qəzaya uğraması haqda xəbərləri demək olar ki, hər gün eşidirik. Bu qəzaların da monitorinqini aparаrkən, heyrətamiz faktlar üzə çıxdı. Belə ki, tərtib etdiyim cədvəldən aydın olur ki, astronomik hadisələrdə olduğu kimi, göydə baş verən təyyarə qəzaları da biri-birilə **858** ədədi ilə bağlanır. Yəni eyni markalı təyyarələr **858** günün tamamında təkrar qəzaya uğrayır. Burada diqqət çəkən daha bir heyrətamiz fakt ondan ibarətdir ki, qəzaya uğrayan təyyarələrin üzərindəki marka bir qayda olaraq Ay tutulmasından keçən günün sayını göstərir.

Məsələn:

1) 30 dekabr 2001-ci il tarixdə baş verən Ay tutulmasının **727**-ci günü Afrikada "Boenq-**727**" (!) təyyarəsi qəzaya uğradı (26.12.2003). Həmin Ay tutulmasının **737**-ci günü isə "Boenq-**737**" (!) təyyarəsi qəzaya uğradı (03.01.2004).

2) 8 sentyabr 2006-cı il tarixli Ay tutulmasının **737**-ci günü Moskva-Perm marşrutu ilə uçan "Boeng-**737** - **500**" markalı təyyarə müəmmalı şəkildə qəzaya uğradı (14.09.2008). Bu qəzadakı daha bir sirri açmaq üçün markadakı ədədləri toplayaq:

**737 + 500 = 1237**

Maraqlıdır ki, bu qəza 24 aprel 2005-ci il tarixdə (ilin 114-cü günü) baş verən Ay tutulmasının **1237**-ci (!) günü baş verib.

3) 17 avqust 2008-ci il tarixli Ay tutulmasının **747**-ci günü Səudiyyə Ərəbistanında "Boenq-**747**" təyyarəsi qəzaya uğradı (04.09.2010). və s.





Oxucuları yormamaqçün siyahını çox uzatmıram və keçirəm bu qəzaların arasında olan **858** ədədinə. Yuxarıda qeyd etdim ki, eyni markalı təyyarələr **858** günün tamamında təkrar qəzaya uğrayır.

Məsələn:

1) 2005-ci ilin dekabrın 23-də Bakıda "AN 140-100" markalı təyyarənin müəmmalı şəkildə qəzaya uğraması uzun müddət mətbuatın gündəmindən düşmədi. Jurnalistlər əsas diqqəti ona yönəldirdilər ki, 2002-cü ilin də eyni tarixində (23 dekabrında), eyni saatında və hətta eyni dəqiqəsində eyni markalı ("AN 140-100") təyyarə İran ərazisində qəzaya uğramışdı. Mən də öz növbəmdə bu iki oxşar hadisə üzərində olan sirr pərdəsini elmiladunla qaldırmaq istədim və çox heyrətamiz nəticə əldə etdim. Belə ki, İranda və Azərbaycanda yuxarıda sadaladığım oxşarlıqlarla baş verən qəzalar arasında 1098 gün fərq vardır ki, bundan da təyyarənin markasını çıxsaq "Quran" rəmzi olan **858** ədədi alınır:

**1098 - 140 – 100 = 858**

2) 2004-cü ilin martın dördündə Bakıda baş verən "İL-**76**" qəzası böyük əks-səda verdi. Maraqlıdır ki, hadisənin **76**-cı (!) günü Çində Azərbaycana məxsus daha bir "İL-**76**" təyyarəsi (18 mayda) qəzaya uğradı ("Quran"ın ***"İnsan"*** surəsinin sıra nömrəsi olan 76 ədədi bəşəriyyətin diqqətini İNSAN olmağa yönəldir). İkinci qəzanın **858-**ci günü isə (9 iyul 2006) Yerdə bir gündə beş sərnişin təyyarəsi qəzaya uğradı. Bütün bu qəzalar arasında riyazi bağlılıq vardır. Oxucunu yorma-

maq üçün onlardan ikisini şərh edəcəm: Həmin gün Rusiyaya məxsus iki ədəd "A-**310**" markalı təyyarə qəzaya uğradı (birinin sərnişiləri xilas edildi);

**310 +310 = 620**

Qəza baş verən gün 28.10.2004-cü il tarixli Ay tutulmasının **620**-ci günü idi (!)

Bu qəzalar həmçinin, digər Ay tutulmasının (24.06.2002) **1478**-ci günü baş verib ki, bundan da həmin iki təyyarənin markasını çıxdıqda yenə də **858** ədədi alınır:

**1478 – 310 – 310 = 858**

3) İndi keçək 2013-cü il iyulun 7-də Aerikada baş verən "Boenq-**777**" qəzasının görünməyən tərəflərinə. Araşdırmalarımız göstərir ki, bu qəza özündən əvvəlki eyni sirli qəzalarla riyazi yolla əlaqəlidir ki, bu da onların təsadüf olmadığını və eyni MƏRKƏZDƏN çox dəqiqliklə idarə olunduğunu sübut edir. Belə ki, bu qəza:

– özündən əvvəl Amerikada (20 may 2011) baş verən "Boenq **707**" qəzasının **777**-ci (!) günüdür;

– 10 dekabr 2011 tarixdə baş verən Ay tutulmasının **572**-ci günüdür ki, bu da “Quran”ın səhifələrinin iki mislidir:

**572 – 286 = 286**

– Hindistanda (22.05.2010) baş verən "Boenq-**737**" qəzasının **1144**-cü günüdür ki, bu da **286** ədədinin dörd mislidir (“Quran” dördüncü səmavi kitabdır.);





- Londonda (17 yanvar 2008) baş verən "Boenq-**777**" qəzasının 2002-ci günüdür ki, bu da **286** ədədinin **7** mislidir. Xatırladım ki, Londondakı həmin qəza elm əsri olan XXI əsrin 2574-cü günüdür ki, bu da **858** ədədinin üç mislidir:

**2574 – 858 – 858 = 858**

4) 28 iyun 2014-cü ildə Londonda iki ədəd "Boenq-**737-800**" markalı təyyarə toqquşub. Xoşbəxtlikdən ölən olmayıb. Bundan əvvəlki qəzalarda olduğu kimi, bu qəzada da bir qanunauyğunluq vardır. Və bu qanunauyğunluq təyyarənin markasında öz əksini tapmışdır. Belə ki, sadə hesablama aparaq:

**737 + 800 = 1537.**

Maraqlıdır ki, hadisə baş verən gün Polşa Prezidentinin təyyarədə həlak olmasının (10.04.2010) **1537**-ci (!) günüdür.

5) 8 mart 2014-cü il tarixdə Malayziyaya məxsus “Boenq-**777**” markalı təyyarə müəmmalı şəkildə yoxa çıxdı. Bugünədək axtarılsa da, nə təyyarədən, nə də içərisindəki 239 nəfər insandan bir xəbər yoxdur.

Hadisədə diqqət çəkən məqam, onun yenə də **858** ədədi ilə özündən əvvəlki qəzalara bağlanmasıdır. Belə ki, qəzadan **858** gün qabaq dünyada eyni gündə (01. 11. 2011) üç təyyarə qəzası baş vermişdi. Bunlardan ikisi Türkiyə aeroportunda biri-biri ilə toqquşmuşdu. Biri isə Polşada yerə enərkən təkəri açılmadığından qəzaya uğramışdı.

Malayziyada baş verən sözügedən qəza əvvəlkilərdə olduğu kimi, Ay tutulması ilə də bağlanır. Belə ki, qəza baş verən gün 25 may 2013 tarixli Ay tutulmasının **286**-cı günüdür ki, bu da Quranın səhifələrinin sayını göstərir.

Qəzada diqqət çəkən digər məqam markadakı **7** ədədinin üç dəfə təkrarlanmasıdır.

Belə ki, bildiyimiz kimi həm yer, həm də göy **7** qatdan ibarətdir. Həmçiniin insan Allaha səcdə edərkən, onun **7** üzvü (2 əl, 2 ayaq, 2 diz və 1 alın) yerə dəyir. Beləliklə, yer, göy və insanda olan bu yeddiləri toplasaq **21** alınır.

Maraqlıdır ki, bütün bu sirli və hikmətli təyyarə qəzaları məhz **XXI** əsr başlayandan sonra özünü biruzə verməyə başlayıb.

Bu da Quranın müvafiq (21-ci) surəsi ilə əlaqədardır. Belə ki, "*PEYĞƏMBƏRLƏR*" adlanan surə və onun rəmzi olan **21** ədədi elm, kamillik və Peyğəmbərlik rəmzi sayılır.

Oxucunu yormamaqçün faktları uzatmıram (bundan qabaqkı kitablarımda və məqalələrimdə də bu mövzuda kifayət qədər faktlar sadalamışam). Qeyd etmək istəyirəm ki, yuxarıda sadaladığım hadisələr, insanların diqqətini bəşəri dəyərlər toplusu olan QURANa yönəltmək üçün verilmiş kodlaşdırılmış xəbərdarlıqlardır.

*"(Rəbbim)* ***Öz əmri ilə mələkləri vəhy ilə bəndələrindən istədiyinə göndərib belə buyurar: "İnsanları əzabımla qorxudub bildirin: "Məndən başqa heç bir Tanrı yoxdur. Məndən qorxun!"*** "Quran", 16:2.





## AZƏRBAYCANDA BAŞ VERƏN QATAR QƏZALARININ MONİTORİNQİNƏ DAİR

*Elmi-ladun söhbətlər*

***"Sənin Rəbbin mərkəzlərinə (*** *şəhərlərinə* ***) ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmələkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!"*** *Quran, 28:59*

Bundan əvvəlki yazıda təyyarə qəzalarının, astronomik hadisələrin monitorinqini təqdim etmişdim. Monitorinqin nəticələrindən məlum olurdu ki, yerdə baş verən bütün anomal hadisələr və qəzalar riyazi yolla "Quran"a bağlanmaqla, yolun azmış xalqlara Allahdan bir xəbərdarlıqdır.

Bu yazımda isə Azərbaycanda son iki ildə baş verən qatar (o cümlədən metro qatarı) qəzalarının monitorinqini təqdim edəcəyəm.

Hesablamalarımız göstərir ki, son dövrlər ölkəmizdə baş verən, enerji və qatarla bağlı olan həyəcanlı hadisələr bir-biri ilə əlaqəlidir. Belə ki, bu əlaqə özünü Quran rəmzi olan **114** ədədi ilə büruzə verməklə, diqqətimizi bu müqəddəs kitaba yönəldir.

Qatar qəzalarında diqqət çəkən digər maraqlı məqam onların ildırımla müşayət olunmasıdır. Yəni, ildırım vurması səbəbindən baş verməsidir.

Məsələn:

1) 2012-ci ilin 23 sentyabrında həm Siyəzən, həm də Hacıqabul rayonlarında (eyni vaxtda) elektrik yarımstansiyalarını ildırım vurdu və hər iki rayon qaranlığa qərq oldu. Hadisə ilə əlaqədar Hacıqabuldan keçən bütün qatarlar dayandı. Bu səbəbdən ölkədə böyük bir həyəcan yaşandı.

2) Maraqlıdır ki, yuxarıdakı hadisə **114** (!) gündən sonra Hacıqabulda təkrar baş verdi. Belə ki, elm əsrinin **13**-cü ilinin, **13**-cü (!) günü Hacıqabulda ildırımın qatarı vurması səbəbindən böyük bir yanğın həyəcanı yaşandı. Dəmir yolu bir müddət bağlı qaldığından Bakı istiqamətində hərəkət edən bütün qatarlar dayandı. Bu hadisə həm bölgədə, həm də olkədə həyacanla izlənildi.

Bu hadisələrdə diqqət çəkən əsas məqam ondan ibarətdir ki, ikinci hadisə birincinin **114**-cü (!) günü baş vermişdir ki, bu da Quran rəmzidir.

Hər iki hadisə ildırımla (!) bağlıdır və **13**-cü ilin **13**-cü günündə təkrarlanmışdır.

3) Əsrin **13**-cü ilinin 24 aprelində Bakı metrosunda daha bir həyacan yaşandı. Belə ki, qatarda qəza baş verdiyindən sərnişinlər bir müddət tuneldə qaldı. Hadisə sərnişinlər arasında böyük bir həyacan (!) və çaxnaşma yaratdı. Ölkənin bütün KİV-lərində yayımlanan bu qəzada diqqət çəkən əsas məqam ondan ibarətdir ki, qəza baş verən gün ilin **114**-cü (!) günü idi.

***"Biz hər şeyi sayıb yazmışıq!"*** *Quran, 78:29.*

4) Yadınıza salım ki, **13**-cü ilin mayın 7-də Bakı-Moskva reysi ilə hərəkət edən sərnişin qatarı yük maşını





ilə toqquşmuş, maşın kənardakı 3.500 voltluq elektrik dirəyinə dəyərək, onu aşırmış və bölgə qaranlığa qərq olmuşdu. Həm də dəmir yolu bağlı qaldığından, bütün sərnişin qatarları yolda qalmışdı.

Maraqlıdır ki, bu Qatar qəzası da ikinci bənddə göstərdiyim analoji qəzanın **114**-cü (!) günü baş vermişdir.

5) Bildiyimiz kimi **13**-cü ilin 19 dekabrında Bakı metropolitenində baş vermiş qəza ilə əlaqədar qatar bir müddət tuneldə qaldı. Bu hadisə də qatardakı sərnişinlərlə bərabər ölkənin bütün əhalisində həyəcan (!) yaratdı.

Diqqətinizi daha bir maraqlı məqama cəlb edim ki, bu hadisə özündən əvvəlki (4-cü bənddəki) qatar qəzasının **228**-ci günü baş vermişdir ki, bu da Quran rəmzi olan **114** ədədinin iki mislidir:

**228 – 114 = 114**

***"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır."*** Quran,19:94.

6) 2014-cü ilin fevralın 10-da Azərbaycanda 5,5 bal gücündə zəlzələ baş verdi. Başqa vaxtlarda baş verən zəlzələlərdən fərqli olaraq, ölkəmizin bütün rayonlarında yaşayan adamlar bunun həyacanını yaşadı.

Maraqlıdır ki, bütün ölkəni silkələyən bu hadisə də **114** ədədinə bağlanırdı. Belə ki, zəlzələ baş verən gün 19 oktyabr 2013-cü il tarixdə baş verən Ay tutulmasının (hər iki hadisə qiyamət rəmzidir.) **114**-cü günü idi.

7) 11 iyun 2014 tarixdə Naxşıvan hava limanına eniş edən "Boenq-757" sərnişin təyyarəsini ildırım vurmuş və nəticədə qəza baş verdiyindən ölən və yaralananlar olmuşdur.

Qeyd edim ki, təyyarə qəzası baş verən gün, yazının 4-cü bəndindəki qatar qəzasının 400-cü günü idi. Bundan da Quranın səhifələrinin sayı olan **286** ədədini (bütün təyyarə qəzaları da bu ədəd altında baş verir) çıxsaq, yenə də Quranın surələrinin sayı olan **114** alınır:

**400 - 286 = 114**

Oxucunu yormamaqçün faktları artırmıram. Sual yaranır ki, ölkəmizdə baş verən bu cür təbii fəlakətlər və qəzalar niyə daim “Quran” rəmzlərinə bağlanır? Bu nəyin əlamətidir və cəmiyyətə hansı kodlaşdırılmış informasiyanı ötürür?

Sadaladığım faktlar sübut edir ki, Azərbaycanda baş verən həyəcanlı Qatar qəzaları təsadüfən baş verməyib, ciddi bir qanunauyğunluğa və nizama tabedir.

Bu qanunauyğunluğun isə “Quran” rəmzi olan **114** ədədi altında baş verməsi, ölkə əhalisinin diqqətini bəşəri dəyərlər toplusu olan “Quran”a cəlb etmək məqsədi daşıyır.

Bu sirli hadisələr bəlkə də “yolunu azmış millətimizi” gözləyən bəlaların və cəzalanmaların XƏBƏRDARLIĞIDIR.

Odur ki, insanlar etdikləri çoxsaylı fərdi günahlara görə tövbə etməli və “Quran”da yazılanlara əməl etməlidirlər. Ancaq bu yolla gələn bəlalardan sığortalanmaq mümkündür.





***"Biz, peyğəmbər göndərməmiş*** *(heç bir ümmətə)* ***əzab verməzik!***

***Biz bir məmləkəti məhv etmək istədikdə*** *(bir nəfərin dili ilə)* ***onun naz-nemət içində yaşayan başçılarına*** *(Allaha itaət etməyi, iman gətirməyi)* ***əmr edərik. Lakin onlar*** *(bu çağrışa məhəl qoymayıb)* ***pis-pis işlər törədərlər. Beləliklə*** *(o məmləkətə əzab verilməsi haqqındakı)* ***hökm vacib olar və onu yerlə yeksan edərik.***

***Biz Nuhdan sonra neçə-neçə ümmətləri*** *(məmləkətləri)* ***məhv etdik".*** *Quran, 17:15-17.*

**P.S.** Bütün hadisələrin Hacıqabul ətrafında cərəyan etməsi və bu əraziyə bağlanması da təsadüfi olmayıb, rayonun adı ilə bağlıdır. Yəni, insanın Həcci burada da qəbul oluna bilər - gözəl əməlləri ilə...

## TÖVBƏ SURƏSİ NİYƏ "BİSMİLLAHSIZ" BAŞLAYIR?

***"Siz** (günah törətməkdə) **həddi aşan bir qövmsiniz deyə,** (sizi başlı-başına buraxıb) **Quranı sizə təbliğ etməkdən vaz keçməliyikmi?!"** "Qızıl bəzəklər" surəsi, 5-ci ayə.*

Xatırladım ki, elm və kamillik əsri olan XXI əsrin **ikinci** Qurban bayramı günü (**22**. 0**2**. **2**00**2**.) elmi-ladun hesablamalarla mənə məlum oldu ki, ***"Tövbə"*** surəsinin ilk üç ayəsindəki hökm bugünkü Qurban bayramına da şamil olunur.

Belə ki, bu ayələrdə bu gün Qurban bayramı (!) olduğu vurğulanaraq, doğru yolda olmadıqları insanların diqqətinə çatdırılır və düz yola qayıtmaq üçün onlara dörd ay möhlət verilir:

***"Allahdan və Onun Peyğəmbərindən saziş bağladığımız müşriklərə bir xəbərdarlıq: "Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz… Əgər tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. Kafir** (günahkar) **olanları şiddətli bir əzabla müjdələ!"*** Bax: "Tövbə" (9) surəsinin ilk üç ayəsinə.

Allahın verdiyi elmlə, dörd aylıq möhlətin **22**-24 iyunda (bayram 3 gündür.) bitəcəyini bildiyimdən, bu





barədə açıq məktub yazıb, mətbuat orqanlarına göndərdim (5 iyun 2002-ci il tarixdə həmin müraciət "Hürriyyət" qəzetində çap olundu).

Nəhayət, **22** iyunda İranın Azərbaycanlılar yaşayan bölgəsində baş verən **9** (!) bal zəlzələ ilə bəşəriyyətin cəzalanma prosesinin başlanğıcı qoyuldu.

Ondan sonara Yerdə baş verən bütün təbii fəlakətlər və təyyarə qəzalarının bu prosesin davamı olduğunu zaman-zaman məqalələrimdə və kitablarımda riyazi hesablamalarla sübut etmişəm.

Əvvəlcə **22** iyunla (**2**00**2**) bağlı verdiyim xəbərin doğruluğunu sübut etmək üçün daha bir dəlil gətirim: elm əsrinin birinci, ikinci və üçüncü Qurban bayramlarının **286**-cı günləri – müvafiq olaraq:

- 14 dekabr 2001-ci il;
- 4 dekabr 2002-ci il;
- 24 noyabr 2003-ci il tarixlərdə Günəş tutulub. Hər üç tarix müvafiq olaraq Ramazan ayının 29-cu günlərinə düşüb.

Həmçinin **22** iyun **2**00**2-**ci il tarixinin **286**-cı günü – 3 aprel 2003-cü ildə Günəş tutulub.

Bu faktlar **22** iyun tarixinin də Qurban bayramları (tövbə günləri) ilə eyni statusa malik olmasını sübut edir. Onu da əlavə edim ki, **2**-ci Qurban bayramı günü verilmiş dörd aylıq möhlət başa çatan gün – 24 iyunda (bayram üç gün olduğundan, möhlət də üç günə bitir) Ay tutulması baş verdi.

Baş vermiş hadsələrin təhlili göstərir ki, Günəş və Ay tutulmaları insanlara xəbərdarlıqdır – siqnaldır. Belə olduqda insanlar günahlarına görə tövbə etməli və yaxşı işlər görməyə çalışmalıdırlar. Çünki belə xəbərdarlıqların ardıyla təbii fəlakətlər və qəzalar gəlir. Ancaq qazanılan savablar insanı bu cür fəlakətlərdən sıgortalayır (necə ki, Nuh və onun ətrafındakılar sıgortalanmışdılar). Söhbətin bu yerində Allah dostu İbrahim bin Ədhəmin sözləri yada düşür.

*Bir gün İbrahim bin Ədhəmdən soruşdular ki, "Allah-təala buyurur:*

*"Ey bəndələrim, Məndən dilək diləyin, qəbul edərəm, verərəm". Halbuki diləyirik, vermir. Səbəbi nədir? İbrahim bin Ədhəm belə cavab verdi: "Allah-təalanı çağırırsınız, amma ona itaət etmirsiniz. Peyğəmbəri tanıyırsınız, amma onun ardınca getmirsiniz. "Qurani-Kərim"i oxuyursunuz, amma onun göstərdiyi yolla getmirsiniz. Cənabi Haqqın nemətlərindən faydalanırsınız, amma Ona şükr etmirsiniz. Cənnətin ibadətkarlar üçün olduğunu bilirsiniz, amma hər vaxt ibadətə hazır durmursunuz. Cəhənnəmin asilər üçün yaradıldığını bilirsiniz, amma ondan çəkinmirsiniz. Atalarınızın və babalarınızın aqibətinin necə olduğunu görürsünüz, amma ibrət almırsınız. Öz ayıblarınızı görmürsünüz, amma başqalarının ayıblarını araşdırırsınız. Beləlari ki, var şükr etsinlər ki, başlarına daş düşmür və yerə girmirlər. Daha nə istəyirlər? Dualarınızın nəticəsi yalnız bu olursa, kifayət deyilmi?"*





## VİCDAN İNSANIN DAXİLİ TRANSFORMATORUDUR

Fəslin əvvəlində insanın **22**0 sümüyün birləşməsindən yaranmasının hikmətlərindən bəhs etdim. Maraqlıdır ki, insanda olan **22**0 sümüyün **22**-si **baş**dadır.

Quranda isə, **22**-ci surə ***"Həcc"*** surəsidir və burada Allahın evi, başqa sözlə desək enerjinin **BAŞ**lanğıcı, mərkəzi olan ***Kəbə*** evinin ətrafına fırlanmaqdan söhbət açılır. Bunlar təsadüfü deyildir.

Yeri gəlmişkən, diqqətinizi cihazların daxilində qoyulmuş transformatorun funksiyasına cəlb etmək istəyirəm. Bu transformatorlar **22**0 voltluq enerjini bir qayda olaraq **9**-a çevirərək istifadə edirlər. Bunu insanın daxilində olan ***vicdanla*** müqayisə etmək olar.

Belə ki, Quranın **9**-cu surəsi ***"Tövbə"*** adlanır və yeganə surədir ki, *"Bismilah"*sız başlayır. Səbəbi odur ki, Bu surə yuxarıda söhbət açdığım **22**-ci *(Həcc)* surənin davamıdır. Sözümün sübutu üçün deyim ki, **9**-cu surənin ilk üç ayəsini oxuduqda görürük ki, bu gün Qurban bayramı - HƏCC günü olduğu qeyd olunub və doğru yolda olmadıqları insanların nəzərinə çatdırılır. Həmçinin, insanlara TÖVBƏ etmək tövsiyyə edilir...

Yəni, riyazi dildə desək, Quranda ***"iyirimi iki"*** *"doqquza"* çevrilir. Necə ki, fizikada **22**0 gəlib cihazın daxilində **9**-a çevrilir...

Buradan belə qənaət hasil olur ki, insan öz enerjisini əmələ çevirərkən, onu vicdanının (oxu: daxili transfor-

matorunun) süzgəcindən keçirməlidir. Yəni, TÖVBƏ surəsinin sərhədləri daxilində əməllər etməlidir. Öz enerjisini günah işlərə sərf etməməlidir. Əgər insan **fizikanın** (Allah kainatı fizikanın qanunları ilə idarə edir) qanunlarına tabe olmayıb, enerjisini günah işə sərf edərsə, onda mütləq gec-tez bəlaya (ziyana, cəzaya) məruz qalacaqdır. Son dövrlərdə cəmiyyətdə həyacanlı hadisələrin (qəzaların, zəlzələlərin...) artması da məhz bu amillə əlaqədardır.

Əvvəlki yazılarımda qeyd etdiyim **13**-cü ildə Azərbaycanda baş verən bütün həyacanlı hadisələrin (metro qəzalarının) məhz **13** ədədi altında baş verməsi də təsadüfü deyildir. Yeri gəlmişkən, əvvəlki araşdırmama əlavə olaraq daha bir riyazi hikməti diqqətinizə çatdırıram:

**22 - 9 = 13**

Bildiyimiz kimi, **13** ədədi Quranda ildırım, cəza rəmzidir. Buradan aydın olur ki, biz tövbə etmədikcə və öz enerjimizi əmələ çevirərkən, onu vicdan süzgəcindən keçirmədikcə, cəmiyyətimizdə qəzalar və həyacanlı hadisələr getdikcə intensivləşməkdədir. Bütün bunlardan sığortalanmağın yolu TÖVBƏDƏN (9) keçir. Artıq neçə illərdir ki, mən bu qanunauyğunluğa riayət edirəm və mənə inananlara da bunu tövsiyyə edirəm. Allah sizləri qorusun!

***"Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda*** *(lövhi-məhfuzda)* ***yazılmamış olsun. Bu, Allah üçün çox asandır!"*** Quran, 57:22.





## DÜNYADA BAŞ VERƏN ENERJİ QƏZALARININ GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ

***Elmi-ladun işığında***

*"**Rəbbim hər şeyi elmlə ehtiva etmişdir. Məgər düşünüb öyüd-nəsihət qəbul etmirsiniz?"** "Quran", "Davar" surəsi, 80.*

XXI əsrdə dünyada baş verən enerji böhranlarının monitorinqini apararkən çox maraqlı məqamlar üzə çıxdı. Oxucuların marağına səbəb olacağını nəzərə alıb, həmin maraqlı məqamları diqqətinizə çatdırmaq istəyirəm. Belə ki, enerji qəzalarını adi təqvim üzəriində sayarkən onların bir qayda olaraq "Quran"da tövbə və cəza rəmzi olan **555** ədədinə bağlandığını görmək olur (555 ədədinin mənasını bilmək üçün kitabdakı "Quran niyə 114 surədir" yazısına baxmalı). Məsələn:

**1)** 13 iyul 2002-ci ildə Azərbaycanda baş verən enerji böhranı bütün ölkəni qaranlığa qərq etmişdi. Həmin gün elm əsri olan XXI əsrin **555**-ci (!) günü idi.

**2)** Azərbaycanda daha bir enerji böhranı 29 yanvar 2006-cı ildə baş vermişdir. Bu böhran da astronomik hadisələrə bağlanır. Belə ki, həmin gün 5 iyul 2001-ci il tarixli Ay tutulmasının **1665**-ci günündür ki, bu da **555** ədədinin üç mislidir:

**1665 - 555 - 555 = 555**

*(Həmin gün Danimarkada baş verən enerji böhranının 858-ci günü idi)*

**3)** 20 aprel 2006-cı ildə Azərbaycanda baş verən enerli böhranı Bakını qaranlığa qərq etmiş, metro da daxil bütün nəqliyyat və digər mühüm obyektlərin fəaliyyətini dondurmuşdu. Həmin gün 14 oktyabr 2004-cü il tarixli günəş tutulmasının **555**-ci günü idi.

***"And olsun ki, Allah bunları hesablamış, və təkrar-təkrar saymışdır"*** *Quran, 19: 94.*

**4)** Bakıda növbəti enerji böhranı 6 iyul 2006-cı ildə baş verdi. Həmin vaxt bir çox vacib dövlət strukturları və mühüm obyektlər fəaliyyətini dayandırmaq məcburiyyətində qaldılar. Bu böhranın da əvvəlkilərin davamı olduğu və xüsusi qanunauyğunluğa tabe olduğu aşağıdakı hesablamalardan görünür:

- həmin qəza 14 dekabr 2001-ci il tarixli Günəş tutulmasının **1665**-ci günü baş verib ki, bu yenə də cəza rəmzi olan **555** ədədinin üç mislidir:

**1665 - 555 - 555 = 555**

- qəza həmçinin, 24 noyabr 2003 tarixli Günəş tutulmasının **955**-ci günü baş verib ki, bundan da Quranın səhifələrinin və surələrinin sayını çıxdıqda yenə də **555** ədədi alınır:

**955 – 286 – 114 = 555**

**5)** Yadınıza salım ki, dünyanın diqqətini özünə cəlb edən enerji böhranlarından biri (ən böyüyü) də 2003-cü ilin avqustun 13-də Amerikada baş vermiş və bir həftə iki dövlət (Amerika və Kanada) qaranlığa qərq olmuşdu.





Diqqətinizə çatdırım ki, həmin gün elm və peyğəmbərlik rəmzi olan XXI əsrin **955**-ci günü idi. Elə isə, bundan Quranın səhifələrinin (286) və surələrinin (114) sayını çıxsaq, yenə də tövbə və cəza rəmzi olan **555** ədədi alınır:

**955 – 286 – 114 = 555**

**6)** Xəbər verildiyi kimi 31 mart 2015-ci il tarixdə Türkiyədə enerji böhranı baş vermiş və ölkə gün ərzində qaranlığa qərq olmuşdur.

Hesablamalarımız göstərir ki, bu hadisə də təsadüf olmayıb, “Quran”da qiyamətin əlaməti kimi göstərilən astronomik hadisələrlə əlaqələnir. Bu əlaqə özünü yenə də TÖVBƏ və cəza rəmzi olan **555** ədədi ilə çox aşkar biruzə verir. Məsələn:

- Türkiyədəki enerji böhranı 21 iyul 2001-ci il tarixli Günəş tutulmasının (qiyamət xəbərdarlığının) **4995**-ci günüdür ki, bunu da “Tövbə” surəsinin rəmzi olan **9**-a bölsək, cəza rəmzi olan **555** ədədi alındığını görərik:

**4995 : 9 = 555**

- Həmin enerji böhranı baş verən gün həmçinin 28 avqust 2007-ci il tarixdə baş verən Günəş tutulmasının **2775**-ci günüdür ki, 5-ə böləndə yenə də **555** ədədi alınır və diqqətimizi yenə də Qurana və cəzadan bəhs edən ayələrə yönəldir:

**2775 : 5 = 555**

Bütün bunlar göstərir ki, dünyada baş verən enerji qəzaları da təyyarə qəzalarında olduğu kimi təsadüf olmayıb, xüsusi bir qanunauyğunluğa tabedir. Mənası isə, odur ki, insanlar pis əməllərinə son qoyub, TÖVBƏ etsinlər və doğru yola dönsünlər!

Bunlar həmçinin, böyük bəlaların gələcəyini xəbər verən kodlaşdırılmış **xəbərdarlıqlardır**!

***"Sənin Rəbbin mərkəzlərinə** (böyük şəhərlərinə) **ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!"** Quran,28:59*





## İstifadə edilmiş ədəbiyyat:


1 .Ziya Bünyadov, V. Məmmədəliyev. "Quran-Kərim". Azərbaycan dilinə tərcümə. Bakı, 2000.

2. Məşədixanım Nemət. "Azərbaycanda pirlər". Bakı, 1992. 120 səh.

3. Paşa Yaqub. "Peyğəmbər nəvələri Azərbaycanda". Bakı, Hərbi nəşriyyat, 2008, 128 səh.

4. Rəcəb Dıkıcı. "Böyük övliyalar". Bakı, Vətən nəşriyyatı, 1993.

5. Məhəmməd Məhəmmədcəlil; Fariz Xəlilli. "Mövlanə İsmayıl Siracəddin Şirvani". Bakı, "Adiloğlu", 2003.

6. Elxan Şükürlu. Məqalələri.

## *MÜƏLLİF HAQQINDA*

**Tədqiqatçı-yazıçı**
**Paşa Yaqub Alı oğlu**
**Elmi-dini və tarixi araşdırmalarla**
**məşğuldur. Otuz iki kitabın**
**(o cümlədən dörd ensiklopediyanın) müəllifidir.**

**Əgər siz bu kitabı əldə etmək, yaxud kitabın növbəti nəşri üçün fikir və təkliflərinizi bildirmək istəsəniz, həmçinin nisyə çap olunmuş bu kitabın ödənişində yardımçı olmaq istəsəniz aşağıdakı telefon vasitəsi ilə müəlliflə əlaqə yarada bilərsiniz:**

**Tel.: 050 375 30 97**

***"Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah*** *(lütfü ilə)* ***genişdir".*** *"Quran", 2:261*

Qabaqcadan təşəkkür edirik.





# Mündəricat

QURANDA QADININ DƏYƏRİ ........ 3
HƏZRƏT MƏRYƏM ........ 11
PEYĞƏMBƏR BAĞÇASININ GÜLLƏRİ ........ 22
PEYĞƏMBƏR QIZI RUQƏYYA ........ 29
PEYĞƏMBƏR QIZI FATİMƏ ........ 34
İMAM QIZLARININ AZƏRBAYCANA GƏLİŞİ ........ 37
HƏZRƏT XƏDİCƏ XANIM ........ 65
RƏBİƏ ƏDƏVİYYƏ ........ 72
PİR CAHAN ........ 77
KƏRAMƏT SAHİBLƏRİ CƏMİYYƏTİN TRANSORMATORU FUNKSİYASINI YERİNƏ YETİRİRLƏR ........ 82
ZİYARƏTGAHLAR CƏMİYYƏTİN İLDIRIMÖTÜRÜCÜLƏRİDİR ........ 87
PİR AĞALARI NİYƏ VURDU? ........ 89
"QURAN" İNSANA MƏHƏBBƏT AŞILAYIR ........ 92
KƏRAMƏT SAHİBLƏRİ TESTER FUNKSİYASINI YERİNƏ YETİRİRLƏR ........ 95
DİALEKTİKANIN QANUNLARI ALLAHI VƏ QURANI TƏSDİQ EDİR ........ 98
KƏND ADAMLARINDA TORPAĞA MƏHƏBBƏT NİYƏ ŞƏHƏRLİLƏRDƏN ÇOX OLUR? ........ 100
DAKTİLOSKOPİYYA ELMİ VƏ "QURAN" ........ 102
SƏNƏTKARA ÖZ YERİNDƏ QİYMƏT VERİLMƏZ ........ 105
İNSAN NECƏ NURLANIR? ........ 107
İNSAN MƏSCİDƏ BƏNZƏYİR ........ 111
GÜL ƏKİN, GÜL BECƏRİN ........ 112
BƏSİRƏT GÖZÜNÜ NECƏ AÇMAQ OLUR? ........ 113
İÇKİNİ NİYƏ TƏRGİTDİM? ........ 116
QURAN İNSANIN TEXNİKİ PASPORTUDUR ........ 119
GÜNƏŞ TUTULMALARI BİR QAYDA OLARAQ AYIN 29-DA BAŞ VERİR ........ 120
ASTRONOMİK HADİSƏLƏR VƏ DAŞQINLAR ........ 126
AY TUTULMALARI NİYƏ AYIN 14-DƏ ........ 129
BAŞ VERİR? ........ 129

"QURAN" NİYƏ 114 SURƏDİR?.................................................................135
"MƏHƏMMƏD" SURƏSİ NİYƏ 47 ƏDƏDİ İLƏ NÖMRƏLƏNİB?.........139
TƏYYARƏ QƏZALARININ MONİTORİNQİ ONLARIN "QURAN"LA VƏ ASTRONOMİK HADİSƏLƏRLƏ ƏLAQƏSİNİ SÜBUT EDİR ...........................................................................141
AZƏRBAYCANDA BAŞ VERƏN QATAR QƏZALARININ MONİTORİNQİNƏ DAİR...............................................................................150
TÖVBƏ SURƏSİ NİYƏ "BİSMİLLAHSIZ" BAŞLAYIR?........................155
VİCDAN İNSANIN DAXİLİ TRANSFORMATORUDUR.........................158
DÜNYADA BAŞ VERƏN ENERJİ QƏZALARININ GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ....................................................................160
İstifadə edilmiş ədəbiyyat: ...............................................................................164
Müəllif haqqında ............................................................................................ 165





**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Mətanət Əliqızı***
**Kompyüterdə yığdı:** ***Əminə Yaqub***

Çapa imzalanmışdır: 25.06.2015. Formatı 60x84 1/16.
Həcmi 10,5 ç.v. Sifariş № 25,Tiraj 500

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73, mob. (050, 055) 344 76 01.
e-poçtu: zerdabi_em@mail.ru